Hər kəs ədalətli olacaq

ƏDALƏT

# İlham Əliyevin Prezidentliyə namizədliyi təsdiq edildi



**Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikası Prezidentliyinə namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi təsdiq edilib.**

Adalet.az xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının iclasında qərar qəbul edilib.

# *Zakir Həsənov və Kərim Vəliyev Laçına getdi*

## Hərbçilərə tapşırıqlar verdilər

**Dekabrın 20-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi cənab Məsim Məmmədov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb.**

Adalet.az xəbər verir ki, müdafiə naziri şəxsi heyətin fərdi hazırlığının təkmilləşdirilməsi, bilik və bacarığının daha da artırılması üçün üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsinin vacibliyini vurğulayıb.

Ali Baş Komandanın istənilən tapşırıqlarının icrasına hər an hazır olmaları hərbi qulluqçuların diqqətinə çatdırılıb.

Cənab M.Məmmədov Azərbaycan Respublikasının Prezidentinin diqqət və qayğısı sayəsində ölkəmizin bütün bölgələrində, o cümlədən azad edilmiş ərazilərdə hərbi qulluqçuların maddi-texniki təminatının, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb. Bu işlərin gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə edib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu qiymətli hədiyyələrlə təltif edilib.

Nazir təqdim edilən hərbi texnikalara baxış keçirib, onların heyətlərinin hazırlığını yoxlayıb.

Hərbi hissədə yaradılan şəraitlə maraqlanan müdafiə nazirinə məruzə edilib ki, burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, camaşırxana-qazanxana və ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar mövcuddur.

**General-polkovnik Z.Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, eləcə də döyüş hazırlığının yüksək səviyyədə saxlanması ilə bağlı aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib. Sonda şəxsi heyətlə birgə nahar edilib.**

# Sahibə Qafarova: "Bu qərar Azərbaycan xalqının arzu və istəyini ifadə edir"



**YAP-ın qərarı ilə partiyadan İlham Əliyev prezidentliyə namizəd göstərilib. Təbii ki, bu qərar Azərbaycan xalqının arzu və istəyini ifadə edir.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında spiker Sahibə Qafarova deyib.

MM sədri qeyd edib ki, bu gün Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsinə çevrilib.

# Xankəndidə "Qarabağ" mərhələ adladı



**Dünən Azərbaycan kuboku oyunları çərçivəsinə Ağdamın "Qarabağ" komandası adını daşıdığı Qarabağ bölgəsinin mərkəzi şəhərlərindən olan Xankəndidə MOİK-lə qarşılaşıb. Bu, 30 illik fasilədən sonra Qarabağ bölgəsinin işğaldan azad edilən hissəsində ilk rəsmi oyun olub. "Qarabağ" 90+5-ci dəqiqədə vurduğu qolla 1:0 hesabı ilə qalib gəlib və 1/4 finala adlayıb.**

# General: "Seçkilərlə bağlı müvafiq tədbirlərə başlanılıb"



**Fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə bağlı Daxili İşlər Nazirliyində müvafiq tədbirlərə başlanılıb.**

Adalet.az xəbər verir ki, bunu daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev dairə seçki komissiyalarının sədrləri üçün keçirilən müşavirədə deyib.

Nazir müavini bildirib ki, prezident seçkilərinin qanunvericiliyə uyğun təhlükəsiz şəraitdə keçirilməsi, ictimai asayişin qorunmasının təşkili məqsədilə nazirlik müvafiq tədbirlər planı hazırlayıb.

# "Komitə uşaqpulu məsələsini dövlət qarşısında qaldırıbmı?"



**"Azərbaycan ailələrinin çox böyük problemləri var ki, geniş müzakirə olunmalıdır. Onlardan biri ailələrin tez dağılmasıdır. Bizdə möhkəm ailə institutu olub, təəssüf ki, indi bu zəifləyir. Abort, qızların ana olmamaq istəməməsi problemdir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Sabir Rüstəmxanlı "Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2022-ci ildə fəaliyyəti haqqında məlumatı"n müzakirəsi zamanı deyib.

"Bilmək istərdim ki, komitə ailələrin qorunması məsələsinə kömək edən uşaqpulu məsələsini dövlət qarşısında qaldırıbmı? Bu məsələ bir neçə dəfə Milli Məclisdə də müzakirə olunub", - deyə deputat bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, qanunvericilikdə çoxuşaqlı ailələrin sayı məsələsinə baxmaq, uşağın sayını aşağı endirmək olar:

"Ünvanlı yardımların daha əlçatan olması ilə bağlı məsələlər də həll edilə bilər", - komitə sədri vurğulayıb.


Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 49 (6042) 22 dekabr 2023-cü il | Qiyməti 40 qəpik


# "Ədalət" qəzetinin əməkdaşı MEDİA-nın müsabiqəsində qalib oldu



**Medianın İnkişafı Agentliyinin (MEDİA) elan etdiyi fərdi jurnalist müsabiqəsinin nəticələri açıqlanıb.**

"Ədalət" qəzetinin əməkdaşı Nicat Rüstəmov (Novruzoğlu) "MEDİA - Fərdi jurnalist müsabiqəsi"nin "Ən yaxşı müsahibə" nominasiyasının birincisi olub.

Qeyd edək ki, qalib gəlmiş jurnalistlərə pul mükafatı təqdim olunacaq.

# "QARABAĞ" XANKƏNDİNDƏ OYNADI



# Ermənilər yalnız bu halda Qarabağa qayıda bilər

**"35 ildir davam edən münaqişə artıq başa çatıb". Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Londonda jurnalistlərə açıqlamasında deyib.**

Diplomat bildirib ki, Azərbaycan qonşusu Ermənistanla uzunmüddətli sülh müqaviləsi bağlamaq üçün heç bir böyük maneə görmür və hesab edir ki, onların sərhədlərinin müəyyənləşdirilməsi məsələsi sülh müqaviləsindən kənar şəkildə həll oluna bilər: "Hazırda Azərbaycanın strategiyası sülhü qazanmaqdır. Bu, hər iki tərəfdən hərəkət tələb edir".

Prezidentinin köməkçisi həmçinin qeyd edib ki, Azərbaycan anklav problemlərini müzakirə etməyə hazırdır: "Lakin sərhədlərin delimitasiyası məsələsi sülh müqaviləsi müzakirələrindən ayrı saxlanılmalıdır".

Hikmət Hacıyev bildirib ki, ermənilərin Qarabağa geri qayıtmaq hüququ hər bir halda müəyyən edilməlidir. Bunun üçün onlar Azərbaycan vətəndaşı olmalıdırlar: "Azərbaycan vətəndaşlığı verildikdən sonra ermənilərin geri qayıtmaq hüququ təmin oluna bilər".

Onun sözlərinə görə, 1988-ci ildən Ermənistanı və ya Ermənistanın nəzarətində olan əraziləri tərk etməyə məcbur olan azərbaycanlılar üçün də qarşılıqlı hüquqlar olmalıdır.

# QARAÇI FİLAN YERİNİ TƏRİFLƏYƏN KİMİ...



**Erməni lobbisi ABŞ senatoruna təsir etdi. Erməni lobbisi istəməsə Makron yenidən prezident ola bilməyəcək. Erməni lobbisi belə hoppandı, elə hoppandı...**

ABŞ-ın əhalisi 250 milyondan çoxdur və uzağı bu ölkədə 500 min erməni yaşayır, qudursun olsun 600 min. 600 min ermənінin gücü 250 milyondan çoxdurmu?

Və yaxud Fransada 50 milyon qurbağa yeyən var, uzağı da 300-400 min erməni, bunlar necə təsir edə bilər seçkilərə?

Xəbərlərə qulaq asanda belə fikirləşirsən ki, ermənilər ABŞ-ı və Fransanı işğal ediblər.

Əslində erməni lobbisi yoxdur. ABŞ-ın və Fransanın uydurduğu bir yalandır ki, bundan istifadə edirlər.

Görək hara qədər və nə vaxtadək istifadə edə biləcəklər? 44 günlük müharibədə biz erməni lobbisinin nəyə qadir olduğunu gördük. Bir qələt edə bilmədilər.

# Putin: ABŞ Avropanı qorxudur ki, Rusiya hücum edəcək



**ABŞ Rusiyanın Avropa ilə yaxınlaşmasından çox narahat idi. Başqa ölkələri Moskva ilə qorxutdular.**

Adalet.az xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin deyib.

"ABŞ Rusiyanın Avropa ilə yaxınlaşmasından çox qorxdu. Avropada onlar ağa olmalı idi. Onlar hər zaman qorxudurdular: "Baxın, pis Rusiya sizi hədələyir". Amma mən bir çox liderlərlə danışmışam, onlar da deyirlər ki, "Niyə bizi qorxudurlar? Biz başa düşürük ki, Rusiya Avropa ilə döyüşmək fikrində deyil". Bəli, biz buna hazırlaşmırıq", - Putin bildirib.

# ÜST-dən ETİRAF: Koronavirus artır

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən COVID-19 virusunun yeni ştamı ("JN.1") "nəzarətdə saxlanılan variantlar" siyahısından çıxarılaraq "diqqət tələb edən" variantlar siyahısına daxil edilib.**

Adalet.az xəbər verir ki, bu dəyişiklik yeni ştamın Şimal yarımkürəsində rastgəlmə tezliyinin gün keçdikcə artması nəticəsində olub.

ÜST-də mövcud olan məlumatlar göstərir ki, "JN.1"in yaratdığı əlavə qlobal ictimai sağlamlıq riski hazırda aşağı səviyyədə qiymətləndirilir.

Buna baxmayaraq, Şimal yarımkürəsində qışın başlaması ilə "JN.1" bir çox ölkələrdə respirator infeksiyaların yükünü artıra bilər.

Qeyd edək ki, indiyədək Azərbaycanda ümumilikdə 834 189 nəfərin xəstəliyə yoluxması faktı müəyyən edilib, onlardan 823 770 nəfər müalicə olunaraq sağalıb, hazırda 42 aktiv xəstə var. Bu günə qədər 10 377 nəfər vəfat edib.

# *Məktəblərə telefon gətirilməsinə qadağa qoyulub?*

**Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi Azərbaycanın ümumi təhsil müəssisələrində şagirdlərə dərsə mobil telefon gətirməyə qadağa qoyulması barədə məlumatların təhrif edildiyini və yayılan xəbərin reallığı əks etdirmədiyini açıqlayıb.**

Bu barədə Adalet.az-a Dövlət Agentliyindən bildirilib.

"Məlumat üçün bildiririk ki, ötən tədris ilinin ikinci yarımilindən başlayaraq ölkəmizin 300 məktəbində "Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları" tətbiq edilib.Həmin qaydalara əsasən, şagird ağıllı saat və telefonları, həmçinin digər elektron cihazları məktəbə gətirməməli və dərs zamanı istifadə etməməlidir. Şagird, əgər məktəbə gəlib-getməsi üçün təhlükəsizliyinin təmin olunması məqsədilə telefon gətirirsə, həmin telefon şagirddən alınaraq təhlükəsiz yerdə saxlanılır və dərs məşğələləri bitdikdən sonra ona geri qaytarılır.

Bir daha yekun olaraq bildiririk ki, bu qayda yalnız pilot olaraq seçilmiş 300 məktəbdə tətbiq edilir", - qurumdan qeyd olunub.

# "Media savadlılığı" platformasının təqdimatı oldu



**Bakıda "Media savadlılığı" platformasının təqdimatı keçirilib.**

Adalet.az xəbər verir ki, təqdimat "Media savadlılığı" konfransının proqramı çərçivəsində baş tutub.

Medianın İnkişafı Agentliyinin "Media dəstək layihələri və strateji planlaşdırma" şöbəsinin müdiri Ləman İsgəndərova təqdimat zamanı deyib ki, veb-sayt platforması 5 bölmə və 10 altbölmədən ibarətdir.

Onun sözlərinə görə, hər bir istifadəçi saytdakı testləri edərək öz media savadlılığını yoxlaya bilər.

L.İsgəndərova əlavə edib ki, media savadlılığı təkcə peşəkar medianın yox, bütövlükdə cəmiyyətin həyatında mühüm rol oynayır.

# NASA-dan yeni kəşf: Yeraltı okeanlar...





**NASA kəşf edilmiş 17 ekzoplanetin qalın buz təbəqələrinin altında yeraltı okeanların ola biləcəyini müəyyən edib.**

Adalet.az xəbər verir ki, bu barədə "Astrofizikal Jurnal" məlumat yayıb.

"Bu, həyatın kimyəvi əlamətlərini axtarmaq üçün perspektivli yerlər ola bilər. Onların dəqiq tərkibi qeyri-müəyyən qalsa da, əvvəlki tədqiqatlardan səth temperaturları barədə təxminlər ekzoplanetlərin Yerdən əhəmiyyətli dərəcədə soyuq olduğunu göstərir", - məlumatda deyilir.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

# YENƏ ŞAH İSMAYIL SÖHBƏTİNİ ATIBLAR ORTALIĞA



***Özü də sevdiyim, istedadını yüksək qiymətləndirdiyim, ölkədə filosof qıtlığında gənc bir filosof kimi qəbul etdiyim şair Aqşin Yenisey Şah İsmayılı hədəfə götürüb.***

***Bütün sultanların, kralların, çarların, padşahların həmişə hərəmxanası olub.***

***Osmanlı padşahı Sultan Əbdülhəmidin hərəmxanasında 300 qadın varmış. Mirzə Cəlilin bununla bağlı felyetonu var. Deyir ki, firəng qəzetləri yazır ki, Sultan Əbdülhəmidin 400 arvadı var, sizə nə? Felyetonun hamısını yazmıram.***

***Biz orta məktəbdə oxuyanda Sovet təbliğatı bizə Şah İsmayılı sərkərdə kimi yox, Xətai kimi, yəni şair kimi təbliğ edirdi. Yalnız universitetdə oxuyanda müəllimlərimiz Şah İsmayılın necə böyük bir sərkərdə olduğunu, hətta Marksdan sitat gətirməklə başa saldılar, öyrətdilər. Əsl tarixi keçdilər bizə.***


**Bax:səh-2**


# FRANSA SÜLƏNƏNLƏRİN SAYINI ARTIRDI

**Bildiyiniz kimi, Fransa Ermənistana bir missiya göndərib, onlar da Azərbaycanla sərhəd boyu əllərində durbin belədən-elə, elədən-belə sülənirlər.**

**Bu günlərdə əlavə yüz nəfər də göndərib. Yazıq ermənilər onlar üçün hər gün bir belə qurbağanı hardan tapacaqlar?**

## GÜNÜN LƏTİFƏSİ

Razi Nurullayevlə Tahir Kərimli Milli Məslisin foyesində söhbət edirlər.

Razi bəy:

**- Tahir müəllim, qonşumuzda 96 yaşında kimsəsiz bir arvad yaşayır, hər gün ona çörək, nə bilim xırda-xuruş ərzaq alıb aparıram. Bu gün mənə deyir ki, "Oğul, bu gecə səhərəcən fikirdən yata bilməmişəm. Deyirəm görəsən sən öləndən sonra mənə kim baxacaq.**

# Prezident Xankəndi stadionunda çıxış etdi



**Bu gün xalqımız tarixi hadisəyə şahidlik edir. Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları üz-üzə gəlir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxmaq üçün stadiona gəliblər. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndi. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Dövlətimizin başçısı oyundan əvvəl stadionda çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz!

İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin, hamımız birlikdə onları salamlayaq.

Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.

Üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər.

Biz - bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq.

Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.

Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır!

İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl - İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl - sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik.

Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır!

# Prezident İlham Əliyev Şuşada aparılan tikinti işlərinin gedişi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində 23 binadan ibarət ilk yeni yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olub.**

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.

Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin yaxın vaxtlarda istifadəyə verilməsi planlaşdırılır.

Dövlətimizin başçısı yaşayış kompleksində hazır mənzillərə baxdı. Məlumat verildi ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq. Diqqətə çatdırıldı ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

***

Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərinin Qarabağ küçəsində aparılan tikinti işləri ilə tanış olub. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi. Bildirildi ki, şəhərin mərkəzi küçəsinin layihəsi ümumilikdə 10 bina olmaqla dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Tikilməkdə olan binalarda artıq dəmir-beton konstruksiya işləri yekunlaşmaq üzrədir. Binalarda fasad və dam örtüyü işlərinə tezliklə başlanılacaq. Həmçinin layihə çərçivəsində Sadıqcanın evinin bərpa işlərində də başlanılıb.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq "Qarabağ" adını verib. Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqət mərkəzində saxlanılır. Tikinti işləri yüksək səviyyədə həyata keçirilir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olub. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

# Əli Əsədov Türkiyənin vitse-prezidenti ilə görüşüb

**Azərbaycanın Baş naziri Əli Əsədov dekabrın 20-də ölkəmizdə rəsmi səfərdə olan Türkiyənin vitse-prezidenti Cevdet Yılmazla görüşüb.**

Nazirlər Kabinetindən Adalet.az-a bildirilib ki, görüşdə Türkiyənin vitse-prezidentinin rəsmi səfərinin iki ölkə arasında mehriban qonşuluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib.

Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının və müttəfiqliyinin hərtərəfli inkişafında prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın səyləri xüsusi vurğulanıb.

Azərbaycan və Türkiyənin hər zaman bir-birini dəstəklədiyi məmnunluqla qeyd edilib.

Xüsusilə 44 günlük Vətən müharibəsi zamanı göstərilən siyasi-mənəvi dəstəyə görə qardaş türk xalqına və rəhbərliyinə bir daha dərin təşəkkür ifadə olunub. Azərbaycanın da hər zaman Türkiyənin yanında olduğu bildirilib.

Azərbaycan-Türkiyə sarsılmaz qardaşlığının Kahramanmaraşda baş vermiş dəhşətli zəlzələ zamanı da özünü göstərdiyi qeyd olunub. Bildirilib ki, bu gün Azərbaycan dağıdıcı zəlzələdən sonra bərpa-quruculuq işlərində də Türkiyənin yanındadır.

Azərbaycan Türkiyədə zəlzələdən zərər çəkən bölgələrin yenidənqurulmasına yardım üçün 100 milyon ABŞ dolları məbləğində vəsait ayırıb.

İqtisadi-ticari əməkdaşlığın çox yüksək dinamikaya malik olduğu məmnunluqla vurğulanıb. Ötən il qarşılıqlı ticarətin həcmi 6 milyard ABŞ dollarına yaxın olub ki, bu da 25% artım deməkdir. Cari ilin 11 ayında bu artım daha böyük temp nümayiş etdirir - 33%. Preferensial Ticarət Sazişinin ticarət dövriyyəsinin genişləndirilməsinə mühüm töhfə verəcəyi diqqətə çatdırılıb.

Mövcud olan geniş imkanlardan istifadə edilərək ticarətin həcminin daha da artırılacağına, iqtisadi əməkdaşlığın əhatə dairəsinin genişləndiriləcəyinə əminlik ifadə olunub. Bu baxımdan, Azərbaycan-Türkiyə Strateji Əməkdaşlıq Şurasının, həmçinin Birgə Hökumətlərarası Komissiyanın iclaslarında qəbul edilən qərarların icrasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Komissiyanın ötən ilin noyabr ayında Bakıda keçirilmiş son iclası zamanı imzalanmış Fəaliyyət Planının böyük hissəsi hökumətlərimizin birgə səyləri nəticəsində icra edilib.



Tərəflər Hökumətlərarası Komissiya çərçivəsində yaxından işləməyə hazır olduqlarını ifadə ediblər.

İnvestisiya sahəsində əməkdaşlığın yüksək dinamikası təqdir edilərək Azərbaycanın Türkiyədə, Türkiyənin isə Azərbaycanda ən böyük sərmayədarlardan biri olduğu məmnunluqla qeyd edilib.

Azərbaycanla Türkiyənin birgə reallaşdırdığı Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, Bakı-Tbilisi-Qars kimi enerji və nəqliyyat layihələrinin mühüm regional və qlobal əhəmiyyət daşıdığı vurğulanıb.

Cənub Qaz Dəhlizinin strateji önəmi qeyd edilərək Azərbaycan ilə Türkiyənin bundan sonra da Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə davam edəcəyinə ümidvarlıq ifadə olunub.

İğdır-Naxçıvan Təbii Qaz Boru Kəmərinin tikintisi də enerji gündəliyimizdə duran aktual məsələlərdən biridir. Türkiyə Prezidentinin cari ilin sentyabrında Naxçıvana səfəri zamanı dövlət başçıları tərəfindən təməli qoyulan bu layihənin də tez bir zamanda tamamlanacağına əminlik ifadə olunub.

Nəqliyyat sahəsində əməkdaşlığın inkişaf dinamikası xüsusi vurğulanıb. 2023-cü ilin 10 ayında iki ölkə arasında daşınmış yüklər həcminin 35% artığı bildirilib. Nəqliyyat sahəsində gündəlikdə duran bütün məsələlərin müsbət məcrada həll olunduğu bildirilərək Azərbaycan tərəfindən dəmir yolu daşıma tariflərinə Türkiyə daşıyıcıları üçün əhəmiyyətli endirimlərin tətbiq edildiyi diqqətə çatdırılıb.

Azərbaycanın əsas hissəsi ilə Türkiyə arasında birbaşa dəmir yolu əlaqəsinin təmin edilməsi baxımından Qars-Naxçıvan dəmir yolu layihəsinin reallaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan sentyabrda prezidentlər tərəfindən imzalanmış niyyət protokolunun önəmi vurğulanıb.

Tərəflər hər iki ölkənin ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə sahəsində də əməkdaşlığa böyük önəm verdiyini bildiriblər.

Son dövrlərdə müşahidə edilən qlobal iqlim dəyişmələri fonunda dünyada su ehtiyatlarının artırılmasının və sudan səmərəli istifadənin ciddi aktuallıq kəsb etdiyi diqqətə çatdırılıb.

Bütün ölkələr üçün olduğu kimi Azərbaycan üçün də su ehtiyatlarının qorunmasının strateji əhəmiyyət kəsb etdiyi bildirilib. Bu baxımdan iki ölkə arasında Araz və Kür çayları hövzəsinin su ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi ilə bağlı əməkdaşlığın zərurəti xüsusi vurğulanıb.

Görüşdə Türkiyə şirkətlərinin hazırda Qarabağda və Şərqi Zəngəzurda davam edən bərpa-quruculuq işlərində fəal iştirakı məmnunluqla qeyd olunub.

Tərəflər həmçinin Azərbaycan-Türkiyə münasibətlərinin kənd təsərrüfatı, humanitar, təhsil, turizm və maraq doğuran digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

# Bahar Muradova: "Blogerlik anlayışı qanunvericiliyə daxil edilməlidir"

**Blogerlik anlayışı qanunvericiliyə daxil edilməlidir. Bu sahədə hüquqi çərçivə müəyyən edilməyincə imkanlar da aydın olmayacaq.**

Adalet.az xəbər verir ki, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova "Ailə dəyərləri, qadın və uşaq hüquqlarının təbliği üzrə ən fəal bloger" mövzusuna həsr olunmuş II Ümumrespublika Bloger müsabiqəsinin nəticələri ilə bağlı keçirilən tədbirdə deyib.

B.Muradova qeyd edib ki, blogerlik anlayışının qanunvericiliyə daxil edilməsi istiqamətində müzakirələr aparılmalıdır.

"Hesab edirəm ki, bizim tərəfimizdən işlək mexanizmlərdən biri də blogerlik fəaliyyətidir. Yaxşı fəaliyyət istiqamətlərinin yaranması üçün siz qəbul olunmalısınız. Adınız qanunvericiliyə daxil edilməlidir ki, hədəfinizi biləsiniz və o istiqamətdə gündəlik stereotiplərə qarşı mübarizə aparasınız. Siz mübarizliyinizi, cəmiyyətə töhfə vermək istəyinizi ortaya qoymusunuz", - deyə B.Muradova qeyd edib.



Komitə sədri hesab edir ki, blogerlər arasında da ixtisaslaşma olmalıdır. Onlar ixtisaslaşa və koordinasiyalı şəkildə fəaliyyət göstərə bilərlər. "Biz bunun optimal yolunu tapmalıyıq", - deyə komitə sədri vurğulayıb.

# Əhməd İsmayılov: "Vətən müharibəsibdə qazandığımız qələbə medianın fəaliyyətinə də təsir edib"

**Şanlı Azərbaycan Ordusunun Vətən müharibəsibdə qazandığı qələbə medianın fəaliyyətinə də təsir edib.**

Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Bakıda keçirilən "Media savadlılığı" konfransında çıxışı zamanı deyib. O bildirib ki, müşahidə və informasiya bolluğu müəyyən çətinliklərə də səbəb olur: "Bu isə öz növbəsində media savadlılığının əhəmiyyətini artırır".



Ə.İsmayılov qeyd edib ki, media savadlılığı ilə bağlı Azərbaycanda müntəzəm təlimlər keçirilir: "Bu, həm də bölgələrdə təşkil olunur. Eyni zamanda, xarici ekspertlər müntəzəm olaraq ölkəmizə dəvət olunur".

# Gizir və miçmanlara kiçik leytenant rütbəsinin verilməsi ilk oxunuşdan keçib

**Azərbaycanda gizir və miçman vəzifələrində beş il və daha çox xidmət edənlərə kiçik leytenant hərbi rütbəsinin verilməsinə dair layihə ilk oxunuşdan keçib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" qanuna dəyişiklik layihəsi parlamentin iclasında birinci oxunuşda müzakirəyə çıxarılıb.

Prezident tərəfindən təqdim olunan qanun layihəsi zabitlərin həqiqi hərbi xidmətinə qəbul edilə bilən şəxslərin dairəsinin genişləndirilməsi məqsədilə hazırlanıb.

**Təklif edilən dəyişiklikdə, gizir və miçman vəzifələrində beş il və daha çox xidmət etmiş, zabit vəzifəsinə təyin edilmiş tam orta təhsilli (yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövr ərzində) gizir və miçmanlara hərbi hazırlıq keçdikdən və müəyyən edilmiş qaydada imtahan verdikdən sonra kiçik leytenant hərbi rütbəsinin verilməsi imkanı yaradılır.**

# Gürcüstanda AB bayrağı yandırıldı

**Gürcüstanda "Alt-İnfo"nun rusiyapərəst radikalları etiraz əlaməti olaraq AB-nin bayrağını yandırıblar.**

Bu barədə "European Pravda" məlumat yayıb.

Məlumata görə, daha əvvəl kremlyönlü hərəkatın üzvlərindən biri Laşa Şaruxiya Mtsxeta şəhərində administrasiya binasında quraşdırılmış ən böyük AB bayrağını yandırmışdı:

"Məhkəmə onu 6 il müddətinə azadlıqdan məhrum edib. Buna cavab olaraq "Alt-İnfo"nun tərəfdarları və üzvləri etiraz kampaniyasına başlayıblar. Onlar nümayişkaranə şəkildə AB bayraqlarını yandırıb, lentə alıb və görüntüləri sosial şəbəkələrdə yayıblar. Radikallar Laşa Şaruxiyanın azadlığa buraxılmasını tələb edir, əks halda iğtişaşlara başlayacaqları ilə hədələyirlər".

# Xarici yardım azaldı: Bəzi hərbi əməliyyatlar dayandırıldı...

Ukrayna xarici yardımların azalması səbəbindən Rusiya ilə müharibədə bəzi hərbi əməliyyatlarını dayandırmalı olduğunu açıqlayıb.

Adalet.az xəbər verir ki, Ukrayna Silahlı Qüvvələrinin Tavriya Əməliyyat-Strateji Qoşunları Qrupunun komandanı Aleksandr Tarnavski bildirib ki, cəbhə xəttindəki hərbi hissələrdə sursat çatışmazlığı yaranıb.

Reuters xəbər agentliyinə danışan Tarnavski bunun Ukrayna üçün böyük problem olduğunu bildirib.

Xüsusilə Sovet İttifaqı dövründən qalma silahları üçün top mərmilərinə ehtiyac duyduqlarını vurğulayan Tarnavski, "Ehtiyaclarımızı nəzərə alsaq, əlimizdə olan top mərmiləri kafi deyil. Bəzi bölgələrdə müdafiə mövqeyi tutduq. Taktika dəyişir"-deyərək o bildirib.



BBC-yə danışan Ukrayna müdafiə nazirinin müavini İvan Havrylyuk artilleriya mərmilərinin çatışmazlığını kompensasiya etmək üçün kamikadze İHA istehsalını artırdıqlarını bildirib.

ABŞ Ukraynaya Qərb istehsalı silahlarda istifadə oluna bilən 2 milyon 155 mm-dən çox artilleriya mərmisi göndərmişdi. Bununla belə, Ukrayna Rusiya ilə müharibədə öz tərəfdaşlarına təzyiq edə biləcək səviyyədə artilleriya mərmilərindən istifadə edir. Estoniya Müdafiə Nazirliyinin hazırladığı hesabatda Ukraynanın Rusiyaya qarşı hər ay ən azı 200 min top mərmisinə ehtiyacı olduğunu bildirilib. Müharibədə Qərb ölkələrinin göndərdiyi uzaq mənzilli raketlər və hava hücumundan müdafiə sistemlərindən xüsusilə asılı olan Ukrayna Qərbin köməyi ilə öz hərbi sursat sənayesini inkişaf etdirməyə ümid edir.

Bu yaxınlarda ABŞ və Avropa İttifaqının yardımı siyasi müzakirələr səbəbindən Ukraynaya çatdırıla bilmədi.

Ayın əvvəlində ABŞ Konqresindəki Respublikaçılar Ukraynaya 60 milyard dollarlıq hərbi yardım paketinin qarşısını aldılar. Bu, Macarıstanın Aİ-nin son sammitində Ukraynaya 50 milyard avroluq maliyyə yardımına veto qoymasından sonra baş verdi.

Aİ 2024-cü ilin martına qədər Ukraynaya 1 milyon artilleriya mərmisi göndəriləcəyini açıqlamışdı. Lakin indiyədək bu artilleriya mərmilərindən yalnız 480 mini Ukraynaya göndərilib və ya göndərilmək üzrədir.

**Rusiya prezidenti Vladimir Putin ötən həftə verdiyi açıqlamada bir daha bildirib ki, Ukrayna ilə müharibə ancaq ölkəsinin hərbi məqsədlərinə çatacağı təqdirdə bitəcək.**

**Vasif Əlihüseyn**

*Aqil ABBAS*

# YENƏ ŞAH İSMAYIL SÖHBƏTİNİ ATIBLAR ORTALIĞA

*Özü də sevdiyim, istedadını yüksək qiymətləndirdiyim, ölkədə filosof qıtlığında gənc bir filosof kimi qəbul etdiyim şair Aqşin Yenisey Şah İsmayılı hədəfə götürüb.*

*Bütün sultanların, kralların, çarların, padşahların həmişə hərəmxanası olub.*

*Osmanlı padşahı Sultan Əbdülhəmidin hərəmxanasında 300 qadın varmış. Mirzə Cəlilin bununla bağlı felyetonu var. Deyir ki, firəng qəzetləri yazır ki, Sultan Əbdülhəmidin 400 arvadı var, sizə nə? Felyetonun hamısını yazmıram.*



*Biz orta məktəbdə oxuyanda Sovet təbliğatı bizə Şah İsmayılı sərkərdə kimi yox, Xətai kimi, yəni şair kimi təbliğ edirdi. Yalnız universitetdə oxuyanda müəllimlərimiz Şah İsmayılın necə böyük bir sərkərdə olduğunu, hətta Marksdan sitat gətirməklə başa saldılar, öyrətdilər. Əsl tarixi keçdilər bizə.*

*Şah İsmayıl qısa ömründə parçalanmış Səfəvi dövlətini yenidən birləşdirdi və güclü dövlət halına gətirdi.*

*Yəni bu millət, bu xalq Şah İsmayılı sevir, amma son zamanlar bir çoxları bütün gücünü ortaya qoyub Şah İsmayılı gözdən, nüfuzdan salmağa çalışırlar. Özü də təkcə Şah İsmayılı deyil, Babəkdən üzü bəri olan qəhrəmanlarımızın hamısını. Sanki bu millətin bir qəhrəmanı olmayıb.*

*İnanmıram ki, Aqşin gündəmə gəlmək üçün Şah İsmayılı hədəf seçib. Çünki Aqşinin hər yazısı, hər şeiri, hətta ən adi bir statusu gündəm yarada bilir, küyə gedən oğlan da deyil.*

*Filosof və şair Aqşin dostuma da bir məsləhət görərdim ki, xalqın totemlərinə toxunmasın.*

*Çünki bunun bir ucu da gəlib Möhtərəm Prezidentimiz İlham Əliyevə toxunur. Ona görə ki, son üç ildə torpaqlarımızı 200 illik işğaldan azad eləmiş Ali Baş Komandanı Şah İsmayılla müqayisə edirlər.*

# *"Şəffaflıq baxımından göstəricilərimiz beynəlxalq standarlara uyğundur"*



**"Prezident seçkiləri ilə bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən lazımi addımlar atılır".**

Adalet.az xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib. O bildirib ki, MSK üzərinə düşən tədbirləri yüksək səviyyədə həyata keçirir.

O əlavə edib ki, seçkilərin hazırlanıb keçirilməsi ilə bağlı ölkədə ictimai siyasi sabitlik var. "Seçkilərin keçirilməsi üçün Azərbaycanda beynəlxalq səviyyədə qanunvericilik mövcuddur. Şəffaflıq baxımından da bizim göstəricilər beynəlxalq standarlara uyğundur".

MSK sədri vurğulayıb ki, seçki komissiyaları üçün yaradılan şərait nümunəvidir: "Eyni zamanda seçkiləri müşahidə etmək üçün müraciətlərə müsbət cavab verilir. Həmçinin MSK beynəlxalq müşahidəçilərə müraciət göndərir. Azərbaycanda seçkilərdə vebkameralar tətbiq edilir. Şəffaflıq baxımından vebkameralardan üstün bir şey ola bilməz. Mindən artıq seçki məntəqələrində vebkameralar quraşdırılır".

# *"Ermənistan Qarabağ məsələsində öz mövqeyini 180 dərəcə dəyişdi"*

**"İrəvandakı bəzi siyasətçilər Rusiyanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına dəstək vermək səylərindən narazılıqlarını bildirir və 2020-2022-ci illərdə ən yüksək səviyyədə üçtərəfli sazişlərin effektiv olmamasından danışırlar.**

Adalet.az xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova açıqlayıb.

O qeyd edib ki, üçtərəfli sazişlər qüvvədə qalır və tərəflərdən heç biri imzasını geri götürməyib: "Söhbət ondan gedir ki, 2022-ci ilin oktyabrında Aİ-nin himayəsi ilə Praqada keçirilən sammitdə Ermənistan tərəfi Qarabağ məsələsində öz mövqeyini 180 dərəcə dəyişdi. Həmin qərar Rusiya sülhməramlılarının yerləşdirildiyi zonada vəziyyəti kökündən dəyişdi".

Zaxarovanın sözlərinə görə, İrəvan nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması ilə bağlı konkret razılaşmaların əldə edilməsini dondurur:

"Xüsusilə, artıq aylardır ki, erməni tərəfi Ermənistan və Azərbaycan arasında dəmir yolu əlaqəsinin bərpası üzrə işlərin başlanmasına mane olur. Deməli, yuxarıda qeyd olunan qərarların icra olunmaması bəzilərinin iddia etdiyi kimi Moskvanın siyasətinin nəticəsi deyil, İrəvanın ardıcıl olmayan hərəkətlərinin birbaşa nəticəsidir".

# *Rus əsgərləri komandirlərindən şikayətçidir*

**Ukraynada xidmət edən elit rus briqadasının əsgərləri komandirlərindən şikayət ediblər. Onlar bildiriblər ki, komandirləri onları "ət parçaları" kimi gördüklərini deyiblər. Ukraynada rus əsgərlərinin verdiyi ağır itkilər və onların komandirlərinin taktiki səhvləri BBC-nin araşdırmasında sonra təsdiqini tapıb.**

BBC-də yer alan xəbərə görə, əsgərlər yuxarı eşelonlar tərəfindən döyüşə göndərilərkən onlara "ət parçaları" kimi münasibət göstərildiyini bildiriblər. Bu iddialar isə Rusiyanın Ukraynadakı uğursuzluğunun simvoluna çevrilib.

Rusiyanın ilkin olaraq elit bir birlik kimi gördüyü 155-ci Dəniz Piyada Briqadası, müharibənin sonrakı mərhələlərində "Qara Berelilər" adlandırılan bu bölmənin çatışmazlıqlarını üzə çıxardı. BBC-nin araşdırması göstərib ki, briqadanın yalnız bir hücumda ən azı 60 əsgəri öldürülüb.

İtkin düşənlərdən biri, 25 yaşlı Ramaz Qorqadzedir. O, bir neçə həftə əvvəl Rusiyanın uzaq şərqindəki evindən döyüşə göndərilib. Qorqadze briqadanın Pavlivka və Vuhledar şəhərlərinin ələ keçirilməsi əməliyyatlarında ən çox itki verdiyi əməliyyatda həlak olub.

Rusiya Müdafiə Nazirliyi isə bütün bu iddiaları rədd edib.

Ukraynaya məxsus pilotsuz uçuş aparatı tərəfindən çəkilən görüntülərdə isə Rusiya zirehli texnikasının fərqli günlərdə eyni açıq yolda partladıldığı müəyyən edilib. BBC-nin məlumatlara əsaslanan araşdırmasına görə 155-ci Dəniz Briqadasında ən azı 157 əsgəri həlak olub.

Qorqadze yanvarın sonunda doğma şəhəri Yaqodnoyedə dəfn edilib. Rusiya isə Vuhledar üzərinə növbəti hücuma keçib. Lakin Rusiya qüvvələri hələ də Vuhledarı ələ keçirə bilməyib və bölgədə müharibə davam edir.

**Vasif Əlihüseyn**

## Hikmət Hacıyev Britaniya Baş nazirinin müşaviri ilə görüşdü



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Böyük Britaniya Baş nazirninin milli təhlükəsizlik məslələri üzrə müşaviri Tim Barrou ilə görüşüb.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov "X" hesabında paylaşım edib. "Azərbaycan və Böyük Britaniya arasında mükəmməl ikitərəfli münasibətlər, eləcə də geniş spektrli regional məsələlər, Azərbaycan-Ermənistan münasibətlərində irəliləyiş və Azərbaycanın qarşıdan gələn iqlim sammitinə - COP29-a ev sahibliyi etməsi barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev və Böyük Britaniyanın Milli Təhlükəsizlik müşaviri Tim Barrou arasında çox məhsuldar və canlı söhbət baş tutudu", - azərbaycanlı diplomat paylaşımında bildirib.

## Türkiyə şirkəti Kəlbəcər və Laçında 5 SES tikəcək



**Gələn həftə Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) ilə Türkiyənin "Dəmirörən" Holdinqi Kəlbəcər və Laçında 5 kiçik su elektrik stansiyasının yenidən qurulmasına dair saziş imzalayacaqlar.**

Bu barədə AİŞ-in icraçı direktoru Ülvi Mansurov dekabrın 21-də Bakıda keçirilən Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Azərbaycan-Türkiyə İnvestisiya Forumu çərçivəsində baş tutan "Azərbaycan Respublikasında investisiya qoyuluşu imkanları" panelində çıxışı zamanı bildirib.

O bildirib ki, hazırda AİŞ türk şirkətləri ilə daha üç layihə hazırlayır.

## "Pirotexniki vasitələr partlayış zamanı gözün görmə..."



**"Pirotexniki vasitələrin bu günki gündə istifadəsi qadağandır. Bunu istifadə edən şəxslər də bilməlidir ki, pirotexniki vasitələri əldə etmək, onu saxlamaq, insanların kütləvi cəmləşdiyi, azyaşlı uşaqların olduğu, qapalı məkanda istifadə etmək yolverilməzdir. Bunun yarada biləcəyi təhlükələr var"**

Bunu Adalet.az-a açıqlamasında təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev pirotexniki vasitələr haqda danışarkən deyib. Ekspert bir daha insanlarımızı məsuliyyətli olmağa çağırıb:

"Pirotexniki vasitələrin istehsal olunduğu müəssisə bəlli olmadığı üçün, yəni qeyri-leqal yolla əldə olunduğu üçün hansı texniki şərtlərlə hazırlandığı, istifadə qaydası, təhlükəsizlik sertifikatı olmadığı üçün bu vasitələrindən istifadə olduqca təhlükəlidir. Yanmaya, alışmaya, insanların hətta həyatına təhlükə yaratmağa, qapalı məkanlarda istifadə olunarsa da tüstüsündən zəhərlənməyə səbəb ola bilər.

Bununla yanaşı partlayış zaman gözün görmə, qulağın eşitmə qabiliyyətinin pozulmasına gətirib çıxara, yanğın riski yarada bilər. Ona görə pirotexniki vasitələrin istifadəsi olduqca təhlükəlidir. Xüsusən də azyaşlı uşaqlar bunu əldə edirlər, daha çox maraq göstərirlər, bayramlarda istifadə edirlər. Bu vasitələri evdə saxlamaq belə təhlükəlidir. Günəş şüaları zamanı alışmaya, partlamaya səbəb ola bilər.

Pirotexniki vasitələrdən istifadənin təhlükəli olduğunu valideynlər də uşaqlarına izah etməlidir"-deyə ekspert bildirib.

**Vasif Əlihüseyn**

# Prezidentin etimadından sui-istifadə edənlər cəzalanır: Növbəti fakt

**Xatırlayırsınızsa, bu ilin oktyabr ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru Amil Abdullayevin xidməti vəzifələrinin icrası zamanı vətəndaşdan rüşvət alması barədə daxil olmuş məlumat əsasında keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlandı.**

İstintaqla Amil Abdullayevin rəhbərlik etdiyi qurumun balansında olan meşə təyinatlı torpaq sahəsindən müxtəlif məqsədlər üçün istifadə müqabilində vətəndaşdan ümumilikdə 14 min 900 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edildi. Bu və bundan əvvəlki bu tip rüşvətxorluq, vəsifəsindən sui-istifadə hallarının azalacağını düşünürdük.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə xəbərdarlıq etmişdi ki, xalqa xidmət göstərməyən, rüşvət alan, qanunsuz şlər görən məmurlara aman verilməyəcək, onlar cəzalacaqlar: "Burada, əlbəttə ki, məmur-vətəndaş münasibətləri xüsusi yer tutur. Mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi demişəm, bu gün də deyirəm. Hər kəs bilsin, eşitsin və nəticə çıxarsın: məmurlar xalq üçün yaşayırlar, əksinə deyil. Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət göstərməlidir, köməklik göstərməlidir, yekəxanalıq etməməlidir, hansısa qanunsuz tələb irəli sürməməlidir, özünü təvazökar aparmalıdır - özü də, ailə üzvləri də, nümunə olmalıdır, rüşvətxorluqla məşğul olmamalıdır, soyğunçuluqla məşğul olmamalıdır. Məmur bax belə, dediyim kimi olmalıdır".



Prezidentin tövsiyyəsini qulaqardına vurub öz bildiyi əməli yerinə yetirən məmurun gec ya tez əməli ifşa olur. Eynən Azərbaycan Auditorlar Palatasının üç sabiq əməkdaşının əməlləri kimi!

Bəli, Azərbaycan Auditorlar Palatasının üç sabiq əməkdaşı cinayət məsuliyyətinə cəlb edilib.

Medianın məlumatında deyilir ki, maliyyə və texniki təminat İdarəsinin sabiq rəisi, baş mühasib, 58 yaşlı Vəli Rəhimov ötən ay vəzifəsindən azad edilmişdi. Vəli Rəhimov, maliyyə təminatı və xarici əlaqələr idarəsinin maliyyəçi-mühasibi Gövhər Əhmədova və Palatanın digər auditoru Fəridə Novruzova xüsusilə külli miqdarda mənimsəmədə ittiham olunurlar.

İlkin məlumata əsasən, mənimsənilən məbləğ 1 milyon manatdan çoxdur.

Təqsirləndirilərən şəxslərə qarşı Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham irəli sürülüb.

**Bir sözlə, Prezidentin etimadına, xalqın güvəninə, öhdəsinə götürdüyü səlahiyyət xəyanət edənlər cəzasız qalmayacaq. Bunu mən yox, dövlət başçısı bütün çıxışlarında xatırladır: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:"Son illər ərzində göstərdiyimiz qətiyyət və sözlə əməl arasında olan vəhdət, hesab edirəm ki, hər kəs üçün dərs olmalıdır. Çünki mən dəfələrlə dövlət məmurlarına həm rəsmi qaydada, həm də görüşlər zamanı, onları vəzifəyə təyin edərkən təlimat verirdim ki, korrupsiya ilə, rüşvətxorluqla ciddi mübarizə aparılmalıdır və əgər bu və ya digər məmur bu çirkaba bulaşarsa, cəza çox sərt olacaq. Nəticə də onu göstərir - ən yüksək vəzifəli məmurlar bu gün istintaq qarşısında, məhkəmə qarşısında cavab verməli olublar və haqlı cəzalarını alıblar. Bir daha demək istəyirəm ki, heç kim bu məsuliyyətdən boyun qaçıra bilməz, heç kim qanundan üstün deyil, qanun qarşısında hamı bərabərdir, heç kimin əvvəlki xidmətləri nəzərə alınmayacaq. Xüsusilə bu əyri yola gedən insanların xidmətləri daha çox "ayı xidməti"nə bənzəyir. Ona görə hesab edirəm ki, bunu hər kəs artıq görüb və bilib. Ona görə bizim addımlarımız çox sərt olacaq, cəzalarımız da çox sərt olacaq".**

**Əntiqə Rəşid**

*Rüstəm Hacıyev*

# "Biz idarə edəcəyik"



### Ultrasağçılar daha çox hakimiyyətə gəlirlər

*Niyə dünyada daha çox onlara səs verirlər?*

*Ötən onilliyin ortalarından başlayaraq, bütün qərb ölkələrində konservativ çevriliş müşahidə olunmaqdadır. ABŞ-da Donald Tramp hakimiyyətə gəldi, Avropa İttifaqında isə, bir çox ölkələrdə öz mövqelərini möhkəmlədərək hökumətlərini quran sağçı populistlərin bumu başladı.*

*Bir neçə ildən sonra bu trend sanki, iflasa uğramağa başladı, sanki qərbin siyasi sistemi, elitaya qarşı mübarizədə xalqln "əsl səsi" olduqlarına inanan bu milliyətçi "özündən razıların" təyziqinə davam gətirdiklərinə inanmağa başladı.*

*Lakin görünən odur ki, sağçı populistlər yenidən populyarlıq qazanmaqdadırlar. Argentinada Xavyer Mileyin prezident seçilməsi, Niderlanda isə miqrantlara və Avropa İttifaqına qarşı olan "Azadlıq partiyası" nın parlament seçkilərində qalib gəlməsi, ultrasağçıların qərb dünyaslnda yenidən dirçəlməsinə işarə edir.*

*Niderlandın "Azadlıq partiyası"nın populist lideri Herd Vilder siyasətə yeni gəlməyib, 20 ildir parlamentdə təmsil olunur. Onun rəhbərlik etdiyi partiya 22 noyabr seçkilərində, parlamdntdə olan 150 yerdən 37-sini qazanıb. Bu ötən seçkilərdə qazanılan yerlərdən (17 yer) iki dəfədən də çoxdur.*

*""Azadlıq partiyası"nı inkar etmək olmaz. Biz idarə edəcəyik"-deyə bəyan edən Herd Vildersin baş nazir kürsüsünü əldə etmək şanslarını yüksək qiymətləndirmək doğru olmaz. Koalisiya hökuməti qurması üçün ona 76 səs qazanması gərəkdir. Hələ ki, digər partiyaların onunla birləşmək fikirləri müşahidə olunmur.*

*Vildersin antimiqrant pitorikasından ruhlanan digər ölkələrdə də siyasi liderlərin mövqelərini dəyişə biləcəyi istisna olunmur. Eyni zamanda ultrssağçıların islamlaşma əleydarları olmalarımı nümayiş etdirmədi də, digər ölkələrdə siyasi mövqe dəyişikliyinə gətirib çıxarması mümkündür.*

*Uzun illərdi ABŞ və Qərbin dünyada apardığı yalnış siyasətin qurbanına çevrilmiş insanların, xüsusilə Afrika və Asiyada yaşayanların, "dövlət maraqları" adı altında sünü şəkildə yaradılan sonu görünməyən müharibərdən, aclıqdan, cəfalətdən qaçan milyonlarla insan axınının Avropaya, Amerikaya mühacirət etmələri çiddi pronlemlər yaşadır. Bu da ultrasağçı siyasilərin kəskin riyorikasına səbəb olur.*

*Bundan başqa Avropa İttifaqının getdikcə gərəksiz bir quruma çevrilməsi də bir çox Avropa dövlətlərində narazılıqlar yaratmaqdadır. Avropa İttifaqını "ən pis gecə dəhşətləri" adlandıran Herd Vilders, Niderlanıdın bu ittifaqdan çıxması ilə bağlı referendum keçirilməsini tələb edir.*

*Vildersin fransalı həmkarı Marin Le Pen onu qələbə münasibətiylə təbrik edərək bildirib ki, "insanlar var ki, məhz milli məşəlin sönməməsi üçün çalışırlar, Avropada dəyişikliklərə ümid qalmaqdadır". Herd Vildersi qələbə münasibətiylə təbrik edən, konservativ baxışları ilə seçilən Macarıstanın baş naziri, Viktor Orban bəyan edib ki, "Dəyişikliklər küləyi artıq burdadır".*

*Ümumiyyətlə keçirilən sorğular da göstərir ki, insanlar getdikcə hakimiyyətə daha az inanırlar. Ona görə də, sağçıların miqrantların ölkədən çıxarılması, və yaxud dövlət banklarının ləğv olunması kimi baxışlarının, nələrisə dəyişə biləcəyinə inanırlar. Yaşanan böran vəziyyətində vətəndaşlar radikal mövqe tutan partiyalara daha çox dəstək verməyə başlayırlar. Sağçı populistlər də bundan yararlanmağa çalışırlar.*

*Bir sözlə Qərb, sağçı populistlərin "elektoral zəfəri" ilə üz-üzə qalmaqdadır. Onlar inanırlar ki, məhz radikal sağçıların bu "zəfərdən" sonra real dəyişikliklər gözləmək olar.*

*Hələlik isə, "gələn sel özünə yeni calalar açmaqda davam edir". Dünyada "qalanan ocaqların" alovları daha da yüksəlməkdədir. Müharibə və menaqişələr davam edir, şəhərlər, kəndlər dağıdılaraq viran qoyulur, bütün infrastruklar dağıdılır, insanlar kütləvi şəkildə qətlə yetirilir, sağ qalanları doğma yurd-yuvalarını tərk edərək, miqrant həyatı yaşamaq məcburiyyəti ilə Qərbə qaçır, Qərb isə onları qəbul etməkdən imtina edir.*

*"Sem dayı" isə, bunu ABŞ-ın "dövlət təhlükəsizliyinin qorunması" adı ilə "dövlət marağı" kimi dünyaya sırlmaq istəyir.*

*Məqalədə "Lenta.ru" saytının materiallarından istifadə olunub.*

# "Soyğunçu" xarakterli bank faizləri ilə bağlı MB tədbir görməlidir – Çağırış

**Bu ilin noyabrında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Əli Məsimli "Qafqazinfo"nun suallarını cavablandırarkən dedi ki, bizdə tətbiq edilən bank faizləri soyğunçu xarakter daşıyır.**




Əslində Ə.Məsimli bank faizlərinin ən sadə dillə düzgün ifadə etdi. Hələ 2015-ci ilin məlumatlarında deyilirdi ki, Azərbaycanda hər 4 nəfərdən birinin banka kredit borcu var. O vaxtdan az qala hər ay baş verən qiymət artımı əhalinin bu "soyğunçulardan" asılılığını daha da artırıb. Hesab edirik, Azərbaycanda hazırda hər 2 nəfərdən biri banklar pul borcludur. Təəssüf ki, Azərbaycanda son illər onlarla insan istər banklardan götürdüyü kreditə görə, istərsə də digər səbəbdən borca düşərək intihar edir, yaxud buna cəhd göstərir.

Millət vəkili, iqtisadçı Vüqar Bayramov da təsdiq edir ki, faizlər çox yüksəkdir, MB tədbir görməlidir: "Rayonlarda kreditlər Bakıya nisbətən 2 dəfə bahadır. Belə ki, Bakıda kreditlər üzrə orta faiz dərəcəsi 11.05 faiz olduğu halda Dağlıq Şirvanda 19.67, Qarabağda 19.32, Mil-Muğan iqtisadi rayonunda 19.13, Lənkəran-Astara iqtisadi rayonunda 19.1, Şirvan-Salyan iqtisadi rayonunda 18.75, Mərkəzi Aranda 18.59, Qazax-Tovuz iqtisadi rayonunda 18.42 faizdir. Mərkəzi Bankın məlumatına görə, Azərbaycanda kreditlər üzrə orta faiz dərəcəsi isə 12.56 faizdir".

O bildirib ki, rayonlarda faiz dərəcəsinin yüksək olması vətəndaşların kreditlərə əlçatanlığını azaldır:

"Bu, xüsusən bölgələrdə real sektora yönəldilən kreditlərin payının az olması anlamına da gəlir. Bu isə regionlarda sərmayə qoyuluşlarının artırılmasına əngəl olur.

Bakıda kredit fazilıəri üzrə orta dərəcənin aşağı olması biznes və eləcə də ipoteka kreditlərinin əhəmiyyətli hissəsinin paytaxtın payına düşməsi ilə bağlıdır.

Bakı aşağı faizli kreditlərdən daha çox faydalanır. Banklar hələ də regionlarda kredit riskini yüksək qiymətləndirirlər. Bu baxımdan bölgələrdə daha çox yüksək faizli istehlak kreditlərinə üstünlük verirlər.

Kredit faizlərindəki regional disbalansın aradan qaldırılması olduqca vacibdir. Regionların inkişafı daha aşağı faizli kreditlərə çıxış imkanlarının genişləndirilməsini tələb edir. Mərkəzi Bank tərəfindən də bu istiqamətdə stimullaşdırıcı tədbirlərin genişləndirilməsinə ehtiyac var".

**Qeyd edək ki, Milli Məclisin ötən aykı iclasında deputat Siyavuş Novruzov da vətəndaşlara təklif edilən kredit faizlərindən gileylənib və deyib ki, faizlər çox yüksəkdir.**

***P.S.** Sadə xalq , xüsusən işsiz qalan qism isə düşünür ki, bank faizləri çoxdan "soyğunçu" xarakterini dəyişib, "qatil" xarakteri alıb. Artıq əhali bank faizlərinin yüksək olmasına heç bir reaksiya vermir, şikayət etmir. Borcu ödəyə bilməyəndə intihara əl atır, ya da cinayət törədir. Başqa yol qalıb?*

**Əntiqə Rəşid**

# Namərdliyin iki üzü: Kasparovun atdığı daş ağırdır, yoxsa "Azadlıq" qəzetinin tolazladığı corab tayı?

**Qubad İbadoğlunun və ailəsinin xatirinə görə biz bu məsələni diqqətdə saxlamalıyıq. Biz başa düşməliyik ki, diktatura rejimləri ilə klassik mübarizə üsulu, yəni sanksiyalar, ən uğurlu vasitədir".**

Azadlıq qəzetinin eks-dünya çempionu, nankor bakılı Harri Kasparovun fotosu və onun haqqında deyilən "Rusiya müxalifətinin görkəmli siması" etiketi bir vətəndaş, xüsusən bir qarabağlı olaraq məni incitdi. Əgər "Azadlıq" qəzeti özünü siyasi qəzet kimi sığortalamasaydı, bəlkə heç incíməzdim.

Görəsən, bu siyasi qəzet ölkəni güc strukturlarının qüvvəsi ilə itaətdə saxlayan, qonşu dövlətin ərazisini zəbt edən, əli azərbaycanlıların qanına batan, hətta Ermənistanda da terrorçu əməllərdən çəkinməyən Robert Köçəriyanın (1998 - 2008) , Serj Sərkisyanın (2008-2018) hakimiyyətləri dövründə diktatura rejimlərinə Harri Kasparovun etiraz etdiyin şahid olubmu? Ümumiyyətlə, "müxalifətin görkəmli siması" dikrator yox, terrorçu-qatil Ermənistan prezidentlərinin ölkənin daxili və xarici siyasətindəki diktaturanı bir dəfə olsun dilinə gətirdimi?

Yox! Kasparov oz doğma soydaşlarını beynəlxalq aləmdə biabır etməzdi, axı o ermənidir! Kasparov 1990-cı ildən üzü bəri Ermənistan dövlətinin Azərbaycan torpaqlarında apardığı deportasiya, soyqırım, talançılıq əməllərini, Xocalı, Qaradağlı, Ağdaban və s. cinayətlərinə görə onları diktator adlandırıb, onlara qarşı sanksiya tələb edib? "Görkəmli" Kasparov Azərbaycanın başına gətirilən faciələri görmədisə, onda kar-kor imiş, görüb susdusa, deməli əsl ermənidir. Onda haqq-ədalət hissi yoxdu! Axı, Kasparov Azərbaycanın çörəyi - suyu ilə böyümüşdü, axı Kasparov Bakıda bütün qayğılarla əhatə olunaraq əsrin ən yaxşı şahmatçısı kimi yetişdirilmişdi, axı Kasparov Azərbaycanın sayəsində Kasparov olmuşdu. Cüzi də olsa, ən azından bir dəfə çıxdığı , əyləşdiyi kürsülərdən Xocalı faciəsinə görə Ermənistanın Azərbaycandan üzr istəməsinə çağırış etməli idi. Etmədi! Etmədisə, demək elə də "görkəmli" müxalifətçi deyilmiş. "Görkəmli müxalifətçi" olmaq üçün birinci məxsus olduğun xalqın , dövlətin nöqsanlarını deməlisən.

Məsələn düşünürəm ki, Kasparov da azacıq da olsa vicdan vardısa, deməliydi ki, Azərbaycan kimi bir ölkə ilə bizi qan düşməni etdiniz, ay Köçəriyan, ay Sərkisyan, yetər, durun, dincəlin! Qarabağ sizin olmaya -olmaya onu zəbt etdiniz, gələcək nəsillərdən, gənclərdən "Biz Azərbaycandan Qarabağı aldıq , siz də Türkiyədən Ağrı dağını alın!" tələbi etdiniz! Bu tövsiyə xalqın sonunu gətirəcək, regionu qana çalxayacaq! Dedimi?





Demədi! "Görkəmli müxalifətçi" beləmi olur?

2-ci məsələ!. 1985-ci ildə Anatoli Karpovdan dünya çempionu titulunu alandan sonra Kasparov öz karyerasına imza atdı və hətta onunla Kommunist Partiyası və "KQB" maraqlanmağa başladı. Bu barədə 2005-ci ildə Böyük Britaniyanın "The Times" qəzeti yazır: "Kasparov Vladimir Putin hakimiyyətinə müxalifətdə dayanıb. Bu gün o, Rusiya liberallarının cəmləşdiyi "Komitet-2008"in aparıcı simalarının birinə çevrilib. Onun köməyi ilə Rusiya Demokrat Partiyası yarandı. 1991-ci ildə Rusiya siyasi hadisələr içində boğulurdu. Putin Sankt-Peterburqun meriyasında çalışırdı, amma həmin dönəmlərdə ölkə bu gün Kasparovun ətrafında birləşən liberallarla öyünürdü.1996-cı ilin yazında Harri Kasparov prezidentliyə namizəd Boris Yeltsinin etibarlı dostlarından birinə çevrildi. Bu onun ölkəni tərk edib xaricdə təcrübə toplamasına geniş şərait yaratdı. Amma onun özü "KQB"də hansı vəzifəni daşıdığını yadına salmağı xoşlamırdı".

Hazırda özünüzü siyasi qəzet olaraq "dəyərləndirsəniz də" əslində adi şeylərdən başınız çıxmır! Ermənilərdən heç vaxt müxalifətçi çıxmayıb. Onlar bütün şərtlərdə hər zaman yaşadıqları ölkənin rəhbərinin buyruğunda olublar. Çünki bundan öz çıxarları üçün itifadə ediblər. Etiraz edirsinizsə, dünyada bir müxalifətçi erməninin adını çəkin! Rusiyanın daha dəqiq Putinin əmri ilə partiya yaradaraq müxalifət arasında parçalanma yaradan biri "görkəmli müxalifətçi" yox, olsa, olsa, ara qarışdıran, çuğulçu, (xəbərdaşıyan) , çörək kəsdiyi, "məsləkdaşım" dediyi dostlarını satan ermənidən başqa bir şey deyil.

Keçək 3-cü məsələyə... Qubad İbadoğlu haqlı tutulub, haqsız tutulub, niyə həbs edilib bu, mövzumuz deyil.Yəqin ki, haqq yerini tapacaq, Qubad bəy günahkardırsa, cəzasını çəkəcək, günahkar deyilsə, bəraətini alacaq. Yaxşı, o zaman Azərbaycan hakimiyyətini "diktator" adlandıran Kasparov qəflətən niyə Qubad bəyi dəstəklədi?

İndi ona da açıqlama gətirək: Hazırda yer üzündə nə qədər erməni varsa, (yer üzündə təxminən 10 milyon erməni olduğu deyilir- Ə.R.) elə o qədər də ermənidən daha kəskin erməni olan ermənipərəs var. Hazırda bu təxminən 20 milyonluq ermənilərdən və ermənipərəstlərdən ibarət böyük bir ordu Azərbaycana qarşı soyuq və informasiya müharibələri aparır. Həm də beynəlxalq təşkilartların , hegemon dövlətlərin rəsmi dairələrinin əlləri ilə . 2020-ci ildə Azərbycan dövləti , xalqı və ordusu mütəşşəkil şəkildə birləşib Qarabağı 30 illik erməni işğalından azad etdikdən sonra Xalqımız da, Ordumuz da, siyasətimizi aparan siyasi Liderimiz də həmin o 20 milyonluq kütlənin hədəfindədir. Fransa, İran, Hindistan ermənilərə silah verir, ABŞ ordu göndərir, təlim keçir, AB sərhəddimizə 138 müşahidəçi göndərib, (sayını artırıb 209 ediblər- red-Ə.R) dünya ölkələrinin 80 faizi Azərbaycanın Qarabağdakı antiterror əməliyyatlarını az qala "soyqırım", "deportasiya" kimi öz mediasında işıqlandırıb. Halbuki, vicdanın itirməyən bir neçə ölkə və təşkilat təsdiq etdi ki, Qarabağda nəinki soyqırım olmayıb , hətta heç bir erməninin burnu qanamayıb. Orada yaşayan ermənilər isə Qarabağı könüllü tərk edib. Sizcə, Kasparov xalqının bu məğlubiyyətini Əliyevə bağışlayarmı? Erməni xislətini yada salıb düşünün! Bağışlayarmı!!!

Uzun sözün qısası, Azərbaycana qarşı böyük bir səlib yürüşü göz qabağındadır. Kiçik bir faktı da kasparovsevərlərin diqqətinə çatdırım: Diktator 2 azərbaycanlı hərbçiyə qarşılıq 32 erməni əsirini geri verərdimi? Stalin əsir götürdüyü neçə almanı təmənnasız -qarşılıq almadan geri qaytardı? 1990-cı illərdə əsirlərimizi yüksək məğləğdə pul və benzin müqabilində ölümcül vəziyyətdə qaytaran erməni işğalçılarını nə tez unutdunuz?Geri alınan əsirlərin başına elə oyunlar açmışdılar ki, heç bir il də yaşamırdılar...

Onsuzda siyasətdən xəbəriniz yoxdu, qoy bunu da deyim: Stalinin əmri ilə əsirlər əvəz-əvəz qaytarılıb. Yerdə qalanı da ya başqa məqsədlər üçün geri qaytarılıb , ya da güllələnib.

Sözümü hərləyib-fırlayıb yenə Kasparovun üzərinə gətirirəm:

Azərbaycan SSR-in əməkdar məşqçisi, dəfələrlə müxtəlif FİDE komitələrinə üzv seçilən Çapay Sultanov yazırdı: "Qarabağ münaqişəsinin kritik günlərində ən güclü informasiya zərbəsini Azərbaycana məhz Andrey Saxarov və Harri Kasparov vurdu. Harri Kasparovun məşhur "Bakıda yalnız erməni olduğuna görə səni öldürürlər" ifadəsi dünyanın bir çox tanınmış KIV-lərinin manşetinə çevrildi.

Mediadan:Müxbirin məşhur şahmatçıya sualı:

**- Dünya çempionluğundan sonra siz qazancınızı Bakıdakı erməni əhali arasında bölüşdürəcəyinizi açıqladınız...**

- 1990-cı ildə şahmat tacımı satdım və onu hazırkı FİDE prezidenti Kirsan İllümjinov aldı. Pulları həmin ilin yanvarında dəqiq bölgü əsasında Bakıdan olan qaçqınlara payladım. 6500-dək qaçqın ailə arasında biz də var idik.

**- Ermənistandan da azərbaycanlılar qaçqın düşmüşdü. Pulları onlar arasında bölüşdürə bilməzdiniz?**

- Mən bir nəfərəm və Bakıdan qaçanlara mənsub idim".

Son olaraq: Qədim zamanlarda padişah öz vəzirinə qəzəblənir. Əmr edir ki, vəzir meydana çıxarılsın, daş-qalaq edilsin, kim vəzirə daş atmasa edam olunsun!

Vəziri çıxarırlar meydana, padişah da taxt tacında oturub vəzirə daş atanlara baxır. Daşlar başına-gözünü əzmiş qanlar içində susan vəzir səsini də çıxartmır.Birdən vəzirin qardaşı görür ki, padişah onu süzür, tez əyilib xəlvətcə corabını çıxarır və yumurulayıb qardaşına atır. Corab tayı vəzirə heç çatmamış vəzir elə qıyya çəkir, elə haray qoparıb ağlayır. Padişah prosesi dayandırıbvəziri yanına çağırır.

- Vəzir, bayaqdan başın gözün parçalanıb, qanın üst -başın bulanıb amma səsin çıxmırdı. Qardaşın sənə bir tay corab atan kimi niyə elə bağırdın?

Vəzir deyir - Şah sağ olsun, daş atanlar yad idi deyə, o daşlar məni ağrıtmırdı, Amma o corabı mənim qardaşım mənə tolazladı deyə, məni çox ağrıtdı... Bağırmağımın səbəbi doğmamdan, qanı bir, canı bir qardaşımdan aldığım zərbə idi.

**Yəqin ki, bu yazını oxuyandan sonra nə etdiyinizin fərqində olarsınız!**

**Əntiqə**

## Ekspert açıqladı: "Bu müəssisələrdən bizə şikayətlər daxil olur..."



**"Çox yaxşı haldır ki, bu ilin yanvar ayında Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi etiket məlumatları ilə malların tərkibinin araşdırılması barədə iş aparır. Lakin hələ ki, çox kiçik bir mal qrupu əhatə olunur: ət və ət məhsulları, kolbasa və sair. Adı çəkilən şirkətlərlə aparılan işlər çox diqqətəlayiqdir"**

Bunu Adalet.az-a açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib. Ekspert daha sonra bunları əlavə edib: "Onu da qeyd edim ki, adı çəkilən şirkətlərə "halal" sertifikatı verilib və həmin sertifikat isə onlara təsadüfi qurumlar tərəfindən təqdim olunub. Azad İstehlakçılar Birliyi bir neçə il öncə iş apardı ki, bu sertifikatlar ya ləğv edilsin, ya da tam təmannasız verilsin. Lakin bizdə olan məlumata görə "HALAL PAYIM" MMC-nin də "halal" sertifikatı var və bunu onlara hansı qurumun verdiyi məlum deyil və nə dərəcədə bu doğrudur. Əlbəttə, ət və ət məhsulları seqmentində yaxşı çalışan, xaricdən və yaxud yerli yaşlanmış heyvan ətindən tam sanitar gigiyena qaydalarına uyğun istehsal edən müəssisələr də var. Lakin bu cür "HALAL PAYIM" MMC və "Ay Min" MMC-də var. Ümumilikdə 20-dən çox ət və ət məhsulları istehsal edən müəssisələr də var. Lakin bu bazar o qədər xaos içərisindədir, elə çirklənib ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi də bu xaosun içində qalıb. Bunları təmizləmək, standartlara uyğunlaşdırmaq isə çox çətin məsələdir. İstehlakçıların həyatında, sağlamlığında təhlükəli mallar şübhəsiz ki, öz mənfi izlərini qoyur. Bizim təşkilata "HALAL PAYIM" MMC, "Ay Min" MMC və "Ovçular" istehsalçısından istehlakçı şikayətləri daxil olur. Lakin bu müraciətlər telefonla edilib və yazılı şikayət olmayıb. Düşünürəm ki, dövlət orqanları bu istiqamətdə çox yaxşı iş aparır".

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti "HALAL PAYIM" MMC və "AY-MİN" MMC şirkətləri haqqında iş qaldırıb.

## "Ukraynanın korrupsiyaya yönəlmiş siyasətinin..."

**"Rusiya-Ukrayna müharibəsində iki amil var. Onlardan biri Qərbin Ukraynaya köməyi, ikincisi isə Ukrayna xalqı özü bir cəmiyyət, xalq kimi toparlansa, korrupsiyaya son qoysa, öz iqtisadi potensialını hərb naminə səfərbər etsə, bu zaman vəziyyəti dəyişə bilər"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə Rusiya-Ukrayna müharibəsi haqda danışarkən deyib. Politoloq daha sonra bunları əlavə edib: "Müharibə artıq iki ilini tamamlayacaq, amma Ukraynanın oğurluğa, korrupsiyaya yönəlmiş siyasətinin mahiyyəti dəyişməyib. Gecə-gündüz ancaq oğurlayırlar, büdcəni talayırlar. Cəbhədə qeyrətli oğlanlar, qızlar döyüşür həlak olur, amma paytaxtda kef içindədi, özləri də oğurluq edirlər. İkinci bir məsələ isə Qərbin ikiüzlü siyasətidir. Ukraynaya sözdə çox vədlər verirlər, amma silah-sursatı, maliyyə yardımını çay qaşığı ilə verirlər. Buna görə Rusiya hələlik lovğalana-lovğalana öz məqsədlərinə çatmayınca, müharibəni dayandırmaq niyyətində deyil. Qərb isə bütün bunların fonunda Rusiya və Ukraynanı dərin düşmənə çevirməyə maraqlıdır"-deyə politoloq bildirib.

**Vasif Əlihüseyn**



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Heyf səndən, Kamil müəllim!

*Kamil Vəli Nərimanoğlu BDU- nun ən savadlı, ən istedadlı ,ən səmimi müəllimlərindən idi.*

*Elmlər doktoru, professordu. Azərbaycan dilinin qrammatikası üzrə ən yaxşı mütəxəssis kimi tanınmışdı. Bizim jurnalistika fakültəsində də dərs deyirdi, amma bizə dərs demirdi. Buna baxmayaraq onu özümüzə müəllim bilirdik.*



*Çünki çox səmimi və tələbənin dəyərini verən ziyalı idi. Gözəl elmi məqalələr, publisist yazılar qələmə alardı, hətta o vaxtlar Azərbaycan radiosunda " Bulaq" verilişın ssenarisini də yazırdı.Elə şirin yazırdı ki, onun qələmə aldığı sözlər bal kimi şırinydi. Uzun müddətdir ki, elmi fəaliyyətini Türkiyə Universitetlərindən birində davam etdirirdi.*

*Ölümündən bir neçə gün öncə doğma universitetini ziyarət edib, professor və müəllimlərlə çay süfrəsi arxasında şirin söhbətlər danışıb və ötən günləri xatırlayıblar.Həmin görüşlə bağlı türkologiya kafedrasının müdiri , professor Məhərrəm müəllim paylaşma da edib.Allah ona hər şeyi bəxş etdiyi kimi, gözəl ölüm də qismət eləyib. Divanda kitab oxuduğu gedə yatıb və oyanmayb.*

*Ramiz Rövşən demişkən " ölümün ləzzətli vaxtında ölüb" Allah, ancaq sevdiyi adamlara belə gözəl ölüm bəxş edir! Onun ölümü Azərbaycan elminə, ədəbiyyatına və insanlığa çox böyük itkidir!!!. Heyf səndən, Kamil müəllim! Yerin Cənnət olsun!*



Vasif Əlihüseyn

# Dostumu rus qadından ayırmaq üçün...

*Bir neçə gün öncə atamdan Rusiyada yaşayan iş yoldaşım, dostum Vüsalın ölüm xəbərini alanda həm təəccübləndim, həm də təəssüfləndim, çünki Vüsal çox cavan idi. Atam onun ürəktutmasında öldüyünü dedi.*

*Elə o gündən fikirli-fikirli gəzirəm, Vüsalla bağlı xatirələrimiz yadıma düşür. 2005-ci ilin aprel ayında əsgəri xidmətimi başa vurub atamla Rusiyaya işləməyə gedəndə Vüsalla tanış olmuşdum. Daha doğrusu atam bizi tanış etmişdi. Sonra bu münasibət dostluğa çevrildi. Bir müddət sonra iş yoldaşı olduq.*

*Vüsal bir rus qadınla münasibətdə idi, qadının birinci ərindən bir oğlu var idi. Amma adamın üstündə Allah var, çox yaxşı qadın idi. Bir neçə il onların münasibəti davam etdi, amma bir gün hər ikisi bu münasibətə son qoydular, ayrıldılar.*

*Sonra Vüsal işdə iş yoldaşımızla tanış oldu və sevgili oldular. Nataşanın da birinci ərindən bir oğlu var idi. Bu münasibət isə zamanla daha da ciddiləşdi və onlar ər-arvad kimi yaşamağa başladılar.*

*2010-cu ildə mən qərib yerdə darıxdım deyə Bakıya qayıtdım. Hansı ki, 21 yaşımda 500 dollar maaş alırdım, amma təhsil aldığım universitetin bir illik ödənişi 600 dollar idi. Onu da deyim ki, Rusiyada çörək var, işləsən, həmişə cidində pulun olacaq. Amma mən bütün bu imkanları qırağa qoyub Azərbaycana qayıtmağı üstün tutdum. Elə o vaxtdan indiyə kimi bir-iki ilini çıxmaq şərti ilə maddi sıxıntılar içində yaşayıram.*

*Rusiyadan qayıtdıqdan sonra Bakıda restoranda ofisiant işləyirdim. Bir gün Vüsaldan mənə zəng gəldi və bildirdi ki, "Azərbaycandayam, gəldim rayonda evləndim". Sonra Bakıya yanıma gəldi və bildirdi ki, bilet pulusu yoxdu, işləyib, pul düzəldib, bilet alıb Rusiyaya qayıtmalıdır.*

*Dedim ki, bəs axı Nataşanın yanına qayıdacaqsansa, burda niyə evləndin ki? Dedi ki, "evdəkilər dedi evlən, bəlkə Nataşadan ayrıldın və bir də bizim qadınlar sədaqətli olur, sən qocalıb gələndə qulluğunda durar". Doğrusu onun bu fikirləri məndə elə də xoş təəssürat yaratmadı. Bildim ki, yenə bir qızın bəxti qara gətirdi.*

*Vüsalı da işə düzəltdim və işləyib bilet pulunu düzəltdi. Nataşa isə hər gün zəng vurub soruşurdu ki, sən haçan gəlirsən? Vüsal da hər dəfə Nataşanın qılığına girib ondan vaxt istəyirdi. Onun artıq Nataşadan bir oğlu var idi. Bir ay sonra Vüsal bilet pulunu düzəldib Rusiyaya qayıtdı. Ondan sonra yenə Vüsalla əlaqəmiz kəsildi. Heç bir dəfə ordan yazıb demədi ki, mən qayıtdım, burdayam, yaxşıyam.*

*Onun ölüm xəbərinə isə hələ də inanmıram. Çünki Vüsal həqiqətən pis insan deyildi.*

*Ruhun şad olsun,qardaş!*

## Hüseyn Cavidin mənəvi oğulları kimdir?



**"Hörmətli Həmid Cəfərov, Zakir Nəsirov və Telman Əliyev nəşi çıxardıb tabuta yığandan sonra, əllərini tabutun üstünə qoyub and içiblər ki, bu gündən biz Hüseyn Cavidin mənəvi oğlanlarıyıq. Və hesab edirəm ki, onların buna haqqı var".**

Adalet.az-ın məlumatına görə bu barədə "Carçı ekspress" jurnalının təsisçisi yazıb. O, Hüseyn Cavidin mənəvi oğulları barədə paylaşım edib. "Hüseyn Cavidin nəşini öz əlləri ilə torpaqdan çıxarıb vətənə gətirmiş, Cavid əfəndinin üç oğlundan biri Telman Əliyev. "Oğlu" kəlməsini boşuna yazmadım. Hörmətli Həmid Cəfərov, Zakir Nəsirov və Telman Əliyev nəşi çıxardıb tabuta yığandan sonra, əllərini tabutun üstünə qoyub and içiblər ki, bu gündən biz Hüseyn Cavidin mənəvi oğlanlarıyıq. Və hesab edirəm ki, onların buna haqqı var. Əslində Həmid Cəfərovun bu təklifinə onunla başqa iki nəfər getməli imiş. Amma vəzifə itirmək, həbs qorxusu onları fikrindən yayındırıb. Belə olduqda Naxçıvan Daxili işlər Nazirinin müavini Telman Əliyev və Ali Sovetin ən gənc deputatı Zakir Nəsirov irəli durublar. Heydər Əliyev də işə əl qoyandan sonra, çox çətin proseslərlə təyyarə Bakıya enənə qədər hər üçünün həbs edilmək təhlükəsi olub. Çünki bu iş SSR-də (bəlkə də dünyada) bir ilkdir".

**Emin**

# 23 illik qudurğanlığın sonu: Dünyanı silkələyən Rumıniya İnqilabı - 34



**O vaxtlar Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi Leonid İliç Brejnev vardı. Yəni SSRİ-nin indiki dillə desək prezidenti!**

Bu çox " manyak" biri imiş. Qarşısına keçən siyasi şəxsləri, diğər ölkə rəhbərini, səfirlərin dodaqların ən azı bir 3-4 dəqiqəlik uzunsürən öpüş alırmış. Guya bu qədim rus ənənəsiymiş, dostluğa və mehribançılığa dəlalət edirmiş. Deyəcəksiniz ki, bunun nəyi "manyak"lıqdır, öpüb də.Brejnev Yuqoslaviyaya səfəri zamanı ölkə başçısı İosif Titoya dodağından necə hərarətlə öpürsə, Titonun dodağı partlayıb və qanı axıb.

Ümumiyyətlə, Brejnev qarşısına keçəni belə "manyakal" öpüşlərə qərq etməsə əl çəkməzmiş. Amma Rumıniya başçısı Nikolay Çauşeski bu öpüşdən imtina edir əllə salamlaşmağı üstün hesab edir.

## Axı kimdir bu Çauşeski?

Rumın siyasətçi və dövlət xadimi Nikolay Çauşeski 1965-ci ildə- 47yaşındaykən Rumıniya Kommunist Partiyası MK-nın baş katibi seçilib.1974-cü ildə konstitusiyanı dəyişmək qərarına gəlir və ölkədə prezident vəzifəsini tətbiq edir. Tarixçilərin qənaətincə, o, bu addımı 1971-ci ildə Asiya səfərindən sonra atmaq qərarına gəlib. Səfər zamanı Çauşeskunu regionun kommunist ölkələrində - Çin, Şimali Vyetnam və Şimali Koreyadakı sərt dövlət modelləri heyrətə gətirib. Rumın liderinin təyin etdiyi seçkilərdə şübhəsiz ki, özü də qalib gəldi. Bundan sonra isə - ömürlük hakimiyyətdə qalacağını bəyan etdi.

Çauşesku ailəsinin əlində böyük hakimiyyət cəmləşdirdi. Həyat yoldaşı və sadiq dostu Yelena ölkənin ikinci şəxsi oldu. Ancaq dərhal yox. Yelena Çauşesku əvvəlcə Rumıniya Kommunist Partiyasında bir sıra əhəmiyyətli vəzifə tuturdu. Lakin həyat yoldaşının rəsmi səfərlərində onu müşayiət etmirdi. 1971-ci ildə Çauşeskunun həyat yoldaşı ilə Çinə səfəri hər şeyi dəyişdi. Yelena Mao Tszedunun xanımı Dzyan Tsinin real hakimiyyət sahibi olduğunu gördü.

Baş nazir vəzifəsini prezident postu ilə birləşdirən Çauşesku xanımını 1972-ci ildə Mərkəzi Komitəyə üzv və 1980-ci ildə isə baş nazirin birinci müavini vəzifəsinə təyin etdi. Onları 3 övladı vardı: Valentin idman sahəsinə, Zoya biznesə maraqlı olur, əxlaqı yerində olmayan Nikunu Transilvaniya regionunun mühüm əyaləti olan Sibiunun başçısı təyin edilir. Hər üçünün "milli iqtisadiyyatın dağıdılmasında" "böyük əməyi" olub.

## Çauşeskunun xalqı müflis edən islahatları

Bu ölkədə hər şey onun ailəsinə məxsus idi - tarixi dəyərlərdən tutmuş qoruq meşələrindəki marallara qədər. Həddən artıq ehtiyatlı Çauşesku o dövr üçün ən böyük mühafizəyə sahib idi. Həmişə də hər hansı xəstəliyə yoluxacağından qorxurdu. Onun şəxsi mühafizəçisi özü ilə spirt flakonu gəzdirir və Çauşesku hər hansı əşya ilə təmasdan sonra əllərini silirdi.

Çauşesku özü dəbdəbə içində yaşayır, qiyməti 100 min dollar olan bahalı maşınlarda gəzirdi. Özü və ailəsi üçün tikdirdiyi çoxsaylı iqamətgahların yemək otaqlarında qablar bahalı metallardan, büllur tualetlərində unitazlar isə mərmərdən idi. Rəhbərin həyatının təminatı üçün yol verilən israfçılıq ölkə büdcəsinin böyük hissəsinin xərclənməsinə səbəb olurdu. Bu da nəticədə xarici borcun artmasına gətirib çıxardı.

70-ci illərin sonuna borc 13 milyard dollara çatdı.Rumıniya isə iqtisadi iflas ərəfəsində idi. Bundan sonra Çauşesku konstitusiyada gələcəkdə xaricdən borc alınmasını yasaqlayan dəyişikliyin edilməsi məqsədi ilə referendum keçirdi. 1980-ci ildən xarici borcların ödənməsi ölkənin əsas prioritetinə çevrildi.

Çauşesku onun hakimiyyəti dövründə yaranan borcları ödəmək üçün istehsal edilən məhsulların böyük hissəsini ixraca göndərdi. Bu da ölkə daxilində məhsul qıtlığı yaratdı. O vaxtdan yanacaq və ərzaq çatışmazlığı rumınların gündəlik həyatının tərkib hissəsinə çevrildi. Ancaq bununla yanaşı, ədalətlə qeyd etmək lazımdır ki, 1989-cu ilin yayında, Çauşesku devrilməmişdən bir neçə ay əvvəl Rumıniya bütün xarici borclarını ödədi. Ancaq qıtlıqla yanaşı, kütləvi ixracın da qarşısı alınmadı.

## Görməmiş Çauşesku Korbu adlı iti

Əmək fəaliyyətinə pinəçi köməkçisi kimi başlayan Nikolay Çauşeskunun hakimiyyət zirvəsinə yüksəlişi Roma imperatorları stilində dəbdəbə ilə davam etdi. Atını senator edən Kaliqulaya tam bənzəmək üçün Çauşesku Korbu adlı sevimli təmtəraqlı itini şan-şöhrətə bürüdü. İtə onu Buxarestdə gəzdirən xüsusi limuzin ayrılmışdı, o, Çauşeskunun çoxsaylı villalarının birində dəbdəbəli otaqda yatırdı. Sevimli itin xidmətində hətta telefon da var idi. Hər gün Londondan it biskvitləri alıb Buxarestə göndərmək isə Rumıniyanın Böyük Britaniyadakı səfirinin xidməti vəzifəsinə daxil idi.

Devrilməzdən bir müddət əvvəl Çauşesku sevimli itinə Rumıniya ordusunun polkovniki rütbəsi verdi.

Öz mükafatlarının sayına görə isə Çauşesku Leonid Brejnevlə rəqabətə girə bilərdi. Dəfələrlə Sosialist Əməyi Qəhrəmanı adını alan Çauşesku dost xalqların da bir çox mükafatını əldə etmişdi.

Bununla yanaşı, Çauşesku ölkəsinin və xalqının nüfuzu barədə də düşünürdü.

Onlarla akademik rumınların romalıların davamçısı olduğunu, rumın dilinin isə latın dilinə ən yaxın dil olduğunu sübut etmək üçün arxivlərdə çalışırdı.Həmin vaxt isə ölkə iqtisadiyyatı uçuruma doğru gedir, bir vaxtlar Avropanın "çörək səbəti" olan Rumıniyada ildə on beş min adam acından ölürdü.

## Ər-arvad hakimiyyətinin fırıldaqları

Baxmayaraq ki, Rumıniya diktatoru Nikolay Çauşeski və xanımı Yelena da "Biz sizin valideynlərinizik" deyirdi, amma mənzərə elə deyildi.

Həmin dövrdə Qərb mediası yazırdı: Rumıniyadakı repressiv Çauşesku rejiminin dəhşətli təzahürlərindən biri də əhalinin sayını və beləliklə işçi qüvvəsini artırmaq məqsədi ilə qəbul edilmiş kontrasepsiya və abortun qadağan edilməsi haqqında fərman idi (1966). Yeni qanunlara riayət edilməsinə gizli polis nəzarət edirdi. Uşaq sayı 5-dən az olan ailələr isə özəl vergi ödəməyə məcbur idilər. Doğum sayı beləcə birdən-birə artdı.

Eyni zamanda, gözlənilməyən problemlər meydana çıxdı. Uşaqlarının baxım məsrəflərini qarşılaya bilməyən bir çox yoxsul ailə onları uşaq evlərinə buraxmaq məcburiyyətində qalırdılar. Çauşeski hakimiyyətinin devrildiyi 1989-cu ildə uşaq evlərinə tərk edilmiş uşaqların sayı 17000 idi.



Yetərincə qidalanmayan və həddən artıq gigiyenik olmayan şəraitdə yaşayan uşaqlara qarşı laqeyd və qəddar münasibət hökm sürürdü. Uşaq evlərində geyim çatışmırdı, soyuq idi və uşaqlar tibbi yardım almırdılar. Ancaq ən pisi mental və sensor stimullaşmanın, insan sevgisinin, yaxınlığının və şəfqətin tamamilə olmaması idi. Uşaqlar çılpaq divarlarla əhatə olunmuşdu, oyuncaqlar və kitablar yox idi. Uşaqlar beşiklərdə saxlanılırdı, fiziki cəhətdən zəif idilər. "Biz sizin valideynlərinizik" cütlüyün uşaqlar üçün yaratdığı mənzərə belə idi

## Çauşeskunun 23 illik hakimiyyəti, növbəti dəfə başçı olmaq sevdası və Ruminiya inqilabı

1989-cu ilin noyabrında Rumıniya Kommunist Partiyasının 14-cü qurultayında Nikolae Çauşesku yenidən partiyanın baş katibi seçildi.Bu artıq rumınların səbr kasasını daşıran son səbəb oldu. Beləki, Rumıniyanın şimal-qərbindəki bütün dövr ərzində təzyiq altında olan.Transilvaniyadakı macarlarından biri- macar keşişinin rejimə müxalif olduğu əsası ilə sürgünə göndərilməyə cəhd edildikdən sonra 15 dekabrda qiyam başladı. Dekabrın 16-da başlayan hadisələr polisin və Sekuritatın (gizli polis) müdaxiləsi ilə daha da genişlənib. Etirazlar ilkin səbəblərindən kənara çıxdı və birbaşa Çauşesku rejimini hədəf almağa başladı.

İğtişaşlar və etirazlar ertəsi gün də davam etdi; rayon komitəsinin binası zəbt olundu. Hadisələr gərginləşdikcə ordu içəri girdi; dekabrın 18-i səhər saatlarında şəhərə nəzarət ancaq əldə edilə bildi. Həmin gün şəhərdə hərbi vəziyyət elan edilib. Dekabrın 20-də yürüş iştirakçıları şəhərə daxil oldular; etirazçıların böyük bir qrupu şəhərin Operey meydanını zəbt etdi.

İrana səfər edən Nikolae Çauşeskunun yerinə onun həyat yoldaşı Yelena Çauşesku hadisələri sakitləşdirmək üçün etirazçılara məhbusların əksəriyyətinin azad edilməsini təklif etsə də, qiyamçılar Çauşesku geri çəkilənə qədər davam edəcəklərini bildirərək bu təklifi rədd ediblər.

Çauşeskunun dekabrın 20-də axşam qayıtmasına baxmayaraq, vəziyyət daha da gərginləşdi. Həmin axşam televiziya çıxışında Çauşesku Timişoarada baş verənləri "xarici güclərin Rumıniyanın daxili işlərinə müdaxiləsi" və "Rumıniyanın suverenliyinin pozulması" kimi qiymətləndirib. Budapeşt radiosu ilk olaraq Timişoarada baş verənləri dünyaya çatdırdı, qərb mediası isə qırğından xəbər verdi, on minlərlə insanın ölümündən danışdı, milli televiziyadan məlumat ala bilməyən Rumıniya xalqını Çauşesku rejiminə qarşı ayağa qalxmağa təşviq etdi.

Çauşeskunun nəzarətində olan Rumıniya Televiziyası dekabrın 21-də Varşava Müqaviləsi ölkələrinin Rumıniyaya girməsinin qarşısını almaq, Çauşeskuya dəstək vermək üçün 1968-ci ildə olduğu kimi Buxarestdə böyük bir toplantı keçiriləcəyini açıqladı.

Çauşesku vəziyyətə hakim kimi görünsə də, iğtişaşlar tezliklə Buxarestə yayıldı;Dekabrın 22-də səhər saat 9:30 radələrində Çauşeskunun müdafiə naziri Vasile Milea şübhəli şəkildə ölüb Milea Çauşeskunun nümayişçilərə atəş açmaq əmrini yerinə yetirməkdə tərəddüd edir, baxmayaraq ki, həmin səhər Buxarest şəhər mərkəzinə tanklar göndərilmişdi. Milea əvvəlcə Çauşesku ilə Timişoaraya həqiqi döyüş sursatı olmadan qoşun göndərdiyinə görə mübahisə edirdi.

## Hakimiyyət hərisinin son aqibəti

Çauşeskunun izdiham qarşısında ikinci uğursuz cəhdindən sonra o, arvadı Yelena ilə birlikdə dama qalxan liftə minib. Bir qrup etirazçı binaya zorla daxil ola bilib, Çauşeskunun mühafizəçilərini zərərsizləşdirib və eyvana çıxmazdan əvvəl onun ofisindən keçib. Onlar Çauşeskudan cəmi bir neçə metr aralı olduqlarından xəbərsiz idilər. Liftin elektrik cərəyanı sonuncu mərtəbəyə çatmazdan əvvəl kəsilib və Çauşeskunun mühafizəçiləri lifti zorla açıb cütlüyü damın üstünə çıxarıblar.

Vertolyot Piteştiyə gedən köhnə yolun yanındakı tarlaya endi. Malutan daha sonra dörd sərnişininə daha çoxunu edə bilməyəcəyini söylədi. Sekuritatın adamları yolun kənarına çıxaraq yoldan keçən maşınları saxlamağa başlayıblar. İki maşın dayandı, biri meşə gözətçisi, digəri isə həkimin idarə etdiyi qırmızı Dacia idi. Həkim isə bu işə qarışdığına sevinmədi və qısa müddətdən sonra mühərrikin sıradan çıxdığını deyərək Çauşeskunu aldatdı.

Daha sonra bir velosiped ustasının maşını saxlanıldı və o, onları Tarqovişte tərəfə apardı. Təmirçi Nikolae Petrisor onları şəhərin kənarındakı kənd təsərrüfatı texniki institutunda gizlənə biləcəklərinə inandırdı. Çatdıqlarında o, Çauşeskunu bir otağa apardı və sonra onların qapısını kilitlədi. Onlar saat 15:30 radələrində yerli polis tərəfindən həbs edilib, daha sonra bəzi adamları ətrafda gəzib-dolaşdıqdan sonra Tqrqovişte qarnizonunun hərbi birləşməsinə köçürülüb və məhkəməyə qədər bir neçə gün əsir saxlanılıblar.

Dekabrın 24-də yeni yaradılmış Milli Azadlıq Cəbhəsi Şurasının (MSŞ) sədri İon İliyesku Fövqəladə Hərbi Tribunalın, Çauşeskunun soyqırım və digər cinayətlərə görə mühakimə olunması üçün hərbi tribunalın yaradılması haqqında fərman imzalayıb.

Buxarestin şimal-qərbindəki T?rqovişte kazarmasında saxlanılan Çauşesku və həyat yoldaşı, təxminən bir saat davam edən məhkəmə prosesindən sonra 1989-cu il dekabrın 25-də kütləvi qətl, korrupsiya, vəzifədən sui-istifadə, vətənə xəyanət və dövlət əmlakını mənimsəmə ittihamları ilə edama məhkum edildi. Onlar elə həmin gün güllələnərək edam ediliblər.

**Beləcə, Rumnyada 1989-cu ilin dekabr ayı 23 illik bir dövrün bitməsi ilə başa çatır.**

**Əntiqə Rəşid**

***(Məqalə Vikipediya materiallarına istinadən yazılıb)***

## Qara çörək...

**Bir çox insanlar həkimlərin məsləhəti ilə pəhriz saxlayır, sağlamlıqlarını qorumaq istəyirlər.**

Bunu da ən çox ürək-damar, diabet və mədə- bağırsaq xəstəlikləri olan pasiyentlər edirlər. Belə pəhrizlərdən biri də qara çörəkdir. Ona görə də gərək qara çörəklər qara undan bişirilə və tərkibinə müxtəlif boyalar, kimyavi maddələr qatılmaya. Amma bizdə qara çorək isehsalı sahəsində halallıq yoxdur, yəni əksər qara çörəklər standartlara cavab verilmir, onun tərkibinə müxtəlif rən-



glər əlavə edilir. Bax belə də olanda xəstə adamlar bilmirlər ki, hansı qara çörək alsınlar. Bizim özümüz də qara çörəkdən istifadə eləyirik. Sumqayıtda istehsal olunan 700 qramlıq 1 manat 5 qəpiklik qara çörək alırıq, keyfiyyətinə də söz yoxdur. Amma əksər qara çörəklərin keyfiyyətinə bir o qədər də inam və etibar yoxdur. Məhz buna görə də Qida Təhlükəsizliyi Agentliyi qara çörək istehsalındakı özbaşınalığı aradan qaldırılmasına nəzarəti artırmalı, keyfiyyətsiz qara çörəyin hazırlanmasına göz yummamalıdır!

## Yumurtanın qiyməti bahalaşıb



**Həmişə bayramqabağı hər şeyin qiyməti bahalaşır.**

Bu dəfə də elə belədir. Yəni yeni il gəlməmişdən yumurtanın qiyməti qalxıb. Bir neçə gün bundan əvvəl bir çox mətbuat orqanların da yazıldı ki,bəs yumurtanın qiyməti yüksələrək 20 qəpik olub. Düzü buna çox təəccübləndik. Ona görə də yaxınlığımızda yerləşən ticarət mərkəzlərindən birinə- " Ballı marketə" baş çəkdik. Gördük ki, həqiqətən də qiymətlər artıb. Belə ki, ağ yumurtanın bir ədədi 17-i, sarı yumurtanın bir ədədi isə 18 qəpikdir.

Qəribə də olsa, bu,bir qədər ürəkağrıdıçdir. Çünki bayramqabağı qiymətlərin artımı heç də yaxşı hal deyildir. Qiymət artımını əlaqədar qurumlar onunla izah edirlər ki, bu məhsulun müəyyən hissəsi xaricə ixrac olunur. Ona görə də qiymətlər yüksəlib. Amma ilk növbədə daxilı bazar qorunmalı, qiymətlər sabit saxlanmalı və bundan sonra xaricə məhsul istehsal edilməlidir. Təəssüf ki bizdə buna əhəmiyyət verilmir!

## Quba-Xınalıq yolunda çətin anlar



**Ölkə ərazisinə bir neçə gün öncə qar yağdı.**

Aydındir ki, qar yağanda nəqliyyat vasitələrini idarə etmək daha çətin olur. Çünki yollar buz bağlayır, yer sürüşkən vəziyyətə düşür. Belə anlarda avtomobillərin şinləri qış rejiminə uyğun olmalı, digər texniki göstəricilər mövsümün tələblərinə cavab verməlidir.

Üstəlik də sürücülər sürət həddinə əməl etməli, ara məsafəsi saxlamalıdır. Qar yağanda Quba-Xınalıq yolunda həmişə bir çətinlik yaranır. Ona görə də sürücülər qəza vəziyyətilə üzləşirlər. Bax onda onların köməyinə yol polisi və yol istismar idarəsinin əməkdaşları çatırlar.

Bir sözlə, Quba-Xınalıq yolunda qar yağanda sürücülər həmişə ehtiyatlı olmalıdırlar!

## 50 nömrəli marşrutda ...




**Havalar soyuyanda avtobuslarda da istilik sistemi işləməlidir. Heç şübhəsiz müasir tələblərə cavab verən yeni avtobuslarda istər yayda, istərsə də qışda kondisioner sistemi işləyir.**

Amma əksər köhnə avtobuslarda yay bir yana qalsın, heç qışda istilik sistemi işləmir. Belə qeyri- qənaətbəxş marşrutlardan biri də 50 nömrəl avtobuslardı. Bu marşrutda hərəkət edən avtobusların əksəriyyətində istilik sistemləri işləmir. Təbii ki, bu da sərnişinlərin haqlı narazılığına səbəb olur. Artıq qışın bir addimlığındayıq. Yəni dekabrın 22- də qış girir.

Bax belə olanda havalar daha da soyuyacaq! Onda da adını çəkdiyimiz marşrutda mənzil başına gedənlər çox əziyyət çəkəcək. Ona görə də həmin marşrutun sahibi nə qədər gec deyil, bu avtobuslarda qayda- qanun yaratsın və sərnişinlərin qış günlərində isti yerdə mənzil başına rahat çatmasını təmin etsin!!!

**EMİL FAİQOĞLU**

## "Medianın TV bölməsinə ciddi, çox ciddi islahat lazımdır"



**Adalet.az xəbər verir ki, bu sözləri aparıcı Murad Əzimzadə bildirib. O, İTV-nin "Sabaha saxlamayaq" verilişində televiziyamızla bağlı müzakirə haqqında bunları deyib:**

"İTV"nin TV-lərlə bağlı müzakirəsi mənə görə, yarımçıq qaldı. Daha geniş formatlı və dərin müzakirəyə ehtiyac var. Yaxşı olardı ki, TV rəhbərləri də müzakirəyə dəvət olunsun. Kabinetlərdən çıxmaq lazımdır, mütləq! Real vəziyyəti və həqiqəti ifadə etmək zamanı çoxdan gəlib. Bu gün yerli TV-lərimiz çağdaş dövrlə ayaqlaşa bilmir! Səbəbləri saymaqla bitməz. İstər texniki, istər də peşəkarlıq yönümdən uduzuruq. Belə olan halda tamaşaçı TV-lərə, TV-dəkilərə aldanmır, nəticədə baxımsızlıq yaranır, baxımsızlıq isə gəlirləri aşağı salır, gəlirlərin aşağı düşməsi isə TV-lərdə böhrana səbəb olur. Medianın TV bölməsinə ciddi, çox ciddi islahat lazımdır".

**Emin**

## Şəhid qardaşı Hüseyn və Aqşinə səsləndi: "Amin döyüşə-döyüşə əsir düşmüşdü..."

**Xəbər verdiyimiz kimi bir neçə gün öncə əsirlikdən qayıdan Azərbaycan Ordusunun əsglərləri-Hüseyn Axundov və Aqşin Bəbirovun sosial şəbəkədəki çıxışları birmənalı qarşılanmayıb.**

Adalet.az xəbər verir ki, Vətən müharibəsi şəhidi, mayor Vüsal Vəliyevin qardaşı Elyar İslamoğlu Hüseyn və Aqşinin müsahibələrini sərt tənqid edib:

"Əsirlikdən qayıdan o iki şəxsə deyin ki, ayıblarına kor olsunlar, çıxıb qəhrəmanlıq ediblərmiş kimi sosial şəbəkələrdə, tiktokda danışmasınlar. Bir var döyüşə-döyüşə gedib əsir düşəsən, bir də var onlar kimi...(hansı formada getdiklərini aidiyyatı qurumlar bilir). Amin kişi kimi döyüşə-döyüşə əsir düşmüşdü, amma qayıdandan sonra bunlar kimi artistlik etmədi. Bu iki şəxsin məsuliyyətsizliyi ucbatından neçə-neçə dəyərli hərbiçiyə zərbə dəydi, neçəsi ölümdən qayıtdı. Oturub evlərində dövlətdən və aidiyyatı qurumlardan məsuliyyətsizliklərinin, vecsizliklərinin bağışlanmasını diləsinlər. Yatıb-durub Ali Baş Komandana dua etsinlərki 32 düşmən əsiri sırf onları azad etmək üçün verildi. Həmin əsirlərlə başqa, daha vacib işlər görmək olardı..."-deyə Elyar İslamoğlu bildirib.

**Vasif Əlihüseyn**

# "Seksual pozğunluq" Səfəvilər İmperiyasını dağıdıbsa, 40 dövlətin süqut səbəbi nədir, Aqşin?

**Deməli , Aqşin Yenisey adlı bir yazıçı, şair (nağılbaz) var. Deyib ki, Səfəvilər İmperiyasının dağılmasına Səfəvi elitasının seksual pozğunluğunun səbəb olduğunu iddia edib. O bildirib ki, Səfəvilər haqqında yazılan bütün mənbələrdə bu səbəb ən başda qeyd olunur::"Səfəvi şahları, şahzadələri aylarla hərəmxanalardan çıxmırdılar. Nəticədə Lut qövmünün başına gələnlər Səfəvi dövlətinin başına gəldi: ifrat seksual həzz düşkünlüyü dövlət əxlaqını çürütdü və bu dəfə tanrı deyil, tarix vaxtilə Sodom şəhərinin başına yağan daşları Təbrizin başına yağdırdı".**

Deyirəmmi, nağılbazdır.

Aqşin Yenisey niyə gedib hekayəsini yazıb, şeirini əzbərləyib, 5-10 manat maaşını qazanmır? Axı, onun gündəmə gəlməsi üçün, sosial şəbəkələri "əsdirməsi" üçün kifayət qədər mövzu, problem, dərd var! 500 il əvvəl yaranmış Azərbaycanın şanlı tarixini əhatə edən Səfəvilər dövrünü, 300 il əvvəl süqut etmiş bir dövlətçiliyi təhqir edəcək cümlələr seçib, sosial şəbəkələrdə "faş" etmək sənin nə bilgi, nə araşdırma , nə də peşə vəzifənə aid deyil! Ola bilməz! ŞAH İSMAYIL XƏTAİ haqqında mərhum tarixçi-alim, tarix üzrə fəlsəfə doktoru Dilavər Əzimli kifayət qədər araşdırma da edib, monoqrafiyalar da yazıb. Alimin Şah İsmayıl Xətainin milli kimliyimizin formalaşmasında oynadığı rol ilə əlaqədar maraqlı fikirləri hazırda internet məkanından tapıb oxusa, fikirlərində dəyişiklik olar!

Dövlət səviyyəsində yazıçı-şair Aqşinə demək lazımdır ki, Şah İsmayıl Xətai kimi bir şəxsiyyətin qurduğu xanədana, dövlətçiliyə ləkə atmaq, yeni "etiket" yapışdırmaq sənin biləcəyin bir iş deyil!Əgər bir sözü düşmən deyirsə, sən də deyirsənsə, day, sənin onlardan fərqin nə oldu?

Hər yaranmış dövlətin bir sonu olduğu bəlli bir aksiomadır. Baxın, Azərbaycanın tarixi ərazilərinə, görün, neçə dövlətlər orada süqut edib...

Məsələn, qüdrətli Şəddadilər dövləti (951 - 1174) 223 il, Rəvvadilər dövləti






(981-1065 ) 84 il, Ağqoyunlular dövləti (1378 - 1501) 125 il, Qaraqoyunlular dövləti (1375-1468) 93 il. Azərbaycan ərazilərində ən uzun ömürlü dövlət Şirvanşahlar dövləti (861-1538) dövləti olub və "uzunömürlülükdə" ikinci pilləni isə Səfəvilər xanədanı tutub. Salarilər, Sacilər, Atabəylər, Çobanilər və digər dövlətlərin hökümranlıq dövrünü yazmıram, çünki, onlar, zatən, 100 ili başa vurmadan süqut ediblər. Aqşin Yeniseyin "araşdırmasından" belə çıxır ki, Azərbaycan ərazisində süqut edən dövlətlərin süqut etmə səbəbi "seksual pozğunluqdu"! Yəni, absurd qənaəti belədir! 235 il ( 1736-cı ildə Nadir şah tərəfindən süquta uğrayıb) yaşayıb ee, Səfəvilər dövləti! "Seksual pozğunluq" olan dövlət 235 il yaşayardımı? Bir az zəkanızı kullanın, lütfən!

Ümumiyyətlə, əlinə bir azca, fürsət keçən, yəni, tanınan bəziləri sosial şəbəkələrdə bir neçə özü kimi məntiqsiz insanları ətrafına cəm edəndən sonra başlayır tarixi şəxsiyyətlərimizə, tariximizə, ədəbiyyat və mədəniyyətimizə hücuma keçməyə! Guya araşdırıblar, filan ölkənin filan yazarı deyib ki, Səfəvilər dövləti yaramazlıq, Şah İsmayıl Xətai günah edib. Ay adını azərbaycanlı qoyub, Azərbaycan tarixinə nifrət sərgiləyənlər, kötək götürüb, sizi onunla başa salmaq lazımdır ki, məhz Şah İsmayıl Xətainin sayəsində böyük Səfəvi imperiyası sayəsində Azərbaycan torpaqlarının bir ucu İran, Ermənistan, İraq, Əfqanıstan, qərbi Pakistan, cənubi Türkmənistan və şərqi Türkiyə ərazilərini əhatə etmiş tarixi bir türk dövləti yarandı. Bu gün əgər Zəngəzura iddialıyıqsa, İrəvan bizimdir -deyiriksə, bu Səfəvi dövlətinin bizə mirasıdır! Son aylar tariximizə belə hücumlar çox olur. Çox təəssüfləndirici haldır, çox...

Aqşin Yenisey də haqq üçünə yaxşı hekayə yazır, poetik şeirlərin ustasıdır. Amma getsin, hekayəsini yazsın, şeirinin qafiyəsini axtarsın! Tarix onluq deyil! Tarixçilər Şah İsmayılın da, onun qurduğu Səfəvi dövlətinin də xarakteristikasını yazıb, qoyub, gediblər!Əlavə yazılanlar isə ağ şalvara yapmaq istədiyiniz qara yamaqdı. Azərbaycanı heç vaxt qəbul etməyən xarici ölkə alim və tarixçilərinin uydurduqlarına isə istinad etmək, bu tip fikirlər yayıb tariximizi şübhə altına almaq isə ya savadsızlıqdır, ya qərəzçilik!

**Bu qədər sadə!**

**Əntiqə Rəşid**

# Kaş, şəhid olmayaydın Firdovsi, kaş...

**Yazıma başlamamışdan əvvəl müqəddəs məvhumlar uğrunda canından keçən bütün şəhidlərimizin ruhu qarşısında baş əyirəm! Vətən anadır, Vətən baçıdır, Vətən qız övladıdır, Vətən ayaq açıb yeridiyin evdir, məhlədir, kənddir... Bu məvhumları müqəddəs bilən şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə və veteranlarımıza can sağlığı arzulayıram.**

İndi keçək bu gün məni yerlə-yeksan edən mövzumuza.

Müharibəyə niyə bu qədər nifrət edirəm? Yox, orda insan ölür deyə yox, orda qan tökülür deyə də yox, orda gənclər kütləvi şəkildə gələcək plan və istəkləri ilə birgə torpağa gömülür, deyə də, yox! Tam fərqli bir səbəb var!

Döyüşə ən çox vətən qeyrətini, ana-bacı namusunu canından artıq bilənlər, xalqının qürurunu qoruyan cəsur oğullar gedir. Zatən qeyrətsizlər qaçıb gizlənəcək.Başqa cür də mümkün deyil! Qeyrəti , namusu, ləyaqəti olanlar getməlidir !

Gedir və geri dönmür o namusu, qeyrəti, qüruru, ləyaqəti həyat amalına çevirən oğullar! Kaş ki, elə şəhidlərin, elə oğulların papağını yerlərə atan, onu xatirəsini, namusunu, qeyrətini, ləyaqətini tapdaqlar altına salan doğmaları olmayadı.

Kaş ki... Bu fikirləri yaza - yaza şəhidimizin mərdlik -kişilik tökülən simasına baxıram... Nələr hiss edirəm, bir bilsəniz!

Bu gün Zəngilan elinin tanınmış igidi, ləyaqətli övladı olan bir şəhidimizdən danışacağam.

Azərbaycan Ordusunun ilk şəhidi olub, Məmmədov Firdovsi Xeyrulla oğlu!

Firdovsi 1961-ci ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olub. 1978-ci ildə 36 nömrəli Mincivan qəsəbə dəmiryol orta məktəbini bitirərək hərbi xidmətə gedib. Əsgəri qulluğunu müharibənin tüğyan etdiyi Əfqanıstanda başa vurduqdan sonra Volqoqrad şəhərində hərbi məktəbə daxil olub, gizir rütbəsi ilə Bakı şəhərinə qayıdıb. Yurdu yağı təhdidində idi, el obası təhlükədəydi. Belə bir zamanda düşmənə "çəpər" olmaq bu ləyaqətli gəncin vicdan borcu idi! Axı, belə oğullar ANA, BACI, ÖVLAD, QIZ-GƏLİN, YURD təəssübkeşliyini canlarından əziz biliblər...

Hərbi hissələrin birində xidmətini davam etdirib. Komandiri olduğu batalyonla Xankəndi ətrafında döyüşlərə girib. Bir cox müdafiə və hücum əməliyyatlarında göstərdiyi təşkilatçılıq bacarığı və cəsurluğu ilə tanınıb. 1991-ci il dekabr ayının 11-də döyüş zamanı başından yaralanaraq şəhid olub. Bakıda I Şəhidlər Xiyabanında dəfn edilib.



Müğənni Təranə Qumral Firdovsi Məmmədovun bacısıdır.

T.Qumral ki, bir dəfə də olsa, şəhid bacısı olduğunu efirlərdə dilinə gətirməyib.

Təranə Qumral ki, hələ Zəngilanda olarkən el adəti ilə doğmalarının xeyir duası ilə ixtisasca hərbçi bir oğlanla ailə qurmuşdu. 2 övlad dünyaya gətirmişdi. Qadınlar cərgəsinə, analar sırasına





qoşulmuşdu. Zəngilan işğala məruz qalandan sonra hərbçi ərindən boşanmadan Musa Musayevlə sevişdi. Onunla birlikdə oldu. Ta ki, hərbçidən tam boşanandan, 2 qız övladını yanına alandan sonra Təranənin eşqinə xalası qızını boşayıb onunla qeyri-qanuni bir yerdə yaşayan Musa ilə münasibətləri rəsmiləşdirdi. Hərbiçidən olan Qumral və Fidan adlı qızlarına bir baçı da Sevgim əlavə olunur. Qumralı tanıyırsınız o da çox "izvestni" müğənnidir. Həm də ailəlidir. Yeri gəlmişkən, o olaydan sonra Musanı bütün qohum -əqrabası atdı. Bu da həmin Musadır ki, 2013-cü ildə onun namusuna ləkə olan müdhiş qalmaqallı xəbərlər yayılmışdı. Musa mediaya açıqlama verdi:

"Təranədən çoxdan şübhələnirdim. Telefonda başqa kişi ilə danışdığını, onunla eşq yaşadığını hiss edirdim. Amma dünən onları öz evimizdə, yataq otağında tutdum. Təranəni ov tüfəngi ilə vurmaq istədim, alınmadı, qaçıb qonşuda gizləndi. O, məndən 17-ci polis bölməsinə şikayət edib".

M.Musayev həyatının uzun illərini T.Qumrala həsr etdiyi üçün peşman olduğunu söyləyib:

"Ona görə uzun illərdir qardaşım Cabbarla küsülü idim. Onu çox sevirdim, inanırdım. Amma demə, Təranə q...ə imiş. Məni şəmkirli biznesmenlə aldatdı. Özü mənə dedi ki, daha məni sevmir, onu sevir".

Musanın qardaşı Cabbar Musayev qardaşının Təranəyə xəsarət yetirə biləcəyi ilə bağlı da deyir: "Harda idi Musada o qeyrət?! Elə qeyrəti olsaydı, vaxtında o işi görərdi. Musa qədər namussuz, qeyrətsiz insan heç Fransada da yoxdur. Amma qocalmış vaxtında əgər ayılıb o qadından əl çəkəcəksə, buna görə Allaha min şükür etmək olar. Musa dünyanın ən bədbəxt insanıdır, bir qadının əlində oyuncağa çevrilib, başı xarab olan bir insandır. O qadın Musanın adına nələr böhtan danışmadı; gah narkoman dedi, gah alkaş. Musaya o da azdır".

Təranə isə deyilənləri inkar edib, hətta Musadan boşandığını açıqladı. Çox söhbətlərdən sonra Musa ilə Təranə barışır. Hər şey yaddan çıxır.

Günlərin bir günü Təranə Qumral müğənni Nazəninin həyat yoldaşı Məhəbbət Həsənovla eşq yaşadığı məlum olur. İş məhkəməyə qədər gedib çıxır. Məsələyə məhkəmənin qərarı və Məhəbbət Həsənovun açıqlaması nöqtə qoyur.

Təranənin sevgilisi, Nazəninin əri danışır: Təranə ilə intim münasibətim olub. Bunu məhkəmədə sübut etmişik. Təranənin intim mesajlarını telefonumda hələ də saxlamışam.

Məhkəmə prosesi iki tərəfin də şəxsi həyatını əhatə etdiyi üçün qapalı keçirilmişdi. Mobil operatorların anten dairəsindən əldə olunan məlumatlarda Təranə Qumralın yazdığı mesajlar da üzə çıxarılmışdı. Bir daha qeyd edirəm ki, Təranə mənim məşuqəm olub. Ona sual verirəm ki, Musa Musayev hələ də bunlara göz yumur?".

Nəisə mövzum Musa deyil.

İndi də keçək şəhidimizin qızı oriental rəqqasə Canana- Cankaya... Əsl adı Tellidir! Bütün sosial platformalarda videoları, fotoları böyük "bəyən"i görüb. Uzun müddət restoran və barlarda rəqqaslik edən Canana deyilənə görə 2021 -ci ildə artıq ailə qurub. Bir dənə toy mərasimində yadına düşüb ki, atası şəhiddir, çiyninə bayraq sərib. ( Hərçəndi mən ailə qurduğuna inanmıram-red-Ə.R)

Allahdan ən böyük arzum odur ki, xalqımız bir də heç vaxt müharibəyə sürüklənməsin , müharibə olmasın! Əgər olarsa, (Neynəyə bilərik, 4 tərəfimiz düşməndir) kaş ki, bu dəfə ruhunda fahişəlik, əxlaqında naqislik olan qadınları, qeyrət-namusunda kəsirlik olan kişiləri yığıb göndərələr cəbhəyə!

Elə qəflətən ürəyimdən keçdi, qoy deyim: Kaş ki, Firdovsi cəbhəyə getməyəydi, qalıb, arxa cəbhədə qəhrəmanlıq nümayiş etdirəydi... heyf belə igidlərdən! Çox heyf...

Firdovsi Məmmədovun simasında bütün şəhidlərimizin ruhu qarşısında baş əyirəm!

***P.S.** Əslində bir neçə gün əvvəl 11 dekabr şəhidimizin anım günü ilə bağlı tam fərqli bir yazı yazmaq istəyirdim. Amma bu gün öyrənəndə ki, Firdovsi Təranə Qumralın qardaşıdır, nə qədər istəsəm də, orjinal şəhid yazısı yaza bilmədim. Yaza-yaza da deyirəm: Kaş şəhid olmayaydın, Firdovsi!*

**Əntiqə Rəşid**

# Füzuli soraqlı Boyat

**Tədqiqatçı alim Şamil Cəmşidov Boyat mahalını Füzuli soraqlı Boyat adlandırmışdır. Geniş araşdırmalar aparan alim bu qədim tayfanın özəlliyi və incə çalarları barəsində ətraflı yazmışdır. Bu ağcabədili tarixçi alimin araşdırmalarından aydın olur ki, Ağcabədinin və bütün Odlar yurdunun ən ulu yaşayış məskənlərindən olan Boyat kəndi öz qədimliyini bayatılarda, muğamlarında və tarixi abidələrində də qoruyub saxlamışdır. Onun ətrafındakı Qışaltı təqə, Qoşatəbə və Qalaaltı kurqanları Tunc dövrünün qiymətli yadigarlarıdır. Boyat kəndi-obası, həm də dahi şairimiz Füzulinin ata yurdu kimi tanınır. Ş. Cəmşidov yazır ki, Füzulinin atası Süleyman kişi Qarabağın -indiki Ağcabədinin Boyat kəndindən öz ailəsi ilə birlikdə köçüb Kərbəlaya getmiş və bir neçə il sonra balaca Məhəmmədi-Füzulini də yanına alıb doğma kəndinə, burdakı qohumlarına baş çəkməyə gəlmişdi. Süleyman kişinin, yəni Füzulinin atasının bir vaxt yaşadığı evin qalıqları, yurd yeri hazırda kəndin Boyat-Beyləqan Aşıq Vəlilər tirəsindəki kərpicli təpədədir. (Əlacın olsa burda o zamanın arxitexturasına uyğun olan bir ev tikər və buranı ölməz Füzulinin ev muzeyi edərdim. A, Misirli)**



Xalq şairi Rəsul Rza "Uzaq yollardan gələn" adlı şeirində Füzulinin Bağdaddan Qarabağa, doğma Boyat kəndinə qayıtmasını kədərli misralarla təsvir edib:

***Bağdad hara, Boyat hara!***  
***Qırılmış təsbeh kimi***  
***Günləri karvan tökür***  
***Qaynar, uzaq yollara.***  
***Bağdad hara, Boyat hara!***

Əlbəttə, Boyat (Əslində Bayat adının yenidən qayıdıb, öz yerini tutacağını səbirsizliklə gözləyirəm. A.Misirli) sözü ayrıca bir kəndin çərçivəsinə sığmamışdır. Boyat obası uzaq keçmişlərdə təkcə Qarabağı deyil, yurdumzun daha böyük ərazisini əhatə etmişdir. Bu mənada harada doğulmasından asılı olmayaraq, Füzulinin babasının Qarabağdan, indiki Ağcabədinin Boyat kəndindən köçüb İraqa getməsi fikiri həqiqət olsa da, qürbətlik məsafə uzaqlıqı kimi düşünülmüşdür. Füzuli İraqda da, doğma el-obasının əhatəsində yaşamış, Boyat-Qorqud ləhcəli türklər-oğuzlar mühitində onların doğma ləhcəsində dünya ədəbiyyatının ölməz incilərini yaratmışdır. Həmdərdi olmayan isə, harada olsa qəribdir...

Ş.Cəmşidov tədqiqataları sayəsində bir daha sübuta yetirir ki, Ağcabədinin, eləcə də bütün Qarabağ və Azərbaycanın Dədə Qorqud soraqlı ulu Boyat kəndi həm də Füzuli nəfəsli, Füzuli soraqlıdır...

...Qarabağ Regional Mədəniyyət İdarəsi Ağcabədi MKS-nın ölməz şairimiz Məhəmməd Füzulinin adını daşıyan Boyat Kənd kitabxana filalı 1966-cı ildən fəaliyyət göstərir. Kitabxananın hazırda yerləşdiyi bina 1988-ci ildə əslən bu yerlərdən olan yazıçı , publisist, millət vəkili Aqil Abbasın təşəbbüsü ilə tikilmişdir.

Kitabxana fondunun zənginləşməsində Aqil Abbasın böyük rolu var. Hər dəfə doğma yerlərə ziyarətə gələndə kitabxanaya baş çəkən Aqil müəllim artıq bu elm ocağına 2500-ə qədər kitab hədiyyə etmişdir. Kitabxanada 10006 nüsxə kitab, bunlardan 6427 kiril, 3271 latın qrafikası ilə çap olunmuş kitablar və 25 ədəd milli media nəsrləri var.

Müxtəlif illərdə yazıçı və şairlər Anar, Fikirət Qoca, Ənvər Əhməd, Rəşad Məcid, Yusif Kamal, Yunis Oğuz, Cənubi Azərbaycan şairi Sayman Aruz, Elçin Hüseynbəyli, tarixi abidələrin



müfahizəsi üzrə mütəxəssis Faiq İsmayılov, toponimçi Nazim Tapdıqoğlu, BDU-nun jurnalistika fakultəsinin müəllim və tələbələri, Azərbaycan Rəssamlar İtifaqının bir çox nümayəndələri kitabxananın qonağı olmuşlar. Rəssamlar İttifaqının nümayəndələri üzəində dahi şairimiz M.Füzulinin rəsmi olan xalçanı və yerli ziyalı Eldar Əhmədov şairin taxta üzərinə rəssam-xarrat Kərim Cəfərov tərəfindən həkk olunmuş portretini kitabxanaya hədiyyə etmişlər.

Zəngin kitab ehtiyatına malik olan M.Füzuli adına Boyat kənd kitabxanasına təcrübəli mədəniyyət işçisi Təhminə Quliyeva müdirlik edir.

Onun rəhbərliyi altinda kitabxana illik və aylıq iş planları əsasında işləyir. Kitabxananın əməkdaşları unudulmaz həmyerlilərinin adını daşımaqla fəxr edir və çalışırlar ki, məhşur şairin adına layiq işlərə imza atsınlar. Onlar şair və yazıçıların yubileyləri, Anım günləri, eləcə də başqa əlamətdar günlərlə bağlı kitabxanada, məktəbdə, musiqi məktəbində mövzüya uyğun olaraq silsilə tədbirlər keçirir, oxucuların sayının artması üçün işlərini günün tələbləri səviyyəsində qurmaq üçün əllərindən gələni əsirgəmirlər.

Şəhid və qazi ailələrini ziyarət edir, kənd əhalisinə, eyni zamanda əqli və fiziki cəhətdən qüsurlu olanlara səyyar kitabxana xidməti göstərən kitabxanlanın əməkdaşları ahıl və yaşlı insanları unutmur, onlara tez-tez baş çəkirlər.

Qeyri hökümət təşkilatlar da kitabxanada müntəzəm olaraq, müxtəlif məzmunlu tədbirlər həyata keçirirlər.

**...Bir zamanlar Qarabağ xanlığının paytaxtı sayılan, ulu Dədə Qorqudun, böyük Füzulinin kiçik vətəni olan Boyat elinin Füzuli adina kitabxanası həqiqətən fəal işləyir, bu qədim mahalın bu günkü, elçilərinə böyük məsuliyyət və diqqətlə qulluq edir. Başda müdir Təhminə Quliyeva olmaqla kitabxananın əməkdaşlarına gələcək fəaliyyətlərində daha böyük uğurlara imza atmağı arzulayırıq.**

**Adil Misirli**

*<u>Qərənfil Dünyaminqızı</u>*

# Kiçik otaqdan böyük aləmi görən şair



*Onun haqqında yazmazdan əvvəl bu sözləri xatırlatmaq yerinə düşərdi. "Söz söyləyən yaxşı bir qəlbə, parlaq bir vicdana, gözəl bir əxlaqa malik olmalıdır". Heç tərəddüt etmədən deyərdim ki, bu sözlər Əbülfət Mədətoğlunun söz aləmi, əxlaq dünyası üçün ölçülüb-biçilib.*

*Mən bu yazımda 1992-ci ildən bu günə kimi tanıdığım, bir zamanlar iş yoldaşım, həmkarım olan, təksə sözü ilə yox, həm də əxlaqı, tərbiyəsi, insanlığı, xeyirxahlığı ilə çoxlarına nümunə olan Əbülfət Mədətoğlundan danışmaq istərdim. Onun poetik deyimini yüksək qiymətləndirən B.Vahabzadə, Elçin, R.Rövşən, S.Səxavət, V.Bəhmənli, V.Nəsibli, V.Yusifli, F.Xəlilzadə və necə-necə söz sərraflarından sonra söz demək, təhlil aparmaq təbii həm çox çətindir, həm də mənə elə gəlir ki, elə ən qiymətli, ən dəyərli sözləri də onalr deyib, onlar yazıb. Mənsə, yalnız qəlbimdən keçənlərin bir qismini korrektəsiz-filansız...*

*BDU-nun Jurnalistika fakültəsini yenicə bitirib "Ədalət" qəzetində işə başladım. Ömrümün ən gözəl, ən çoşqulu çağlarında "Ədalət"də haqq-ədalət sorağına düşərkən, yalnız jurnalistikanın özünəməxsusluqlarını deyil, həm də həyat dərsini öyrəndim. Qəzetin o zaman ilk və yeganə qadın müxbiri (bir necə il) kimi təbii başda Aqil Abbas olmaqla, bütün kollektivdən hər zaman hörmət, diqqət, qayğı gördüm. Əbülfət müəllimdən isə bunları "bir pay" daha artıq hiss etdim. Bəlkə də bu hadisələrə yanaşma münasibətimizin, üslub tərzimizin arasında bir yaxınlıq olduğu üçün belə idi. Bəlkə də Sizin "gönül, göz toxluğunuz", "Vicdanı və Şərəfi ehtiyacdan qat-qat uca tutmağınız", yurda, yuvaya bağlılığınız, arzunuzu, istəyinizi, dərd-sərinizi belə ən əzizinizə, yaxınınıza deməyib, öz ürəyinizə yük etməyiniz və s. Deyilər ki, "aristokratlıq yalnız süd gölündə üzmək deyil". Doğrudan da o qədər zənginlik içində gözü, gönlü açlar var ki. "Ədalət"də haqq-ədalət axtarışında olarkən cəmiyyətdə bunları da gördüm, ömrünü-günün söz, elm, mərifət yolunda fəda edənləri də. Bu fəadalardan biri də şair, publisist, jurnalist, "Ədalət" qəzetinin baş redaktorunun birinci müavini Əbülfət Mədətoğludur.*

*Əbülfət Mədətoğlu da onu zirvədən-zirvəyə aparan haqq sözünün işığında uzun illərdir bir yol gəlir. Bu yol bəzən daşlı, kəsəkli olsa da sonu işıqdır, nurdur, hürriyyətdir, zəfərdir! Zəfər demiş, burada üç il bundan əvvəl olan bir hadisəni danışmaq istərdim. Şuşa mənfur düşməndən azad olunduğu günün səhəri, "bitdi qardaş, səni ağrıdan o ağrı-açı" -deyə Əbülfət müəllimi təbrik etmək üçün "Ədalət" qəzetinin redaksiyasına gəldim. Həmişəki kimi yenə də "o balaca otağında" yazı-pozusu ilə məşğul idi. Amma bu dəfə üzündə-gözündə yorğunluq yox idi. Əksinə çoxdan, lap çoxdan həsrət qaldığı (bəlkə də unutduğu) xoşbəxtlik, bəxtəvərlik süzülürdü, üzündən, gözlərindən, qamətindən. Qaməti də düzəlmişdir. Otuz ilin ağrı-acısını sanki bir gecədə unutmuşdu. Gözləri gülürdü. Mənə elə gəldi ki, qarşımda 1992-ci ildə, ilk dəfə redaksiyanın dəhlizində gördüyüm Əbülfət müəllim dayanıb. Axı bu zəfər ona təkcə Şuşasını qaytarmadı. Bu Böyük Zəfər ona yarımçıq qalan arzularını tamamlamağa, yurd-yuvasını sahmana salmağa yol açdı. Əlini sıxdım, təbrik etdim. O, isə bir-necə dəqiqi danışa bilmədi. Sevincdən qəhər onu boğdu. Gözləri danışdı: "Qərənfil, şükür Tanrıya bu günü görməyi mənə qismət etdi". Əbülfət müəllimlə sağollaşıb otağı tərk edərkən yadıma Vaqif Yusifin bu sözləri düşdü: "O Otaqda Dünyanı görür" Əbülfət müəllim. O, dünyanı ki, bizim haqq səsimizə kar oldu, gör oldu. Böyük Zəfərimizlə o kar qulaqları, gör gözləri açdıq və dünya hərb tarixinə bir Şuşa Zəfərini yazdıq...*

*1959-cu ilin qarlı-boranlı bir qış gecəsində Xocavənd rayonunun Tuğ kəndində Mədət kişinin ailəsində bir oğlan uşağı dünyaya gəldi. Çoxlarından fərqli olaraq ağlı kəsəndən, əli qələm tutandan, sözünü-özünü dərk edəndən xoşbəxtliyini, ağrı-acısını, umu-küsüsünü sözü ilə dedi, sözü ilə eşitdirdi. Və bir gün Əbülfət Mədətoğlu "ədəbiyyat məkanının adamı oldu".*

*Hələ çox çavan idi söz aləminə gələndə. Onu bir gün yurdundan-yuvasından perik salan sovetlər hələ yaşıyırdı. Əbülfət də o sovetlərin kolxozunda işlədi, hərbisində xidmət etdi, mətbuatında çap olundu. "Azərbaycan pioneri"nin, "Azərbaycan gəncləri"nin, "Sovet kəndi"nin səhifələrində imzası göründü. Onda hələ Vaqif müəllimin təbrincə desək "bircə misrasından tanınan şair" deyildi. Onda hələ çoxlu sayda nəsr və şeir kitablarının, saysız hesabsız bədii-publisistik məqalələrin müəllifi deyildi. Şeirləri Türkiyədə, İranda çap olunmamışdır. Onda Əbülfət müəllim nə Əməkdar jurnalist idi, nə də "Qızıl qələm", "Qızıl kəlmə", "Məmməd Araz", "Media Açarı" və s. və i. mükafatlara layiq görülmüşdür.*

*Amma onda "ürəyinə dəli bir sevda girmişdi". Ömrünü-gününü haqq sözünə çulğalamaq. Sözün işığında Tanrısına üz tutaraq ağrı-acılarını, həsrətini, vüsalını, "yaşanmış duyğularını" sözlə ovundurmaq, oxşamaq, sözün yaddaşına köçürüb əbədiyyata qovuşdurmaq.*

*İllər kecdi Əbülfət Mədətoğlu buna nail oldu. İmzası tanındı, sevildi, seçildi. Tək şair kimi yox, həm də bir publisist kimi sözün qüdrətindən istifadə edərək ətrafında baş verənlərə çox aydın və kəskin münasibət bildirdi. Hər vəclə oxucusunu xoş gələcəyə inandırmağa çalışdı.*

*Bəlkə də çoxları mənimlə razılaşmaz, amma mənə elə gəlir ki, Əbülfət müəllimi söz dünyasına bağlayan yaşadığı ağrı-açılar, yarımçıq qalan xoş günləri, arzuları, istəkləri, xəyalında bütövləşən və daşlaşan bəxtəvər uşaqlıq illəri, ata yurdu, Vətən içində vətənsizləşən yurd-yuva, el-oba xiffəti daha nələr, nələr oldu. Şuşasızlıq ömrünün ən acı, ən faciəli illəri oldu. Bax elə buna görə Əbülfət müəllimin həm şeiriyyatından, həm publisistikasından "yurdu yağmalanan, xanimanı dağılan, ev-eşiyi viran qalan, uşaqlığı əlindən alınan, gəncliyi talan edilən yarım milyonluq bir köçün" ağrısı-açısı, tükürpədici fəryadı, sahibsiz yurdların hıçqırtısı, müqəddəs yurdun qulaqları dəlib keçən hayqırtısı eşidilir. İngilis yazarı Corc Eliot da yazırdı ki, "Şairi şair edən iztirab və dərdləridir".*

*...Böyük Türk Dünyasının sevimli şairi Bəxtiyar Vahabzadə Əbülfət Mədətoğlunun yaradıcılığı haqqında yazırdı ki, "Onu oxuyanda varımdan yox oluram, tüstüm təpəmdən çıxır. Köz-köz olur ürəyim". Vaxtilə güllü-gülüstanı xatırladan yurd-yuvasının viranına dözə bilməyən şairin söz dünyası onun məlhəminə çevrilsə də, o dünyada insanı varından yox edən baxışlar, donub yanaqlarda qalan göz yaşları, diri ikən ölüyə çevrilən insanların ərşə çəkilən harayı, fəryadı var. Sabir Rüstəmxanlının təbrincə desək "poeziya güzgüdür və müəllifin bütün ruh aləmini, həyatını, yaşam tərzini nümayiş etdirir".*

*Əbülfət müəllim, otuz il yurd-yuva həsrətilə yandı-yaxıldı, amma ümudini itirmədi. Bu inam yaşatdı onu da, sözünü də. Odur ki, müəllifin hansı bir şeirini, məqaləsini oxusan sözün sirli-sehirli, cazibədar axınına düşərək o ümid çırağının arxasınca gedirsən.*

*Əbülfət Mədətoğlu həyatda olduğu kimi poetik dünyasında da sadədir, səmimidir. Yazı tərzi aydın, ifadə tərzi lakonik olduğu üçün oxucusunun qəlbinə tez yol tapır, ruhuna hopur, ruhu durulur, əqidəsi saflaşır. Odur ki, bu gün Azərbaycanın söz məkanında, musiqi dünyasında özünəməxsus yeri olan bir qələm əhlidir və onun onlarla şeirlərinə musiqilər bəstələnib.*

*Ə.Mədətoğlu "Möcüzə axtaran səyyah" adlı publisistik məqaləsində yazır ki, "bütün söz adamlarının içində özəl mövzular olur. Bu mövzular da, təbii ki, yaşamdan doğulub-törəyir. Yəni nəyi özünün içində görürsənsə və özün nəyin içində olursansa, onu özünə bir köynək yaxın bilirsən". Bax, Əbülfət müəllim də öz içində, ona bir köynək yaxın olan mövzulara daha çox müraciət edir. Özü dediyi kimi, o da bu mövzuların içində doğulub, böyüydüyü üçün sözüilə söz dünyamıza, ruhumuza yol tapa bilir.*

*Müəllifin 2016-cı ildə qələmə aldığı "Təqdimatdan sonrakı təqdimat" başlıqlı məqaləsindəki sonuncu çümlə bu gün Əbülfət müəllimin necə uzqgörən bir qələm, söz əhli olduğuna sübutdur. O, yazır ki, "Biz öldürülmüş torpaqlarımızı çiynimizdə tabut kimi yox, əllərimizin üstündə millətimizə, bütövlüyümüzə qaytarıb qovuşduracağıq!..". Bəli, ürəklə, inamla deyilən bu söz bizə 44-günlük Böyük Zəfərimizin sevinçini yaşatdı və öldürülmüş o torpaqlarımıza zəfərlə qayıdaraq həyat verdik, işğaldan azad etdik.*

*Həmin məqalədə Ə.Mədətoğlu daha bir uzaqgörənlik edərək yazır "Azərbaycan müstəqillik qazananda Arazın o tayından da, bu tayından da sərhəd məftillərini yalın əlləriylə çəkib qoparan millət var, yaşayır". Əbülfət müəllim arzu edirəm Ulu Tantı tezliklə o millətə Bütöv Azərbaycan Zəfərini yaşatsın, Siz də o zəfərə şeirlər həsr edəsiniz.*

*xalqqazeti.az/az/medeniyyet, 11.12.2023*  
*Xalq qəzeti, 19.12.23*



Əbülfət MƏDƏTOĞLU

# FƏSİLLƏRİN KƏSİŞƏN YOLUNDAKI OVQAT

*Yazını yazmağa başlamaq istədiyim an bilgisayar yazarımızla bir balaca yazıya giriş etdik.Yəni günümüzün reallığından danışdıq. Və həmişə olduğu kimi, dilimin altına çöp qoymadan nəyi necə düşünürəmsə elə də dedim. Dediyimin məntiqi nəticəsi də səhərin gözü açılmamış qarşıma bəduğurun çıxması, ovqatımı korlaması və bir də özünü hər kəsdən üstün tutub hər kəsi özünə borclu sayanların ədası oldu. Yəni vurğuladım ki, Allah hamını "Ol!" deyib yaradanda görünür bir az tələskənliyə yol verib. "Ol"un dərəcəsi kimlərinsə payına bir az artıq düşüb və onlar da "ol"duqları zaman üçqat "ol"olublar, adamlıqları fontan vurub. ..Biz də onların "hava"sına dözə-dözə ömrümüzün müəyyən hissəsini bada veririk... Nə isə...*

*Bəli, qış havası artıq duyulmaqdadı. Və bu havanın içərisində bir istilik axtarmaq arzusu nə qədər ürəyimə hakim kəsilsə də, amma qəti əminəm ki, onu tapmaq o qədər də asan olmayacaq. Ona görə ki, mənim istəyimlə gerçək havanın arasında qışdan yaya qədər bir məsafə var. Həmin məsafənin yaxınlaşdırılması, qısaldılması qeyri-mümkündür. Bunu bir dədə sözüylə də təsdiq etmək, vurğulamaq olar.Dədələr söyləyib ki, "xəstə nə qədər tələssə də, armud vaxtında yetişər".*

*İndi mənim istəyimə rəğmən gerçək olan budur ki, qışdı və qışın da şah damarı soyuq şaxtadı, qar-borandı. Ondan qorunmağın yolları yetərincə olsa da, amma onu yaşamağın özü də bir gözəllikdi.Təsəvvür edin ki, heç vaxt unuda bilmədiyim qış gözəlliklərini mənən tutmuş həyət-bacalardan kənd mərkəzinə doğru, məktəbə tərəf gedən qarüstü ləpirlərə qədər ... hər şey insana bir paklıq aşılayıb Və mən də doğulduğum bölgədə, xüsusilə öz kəndimizdə bunu böyük zövqlə yaşamışam. Kənd evlərinin damından göyə millənən tüstüdə ürək sevindirən ümid göyərdirdi. Elə bil ki, qarşıdakı ləpirlər arzulara gedən yol idi . Doğrudur, bunun bir məqamı da var idi. Adətən tənbəl və yaxud səriştəsiz adamlar qış səhərlərini yuxudan oyanıb isti yorğanın altından qalxmağa heç həvəs göstərmirdilər. Amma hansı evdə ki ağsaqqal, ağbirçək varidi, təcrübəli qadınlar evi idarə edirdi, o evlərdə odun sobaları sönmürdü.Axşamdan sobaya qoyulmuş iri palıd kötükləri səhərə qədər evin temperaturunu qaydasında saxlayırdı, həm də sobanı yenidən alışdırmağa ehtiyac olmurdu...*

*Mən bu xatirələrin şirinliyinə uyub biraz Bakıdan uzaqlara getdim. Amma indi yaşadığım Masazırda hərdən göz gəzdirirəm,burada da tək-tək evlərin damından tüstü çıxır. O tustu mənim içimdə közərən odu, qoru sönməyə qoymur. Elə bil ki, bu həyatın dözümə çağırışıdı.*

*Bəli, bax elə bu ovqatın içində mən biranlıq silkələnib yuxudan oyanmış adamlar kimi özümə dönürəm. Və baxıb görürəmki, bu qış günü ürəyimi isidən, içindəki ümid işartısını sönməyə qoymayan həmdə Sənsən! Deməli, Sən həm də mənim ruhumun Tanrısısan. Ona görə də Sənə pıçıldayıram:*

*Dilim-dilim olsun dilim*
*Əzabdı hər ayım,ilim...*
*Yuxuda gördüm ki,gülüm -*
*Sən ruhumunTanrısısan!*

*Yanağıma yaş saldı iz*
*Haqq önündə diz çökdüm, diz!*
*Anlaya bilmədik ki,biz -*
*Sən RuhumunTanrısısan!*

*Kəsə də lap əyri - düzü*
*Hər istəyin iki üzü...*
*Sən olmaz hər qızın yüzü -*
*Sən ruhumunTanrısısan!*

*Baxt özü o baxtdı,bilir*
*Vaxt həmin ovaxtdı, bilir!*
*Allah özü haqqdı,bilir -*
*Sən ruhumun Tanrısısan!..*

***

*İnsan həyatının bütün məqamları mənim düşüncəmə görə, bir zəncir halqası kimi ovqatdan keçir. Yəni hər an fərqli bir ovqata kökləndiyimizdən həyatımız rəngarəng olur.*

*Deməli, bax, bu üzü soyuq torpaq qışda bizi üst qatda üşütsə də, alt qatda qoruyur, hifz eləyir. Mən bunu elə-belə,sözgəlişi yazmıram. Demək istəyirəm ki, hər qatın öz missiyası var. Və insanın iç dünyasındakı qatlar da elə torpağın qatları kimidi. Orda sevincin də,kədərin də, işığın da, qaranlığın da savabla mərdimazarlığın da, ümidlə ümidsizliyin də... öz yerləri var. Sadəcə, o qatlardan hansına biz daha çox üz tuturuqsa, meyl salırıqsa, onlar diqqət mərkəzinə çıxır. Və burda genetik kod da var. Gendən gələn meyllilik daha çox qabarır, daha çox öndə olur. O da öz qabartısıyla, öndə olmasıyla digərlərinin diqqətini çəkir. Beləcə, özümüz də bilmədən həmin o önə çıxmış qatın missiyasını başqalarına yönəldirik. Bax, yazımın önündə söylədiyim mikrobdan tutmuş, bəduğura qədər... sevinc paylayandan xoş aura bəxş edənə qədər burda hər şey özünü ifadə etmiş olur. Mən də yazımın sarı simində elə bunları demək, bunları önə çıxarmaq istəyirəm. Həmin istəyimi indiki anda oxucu ixtiyarına buraxıb yenə yönümü sənə çevirirəm. Çünki səninlə danışanda içimdəki bütün istəklərin işığı artır, ümidi şölələnir. Axı, biz bu dünyada bir-birinə doğru uzanan əllər kimi havada qalmışıq. Və elə bu havadaqalan əllərin pıçıltısı olaraq deyirəm:*

*Sən*
*"get"də*
*israrlı*
*mən isə"qal!"da*
*odur ki,*
*bu israrlı təzadda*
*heç bir halda*
*çin olan deyil -*
*həyatda,*
*nə də ki,*
*xəyalda...*
*bu səbəbdən*
*mən də,*
*elə sən də*
*girinc qalacağıq*
*üstəlik*
*yuxusunu qaçıracağıq*
*hələ də*
*cavabı bilinməyən*
*sualın da?!*

***

*Bəli, hər gün sual, hər gün nida və digər durğu işarələri yaşamın göstəricinə çevrilir bizdən asılı olmadan. Biz bu göstəriciləri cavablaya-cavablaya nöqtəyə doğru gedirik. Bunu sən də bilirsən,mən də, elə hamımız da. Getməyə də bilmərik. Çünki getməmək, yerində durmaqistəyi sadəcə və sadəcə elə istəkdi. O ki qaldı bir gerçəkliyə, yəni bütün istəklərə... onların hamısının nə vaxtsa çin olacağı özü də bir xəyaldı. Axı dünyada heç bir insanın bütün xəyalları, bütün arzuları çin olmayıbdı. .Bilirsiniz niyə? İstəkdən istək doğur axı! Bu gün barışdığın nəticə sabah yasəni qane etmir, ya narazı salır, ya da ondan bir pillə kimi istifadə edibikinci addımı atmağa çalışırsan. Və ...*

*Hə, bu söylədiklərim filosofluq deyil,hamının bildiyi reallıqdı. Sadəcə, mən yazımın ovqatına uyğun olaraq sözgəlişi dilə gətirdim. Axı indi fəsillərin bu kəsişməyə gəlib çatan günündə, çöldə qış havası var. Bu hava da adamı isti guşəyə səsləyir, isti bir sözə, hətta ovqata köklənməyə tərəf itələyir. Nə yazıq ki, belə anın özündə də ikinci bir soyuqluq hardansa təksəbrə çevrilir. Bax, bir az pafoslu, bir az da zarafat donlu bir şəkildə söyləsəm, yetimi onda ağlamaq tutur. Və yaxud da dərd batmanla gəlir...*

*İndi bütün bu yazı boyu söylədiyim fikirlərin qoyacağım nöqtəsinə yaxın bir yerdə dayanıb özümə kənardan baxmaq istəyirəm. Baxıb nə görəcəyimi kim necə təxmin edir etsin, mən isə gördüyümü kimsəyə demədən ürəyimin bir küncünə büküb atıram. Elə bir küncə ki, orda olanlardan ancaq sən xəbərdarsan. Sənin bildiyini isə təbii ki, bir də Allah bilir. Elə o dediyim sonuncu fikrin ipindən tutub bir şeir demək istəyirəm.Demək istəyirəm ki:*

*Mən üzülmü şyarpağam*
*Çeşmədə nov edərsən...*
*Suyu yaxşı süzməsəm-*
*Bir az söz-sov edərsən!..*

*Təki gözün önündə*
*Kirpik ucunda olum...*
*Yolun üstümdən keçsə -*
*Yolunda bitsin yolum...*

*Böyük istəklərim yox,*
*Səni çətinə salsın...*
*Bircə qəlbin ağlımda -*
*Ağlım, qəlbində qalsın!..*

*Bəli, bu payızla qışın kəsişmə nöqtəsinin dəyişkən havasında ovqatınıza bir az işıq qarışıq istilik qatmağa çalışdım.*

*Deyirlərki, varını verən utanmaz. İndi özünüz də dünya görmüş insanlarsınız. Ən azından işığın sizə heç bir zərəri dəyməyəcəyinə mənim kimi siz də əminsiniz. Ona görədə bu havada və bütövlükdə ömrünüzdə ,eləcə də evinizdə , həyatinizdə heç vaxt işığınız sönməsin! - deyirəm.*

Yasif Nəsirli - 85

# İKİ ƏSRİN ZİRVƏSİNDƏ

*Allah üzünü mənə tərəf çevirmişdi.*

*Yasif Nəsirli*

**”Zirvə” adlı dastanın müəllifi zirvədən-zirvəyə qalxaraq minlərlə müxtəlif səviyyəli və xasiyyətli insanların içərisindən, cəmiyyətin yuxarı və aşağı qatından, və burda qərar tutmuş təbəqələrin gözü qar-şısından keçərək, böyük maniə və sədləri inamla aşaraq, gəlib bu yaşa çatmışdır. Bu, zəfər yürüşüdür. Təbii ki, zamanında onun əlindən tutanlar da olmuş, ayağından çəkənlər də. Lakin Yasif Nəsirli səbrlə, Tanrının ona bəxş etdiyi gözəl xasiyyəti, ilahi təbi, tədbirli və təmkinli davranışı, aşıb-daşan istedadı və gənclik coşqunluğu ilə dalbadal qarşısına çıxan bütün sədləri və əngəlləri aşıb keçə bilmişdir. Bu ”marafonda” onun uğuruna çıxan nə qədər nəcib və xeyirxah insanlar olub... Yasif Nəsirli onların heç birini unutmayıb və ”Zirvə” yaddaş toplusunda onları sevə-sevə bir-bir xatırlayıb və ünvanlarına layiq olduqları qədər bol-bol xoş sözlər deyib, dəyərli fikirlər söyləyib. Bu mənada kitab sanki yaxşı adamların sərgisi və xeyirxah xarakterlərin ensiklopediyasıdır. Bunlar Yasif Nəsirlinin bəxtinə tuş gələn, rastına çıxan İlahi qismətidir.**

Təbii ki, müəllif həyata qədəm qoyduğu ilk gündən heç də mələklər arasında, ideal mühitdə yaşa-mayıb. Hər dövrün özünə görə bədxahları da olub, insan sevər xeyirxahları da. Amma etiraf edək ki, müəllifin təsvir etdiyi o dövr indikindən fərqli olaraq daha çox humanist, vicdanlı, halal insanların dövrü idi. O zamanın ruhu qismən ”hamı bir nəfər üçün, bir nəfər hamı üçün” şüarının təsiri altında for-malaşırdı. İndi ”Hamı mənim üçün, mən də özüm üçün!” deyənlərin sayı ilbəil artır. Bazar cəmiyyəti insanın özünü də alqı-satqı predmetinə çevirməkdədir. Biznes marağı insanların insanlığını, adamların adamlığını əlindən alıb onları bioloji varlığa oxşatmaqdadır. Yırtıcıların, haramzadələrin cəmiyyətin qəniminə çevrildiyi belə bir dövrdə ”Zirvə”dəki obrazlar adama xəyal, müəllif təxəyyülünün məhsulu kimi görünür. Amma mən müəllifin müasiri olduğum üçün (o, məndən cəmi 10 yaş böyükdür) deyirəm ki, ”Zirvə” həqiqətən hər cəhətdən öz dövrünün zirvəsinə yüksəlmiş insanların real portretlər qalereyasıdır. Orda nə şişirtmə var, nə də kiçiltmə. Mirzə İbrahimov, Mir Cəlal, Həmid Araslı, Məmməd Arif, Bəxtiyar Vahabzadə, Ağamusa Axundov, Maqsud Əlizadə, Elmira Qafarova, Əfrand Daşdəmirov, Qulu Xəlilov, Vasim Məmmədəliyev... hər biri öz işinə, fəaliyyətinə və xarakterinə görə ümumxalq hörməti qazanmış nüfuzlu şəxsiyyətlərdi.

Taleyin qismətidir ki, müəllifin həyatı, lap uşaqlıqdan yaxşı insanların çevrəsində keçmişdir. Allahın xeyirxah bəndələrinin əhatəsində dünyanı görüb dərk etməyə başlamışdır. Halal zəhmət adamları, ilk növbədə kolxoz və ev işlərinin ağırlığından əziyyət çəkən anası, Çoban Usub, sağ qolunu müharibədə itirmiş Cümşüd müəllim, Soltanlı kolxozunun sədri, əsl ziyalı olan Məhərrəm kişi, onun həyat yoldaşı Leyli xala, kənd məktəbinin direktoru və dil-ədəbiyyat müəllimi İslam İsmayılov, müharibədə ayağı şikəst olmuş tarix müəllimi, məktəb bədii özfəaliyyət dərnəyi, müharibədən sonra ərsəyə gəlmiş şikəst taleli yaşıdları və mühit onun ilk tərbiyəçiləri olmuşdur. Dünyaya göz açdığı mühit düşündürücü və səfərbəredici mühit idi. Yaşadığı məkan və zaman onu Yasif Nəsirli kimi yetişdirir və formalaşdırırdı.

Və ən başlıcası, Yasif cavan olsa da dara düşəndə həmişə, özünün yazdığı kimi, ”Ürəyində Allahı köməyə çağırıb”. Və xoşbəxtlikdən Allah həmişə onu eşitmişdir. Başqa cürə onu uşaqlıqda yolunun üs-tünə çıxan qorxunc gürzə ilanlardan, şəhərdə isə çox hiyləgər ”kabinet ilanlarından” kim xilas edə bi-lərdi?

Bir anlıq Yasif Nəsirlinin həyat yoluna ötəri nəzər salsaq görərik ki, Azərbaycanda ondan əvvəllər də və indi də hələ heç kəs onun imza atdığı uğurlara çata bilməyib. Yeri düşmüşkən deyim ki, cavanlıq-da mən ”Uğur” adlı bir əsər yazmağa təşəbbüs göstərmişdim. Lakin alınmadı. Texniki peşə məktəbinin şagirdi, sonra ixtisaslı fəhlə kimi zavodda çalışan Uğur həyatda mənim özüm kimi heç bir uğur qazana bilmədi. Çünki o da mənim kimi Anasız, Arxasız və Adamsız idi. Heç demə, ən başlıcası, o, anadangəlmə Talesiz və Bəxtsiz imiş. Adı Uğur olsa da, qismətində uğur olmayıb. Mən, nəhayət, 70 yaşımda uğurlu bir insanın həyatı ilə bu kitabda tanış oldum. Zirvələr fəth etmiş bu insanın bütün həyatı əsl uğurnamə dastanıdır!

Onun əmək fəaliyyətinin yüksəliş trayektoriyası xüsusən fantastik və qeyriadidir. 6-7 yaşından Kavdar kəndində Çoban Usubla kolxoz quzularını otarmış və işləyə-işləyə kənd məktəbində təhsilini davam etdirmişdi. Bu vərdişi o, ali məktəbdə də davam etdirmişdi. Tələbə ikən Universitetin elmi jurna-lında və mətbuatda məqalələri çap olunub. Dördüncü kursda ikən üç kitabı çapdan çıxıb. Əyani şöbənin tələbəsi ikən dördüncü kursda onu Komsomolun Mərkəzi Komitəsində təlimatçı vəzifəsinə təyin edirlər. Sonra yeni nəşrə başlayacaq ”Ulduz” ədəbi-bədii və ictimai-siyasi jurnalının ilk baş redaktoru təyin olunur.

Qısa müddətdə jurnala istedadlı gənc yazıçı və şairləri - İsi Məlikzadəni, Sabir Süleymanovu, Abbas Abdullanı, Fərman Kərimzadəni, Əhəd Muxtarı, Sabir Azərini işə cəlb edir. Jurnal 34 səhifə çıxmalı idi. O, risk edərək 64 səhifə buraxmağa nail olur. O dövr üçün bu böyük iradə tələb edirdi.

Bu o vaxt idi ki, oxucuların çox sevdiyi istedadlı şair Məmməd Araz Nəriman Nərimanov haqqında ”Ədəbiyyat qəzeti”ndə redaktor əvəzi kimi məqalə dərc etdiyinə görə Mərkəzi Komitənin qərarı ilə işdən azad olunmuşdu. Yasif yuxarılarla razılaşmadan Məmməd Arazı şöbə müdiri vəzifəsinə təyin etmişdi. Bunun üçün Yasif Nəsirli Yazıçılar İttifaqının Rəyasət heyətində tənqid edilmişdi.

Gənc yazıçı Fərman Kərimzadənin ”Qarlı aşırım” romanını ”Azərbaycan” yurnalı çap etməmişdi. Qlavlit də icazə vermirdi. Yasif həmin romanı yığdırır, nömrəni Qlavlitə göndərəndə onu aradan götürür və eyni həcmdə material qoyur. Jurnal təsdiq olunub qayıdandan sonra, çapa gedəndə romanı qoyur yerinə. Roman çap olunur. İndi tez-tez nümayiş etdirilən eyni adda məşhur film çəkilir.. Belə epizodları çoxlu sayda artırmaq olar. Bu, onun vəzifədən getməsi



ilə nəticələnə bilərdi. 1969-cu ilin iyul ayında Heydər Əliyev onu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə məsul işə aparır və az keçməmiş özünə köməkci təyin edir. 1973-1975-ci illərdə Moskvada SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Ali Məktəbində təhsilini başa vurduqdan sonra Respublika Dövlət Təhlükəsizlik Komitəsində rəhbər işə göndərilir. DTK-nın Kollegiya üzvü olmusdur. Orada təqaüdə çıxdıqdan sonra Mərkəzi Komitədə İnzibati Orqanlar şöbəsinin müdiri təyin edilmişdir. Mərkəzi Komitənin üzvü seçilmişdir. Qarabağ Təşkilat Komitəsinə birinci müavin təyin edilmişdir. Həmçinin Zaqafqaziya Hərbi Şurasının üzvü idi. General-mayor rütbəsinə layiq görülmüsdür. Azərbaycan Respublikası Ali Sovetinin (Milli Məclis) deputatı olmuşdur.

Respublika Prezidenti yanında Ali İnspeksiya sədrinin müavini, Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyəti sədrinin birinci müavini, eyni vaxtda ”Novruz” qəzetinin baş redaktoru işləmişdir.

2007-ci ildən Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin (Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə) prezidentidir.

Əlbəttə, bunlar hələ hamısı deyil. Yasif Nəsirlinin vəzifə karyerasını sadalamaq onun tərcümeyi-ha-lının təxminən 40-50 faizini əhatə etmək deməkdir. Onun ədəbi, elmi, ictimai-siyasi karyerası bu mü-hitdə gördüyü işlərə uyğun olaraq olduqca peşəkar mahiyyət daşıyır. Altmış ildən çoxdur ki, İlahi bir istək onu qələmə bağlayıb, yazı-pozu bu bəxtli insanın həyatının ayrılmaz bir hissəsinə çevrilib. ”Zirvə”dən sonra mən onun qələmindən çıxan əsərlərin hamısını tapıb oxumaq istərdim. Xüsusilə müəllifin ”İnsanlar, görüşlər”, ”Ömür”, ”Dünya”, ”Zaman” adlı kitablarının soraǧındayam.

Az qala dünyanın şimaldan cənuba, şərqdən qərbə, əksər ölkələrində olmuş bu qüdrətli insanın əməksevərliyi, özünü məqsədyönlü təşkiletmə bacarığı, təvazökar xarakteri, ətrafındakılara müdrik yanaşma taktikası və ”Zirvə” avtobioqrafik romanı çərçivəsində sezdiklərim məni heyran edir. Bu kitabdan mən nə qədər zənginləşdim, bunu yalnız özüm bilirəm. 640 səhifəlik kitabın vərəqlərində ağ yerləri mənim qeydlərim doldurub. Mən kitabı oxuduqca müəllifi xəyalımda gah ”Əlçatmaz zirvələrin fatehi”, gah ”Qüdrətli Qismət Sahibi”, gah ”Bəxtli Bəxtəvər” və s. bu kimi obrazlarda canlandırmışam. Kitabın səhifələrinə səpələnmiş qeydlərimdə mən ”Zirvə”ni ”Məmurnamə” adlandırmışam. Müəllif 1958-ci ildən başlayaraq 2018-ci ilədək ötən 60 il ərzində müşahidə etdiyi məmur-ziyalı münasibətləri haqda təəs-sürat və xatirələrini topladığı bu kitabında ilk dəfə eşitdiyim olduqca qəribə və heyrətamiz faktlar, hadisələrlə rastlaşmışam.

Fikirləşirəm ki, bu kitabı ”Azərbaycan məmurlarının sərgisi” də adlandırmaq olar. Təsəvvürümdə yaxşıları muzeydə, alçaqları heyvanxanada nümayiş etdirilən bir sərgi canlanır. Əsasən mənəvi-mədəni yüksəkliyə qalxanlarımızın portretini müasir oxuculara təqdim edən bu əsər, məncə, siyasi memuar ədəbiyyatımızda zirvə mərtəbəsində durmağa layiqdir.

İki əsrin zirvəsində qərar tutan Yasif Nəsirli dövrünün ən məlumatlı adamıdır. Onun təhsil aldığı ünvanların sayı və sanbalı - habelə çalışdığı mötəbər ”komitələr” tutduğu yüksək mövqe və mənsəb postları, iş prosesində əməkdaşlıq etdiyi və ünsiyyət saxladığı insanların səviyyə və səlahiyyət dərəcəsi belə deməyə tam əsas verir. Bu səbəbdən Y.Nəsirlinin Azərbaycan memuar ədəbiyyatına töhvəsi elmi, tarixi və faktoloji cəhətdən çox qiymətlidir. Amma mənə elə gəlir ki, Y.Nəsirli əhatəsində olanlar haqda kifayət qədər dəyərli rəylər və xatirələr söyləsə də, bilavasitə elmi-ədəbi mühitdə, mətbuat aləmində inzibati idarəetmə kürsüsündə özünün fəaliyyəti, gündəlik taktiki ”diplomatik” islərlə bağlı təcrübəsi barədə sistemli bir xatirə əsərinə böyük ehtiyac var. M.S.Ordubadi ”Mənim həyatım və mühitim” adlı əsəri ilə bu janra çox qiymətli bir töhvə vermişdir. O da çox məlumatlı və hərtərəfli, intellektual hazırlığa malik bir şəxsiyyət olmuşdur. Çoxları, o cümlədən mən səmimi bir ovqatla yazılmış xatirə əsərlərini çox sevirəm. Bizim xalqın buna çox böyük ehtiyacı var. Arzu edirəm ki, Allah daim öz nəzərində saxladığı Yasif müəllimə bir daha öz lütfünü əsirgəməsin, onun sağlam ömrünü o qədər uzatsın ki, o, öz zəngin yaddaşını doğma xalqı ilə bölüşməyə bir daha imkan tapsın.

Müdrikləri dinləmək və oxumaq adama ləzzət verir. Mən ”Zirvə”ni oxuduqca bu ləzzəti təkrar-təkrar duymuşam. Ürəyimdən bir arzu keçib ki, kaş bizim real həyatımız da Y.Nəsirlinin təsvir etdiyi müsbət qəhrəmanlardan ibarət olardı: sadə, xeyirxah və alicənab. Yaxşı ki, Yasif Nəsirli o adamların parlaq bir nümunəsi kimi bizim aramızdadır.

”Cəlil Məmmədquluzadənin ilk əsərlərində sənətkarlıq” və ”Azərbaycan şeirinin inkişafı” mövzularında yazdığı namizədlik və doktorluq dissertasiyaları, çap etdirdiyi monoqrafiyalar ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Sonrakı illərdə ”Ömür”, ”Dünya”, ”Zaman” adlı üççildliyi, ”Günəşlə görüş”, ”Mənalı ömür”, ”Təyyarə Havanaya uçur”, ”Çinar vüqarı”, ”Görə bilmədin”, ”Qayıdacağam” (rus dilində), ”İnsanlar, görüşlər”, ”Adsız təpə” və başqa kitabları çap olunmuşdur.

”Liftdə hadisə”, ”Təyyarə geri dönür”, ”Qan qardaşları” və bir neçə pyesləri dəfələrlə Azərbaycan Dövlət Televiziyası vasitəsi ilə göstərilmişdir.

Azərbaycan Milli Dram Teatrında tamaşaya qoyulmuş Mir Cəlal Paşayevin ”Dirilən adam” romanınını şərikli səhnələşdirmişdir.

Tərcüməçi kimi də oxuculara tanışdır. Georgi Markovun ”Sibir” (iki kitab) romanını, A.Dıqanskinin ”Filosov və paltaryuyan qız” povestini, ”Polşa hekayələri” kitabını,Mariya Mayerovanın ”Dünyaların ən yaxşısı” romanını, Ş.Ələddinin ”Mərmər pillələr” povestini dilimizə çevirmişdir. Bunların hər biri ayrıca kitab kimi çap edilmişdir. Bundan başqa çoxlu sayda xarici ölkə yazıçılarının əsərləri qəzet və jurnallarda onun tərcüməsində işıq üzü görmüşdür.

Azərbaycan yazıçılarının axırıncı iki qurultayında hərbi-vətənpərvərlik komissiyası sədrinin müavini seçilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Əməkdar İncəsənət xadimi fəxri adına layiq görülmüşdür.

**Əməkdar Elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov avtobioqrafik ro-manın özünə layiq çox gözəl bir ”Ön söz” yazıb. Amma Yasif Nəsirli haqda ən gözəl yazını, məncə, Tanrı özü yazıb. Bu zirvəni Tanrı öz qüdrətindən yaradıb və onu bəd nəzərdən hifz edib və bu günə gətirib çatdırıb. Allah bu xoşbəxt bəndəsinə taxt-tac da verib, bəxt də verib, ömür də. Bizə o qalır ki, deyək: - Allah sevəni sən də sev!**

**Qalib QADİR**
**Sumqayıt şəhəri**
**14 avqust 2019-cu il**

Nurəngiz Gün - 85

# POEZİYAMIZIN AĞ ÇİÇƏYİ



VAQİF YUSİFLİ

**Nurəngiz Günü ilk dəfə televiziyada, aparıcı kimi görmüş və sevmişəm. Bu sevgi onun son dərəcə məlahətli səsinə heyranlıqdan doğmuşdu. Sonra onun bir sıra verilişlərdə oxuduğu şeirlər mənim heyranlığımı daha da artırdı, o, sanki şeir oxumurdu, oxuduğu şeiri özü yazırdı. Azərbaycan tamaşaçılarının televiziyada onun səsinə heyran qalmışdılar. On beş il televiziyada diktor kimi çalışdı, və beş il də İncəsənət Universitetində nitq mədəniyyəti kafedrasında müəllim kimi fəaliyyət göstərdi.**

43 yaşında ədəbiyyata gəldi. 1981-ci il-”Ulduz” jurnalının aprel nömrəsində ”Tanrı bəşər övladıdır” adlı povesti oxuculara təqdim edildi. Və bu povest çoxları üçün gözlənilməz hadisəyə çevrildi. Təbii ki, yaşın burada heç bir önəmi yox idi. Çünki bu povest ”mən yazıçı olmaq istəyirəm” havasına yazılmamışdı. O əsərdə bir qadının ömür yolu,həyatının dramatik-faciəli anları təsvir edilirdi, burada nəsrə məxsus bütün elementlərə riayət edilmişdi. Az sonra povest kitab halında da nəşr olundu və hamıdan qabaq Xalq yazıçısı Mirzə İbrahimov ”Ədəbiyyat və incəsənət” qəzetində bu əsər barədə öz sözünü dedi:. Povesti oxuyanda çox zaman adama elə gəlir ki, müəlliflə üz-üzə oturub söhbət edirsən. Sanki o, həyatda, insanlararasında gördüklərini, eşitdiklərini, şəxsən yaşadıqlarını sənə nəql edir, hətta ürəyini boşaldıro. Yaz, qızım Nurəngiz, yeni uğurlar sənə”.

Əlbəttə, böyük Xalq yazıçısının bu xeyir-duasından sonra Nurəngiz xanım gərək qələmə sarılıb yeni-yeni povestlər, romanlar yazaydı.Amma o, ədəbiyyata nəsrlə gəlsə də, nasir kimi yox, ŞAİR kimi tanındı və sevildi. Çünki onun povesti lirik-psixologi üslubda qələmə alınmışdı və həm qəhrəmanın öz daxili dünyası, həm də müəllifin təhkiyəsində, obrazların qarşılıqlı münasibətlərində bir şeiriyyət havası vardı.

Az əonra Nurənciz Günün ”Ağ qanadlar” şeirlər kitabı ( ”Yazıçı”, 1986) çap olundu. Bu şeirlər kitabı yeni bir poetik istedadın ədəbiyyata gəlişiydi. Adətən, özü də əksər hallarda, hər hansı şairin ilk şeirlər kitabı ədəbi aləmdə o qədər də ciddi bir reaksiya doğurmur. Elə Nurəngiz xanımın ”Ağ qanadlar” şeirlər kitabı da sükutla qarşılandı. Amma bu şeirlər kitabı ədəbi tənqidin sükutu ilə qarşılansa da, əslində, ”Ağ qanadlar” şeirimizə böyük uçuşa hazırlaşan bir şairin start vəziyyətindəki hazırlığını aşkara çıxardı. Mən Nurəngiz xanımın bu ilk şeirlər kitabı ilə sonuncu şeirlər kitabları arasında təbii poetik inkişafı görürəm, amma sizi inandırım ki, ”Ağ qanadlar”da toplanan şeirlərdə şairənin bütün poeziyasına xas olan bir sıra keyfiyyətlər diqqəti cəlb edir. Deyim tərzindəki sərbəstlik, həyat hadisələrini daha dərin və mürəkkəb şəkildə anlamağa çalışmaq və bunun üçün assosiasiyalara meyl, fikir və hiss vəhdətindən doğan obrazlı ifadə tərzi, bədii təsvir vasitələrindəki orijinallıq onun sonrakı şeir kitablarında da öz əksinqi tapdı. İlk növbədə onu qeyd edim ki, Nurəngiz Gün müasir şeirimizdə məzmun zənginliyi ilə diqqəti cəlb etdi. Şair hər şeydən yaza bilərmi? -bu suala Nurəngiz Günün şeirlərində cavab tapsaq, deyə bilərik ki, yalnız könüldən keçən, ürəyi titrədən, həyəcanlandıran nə varsa, şeirin məzmununda öz əksini tapacaq. Yəni həyat hardadırsa, poeziya da ordadır. Nurəngiz Gün üçün gördüyü, müşahidə etdiyi və yaşadığı həyat bütün mürəkkəbliyi və ziddiyyətləri ilə şeirlərində öz ifadəsini tapırdı, həm də poetikliyit ilə. Demək istədiyim budur ki, Nurəngiz Gün şeir aləminə hazırlıqlı gəlmişdi. Şair üçün mütaliə, dünya və milli ədəbiyyatımızdan bol-bol faydalanmaq başlıca amillərdən biridir.Nurəngiz Gün ilk əsərini yazana qədər bu yolu artıq keçmişdi. Amma onun poeziyasında hansı şairinsə təsiri yoxdur, amma bizim milli poeziya örnəklərindən bəhrələnmək, böyük türk şairi Nazim Hikməti bitr ustad kimi sevmək və ondan öyrənmək dərslərini keçib.

Bu yazının adını niyə ”Poeziyamızın ağ çiçəyi” adlandırdım. Bunun iki mənası var. Birincisi: Nurəngiz Gün bir şeirində yazırdı:

***Ən çox sevdiyim ağ çiçəklərdi,***
***Mənim o ağ çiçəklərim.***
***Tükənib o ağ çiçəklərim,***
***payızda da tükənirlər,***
***yazda da,***
***yayda da,***
***Çünki qırğındadılar,***
***qırılıb, dərilib, axırda qara torpaq olurlar.***
***Mənim o ağ çiçəklərim***
***qara torpaqdılar indi.***
***Bir söz deyirəm,***
***”Məni bağışlayın, ağ çiçəklərim.***
***Sizi qoruya bilmədim, bilmirəm, bilməyəcəm”***

Bizim poeziyanın zərifləri içərisində eləsi tapılmaz ki, güllərə, çiçəklərə şeir həsr etməsin, o güllərə və çiçəklərə öz ürək lərindən sevgilər bəsləməsin. Bu sevgiləri mən daha çox üç şairimizdə-Mirvarid Dilbazidə, Mədinə Gülgündə və Nigar Rəfibəylidə müşahidə etmişəm. Nigar xanımın ”Nərgiz gülü”, ”Yasəmən”, ”Lalə”, ”Çiəklər”, ”Qərənfillər”, ”Hollandiya çiçəkləri” şeirləri ilə Nurəngiz Günün ağ çiçəkləri təkcə təbiətə -onun gözəlliklərinə məftuniyyət hisslərini ifadə eləmir, həm də çiçəklərinin ömrünün belə tez bitməsinə bir hüzn var. Nigar xanım hər gecə yuxuda qərənfillər görür, ”elə bil iki damla qan sızır ürəyimin yarasından”, ”solanda narın çiçəklər Gözüm yaşla dolmasınmı”deyirdi. Nurəngiz Gün də çiçəkləri sevir, ağ çiçəklər onun şeirlərində ürəyinin gizlinlərində yatıb qalan sirlərin üzə çıxmasıdı.



”Tükənib ağ çiçəklərim, əldə qalan budaq oldu, çaşdı əsən ruzgarlarda qopub varaq-varaq oldu.

Gözlərim gölə çevrildi, vüsal məndən uzaq oldu, Nə gəldi qüssədən gəldi, məni üzən fəraq” oldu” deyir. Fikrimcə, Nurəngiz Günün poeziyası bu AĞ ÇİÇƏKLƏR poetik obrazı ilə sıx bağlıdır. O, bu ağ çiçəklərin dünyasından Dünyaya baxır, cəmiyyətə, təbiətə, insanlar aləminə, yaşadığı Vətənə boylanır.

Nurəngiz Günün bütün şeir və poemaları onun 2019-cu ildə çap olunmuş ”Seçilmiş əsərləri”nin I cildində toplanıb. İlk şeiri 1979-cu ildə qələmə alınıb-”Salam çörəyə, gülə, günəşə”. Onun poeziyası həm mövzusu, həm də sənətkarlıq baxımından rəngarəngdir, çoxçeşidlidir. Bitr-birini təkrar edən şeirlər yoxdu bu sırada. Hətta mövzuca yaxın olan şeirlərin də hər biri digərindən asılı deyil, müstəqil şeirdir.

Əlbəttə, mən bu şeirləri mövzular üzrə qruplaşdırmaq, hansı şeiri isə xüsusi fərqləndirmək kimi artıq şablona çevrilmiş bir üsuldan yayınıram. Mən onun poetik düşüncə tərzinin özünəməxsusluğunu nəzərə çarpdırmaq istəyirəm. Əgər bu düşüncə tərzi şeirin gözəlliyini təmin edən bədii sənətkarlıqla süslənibsə, o şeir həm də sənin olur. Şairdən sənə qədər bir meridian xətti çəkilir,sən şairi dəçrk edirsən, ona inanırsan. Məsələn, Nurəngiz Günün ayrıca ”Vətən” və ”Vətən, məslək, düşüncələr” adlı şeirləri var və bu şeirlərdə o dövrün vətən şeirlərində nəzərə çarpan şablon ifadələr yoxdur, gözəl şeirlərdir.Amma ”Torpaq yuxularım” şeiri Vətən haqqında onun ənq gözəl, ən səmimi şeiridir deyirəm.

***Bu torpağın üstündən Araz adlı bir çay axar-***
***Qubar dolu suyundan hönkürüb şərbət içmişəm.***
***Kənarında dəmir çəpər var!***
***Bu çəpərin küncündə***
***ölmək üçün***
***üç arşın yer seçmişəm.***
***Bu çəpərin küncündə atamın ləpirləri!***
***Bu çəpərin küncündə anamın həsrət əlləri!***
***Bu torpaqda nələr tapdım,***
***nələri itirdim.***
***Bu torpağın üstündə bir qoşa məzar var***
***Bürünüb göz yaşına,***

Nurəngiz Günün şeirlərində bir çox simvolik obrazlar var ki, hətta deyərdim ki, bu obrazlarsız onun poeziyasını tam dərk etmək mümkün olmazdı.

***Ulu nənəm, Gün xanım hey!***
***Bu torpağbın öncə Günəşi doğub,***
***Bu torpaq sarı tellərdən yoğrulub,***
***Gün xanım, Günəş xanım!***
***Andım, Tanrım, imanım!***

Gün-Günəşin qısa formasıdıfr. Azərbaycan şeirində Günlər çoxdur. Məhsəti, Natəvan, Heyran xanım, Fatma xanım Kəminə, Umugülsüm, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Mədinə Gülgün,... Bunların poeziyada saçdıqları işığın ömrü əbədiyyət qədər olacaq. Nurəngiz Gün də bu sönməyən Günlərin sırasındadır. Söhbətimi ona gətirirəm ki, Gün təxəllüsü əbəs seçilməyb, bu Nurəngiz Günün Günəşə sitayişi ilə bağlıdır. ”Günəşin elçisi” adlı esse-monoqrafiyanın müəllifi -Nurəngiz Gün poeziyasının pərəstişkarı Elçin İsgəndərzadə bu bağlılığı geniş izah edib.

Nurəngiz Günün şeirlərinin çoxdan çoxu sərbəst şeirlərdir və o, böyük şairimiz Rəsul Rzanın XX əsr Azərbaycan şeirində tamamladığı -Yola çevirdiyi sərbəsi şeir keçən əsrin ikinci yarısında özünün istedadlı ifaçılarını tapdı. Onların biri də Nurəngiz Gün idi. Təfərrüata varmıram, yalnız onun ”Qəfəs bülbülü” şeirindən bir parçanı misal gətirirəm. Şeirdə şair bir bülbülü mahir ovçunun şikarından xilas etməsi və sonra da onu qəfəsdən azad edib uçurmasından söz açılır:

***Üç, uç!***
***Aldım bu qəfəsi,***
***açdım bu qəfəsi,***
***Açdım və buraxdım səni.***
***Uç, uç!***
***Geniş ormanlar yaxşıdır.***
***Baxma ki, pələngi, aslanı var.***
***Və əgər,***
***İşdi-şayəd,***
***pulum daha çox olarsa,***
***onda açıb buraxacam***
***dünyadakı***
***bütün***
***haqsız qəfəs düçarlarını!***

Bir qəfəs bülbülünü azadlığa buraxan Nurəngiz Günün özü də Azadlıq aşiqi idi. Təkcə şeirlərində deyil, ”Salamat qal, Ağca yol”, ”Əsrin son yuxusu”, ”Xocalı simfoniyası”, ”Quzey Kibris ruzgarları”, Nazim Hikmətə həsr etdiyi ”Qar romanı” poemalarında Azadlıq sevdalısı idi.

**Mən Nurəngiz xanımın 85 illiyinə həsr etdiyim bu yazıda onun yaradıcılığı ilə bağlı çox məsələlərdən sizi hali etmədim. Onun şeirlərindən öncə özünün şeir dediyi zaman sanki ilahidən gələn Səsindən söz açmadım. Onun şeirlərindəki təravətli və orijinal təşbih, epitet və metaforaları incələmədim. N.Günün şeirlərində ayrı-ayrı poetik obrazlar, şeir dilindəki səlislik, poetik leksikonunun zənginliyi haqqında da söz deməliydim. Qalsın sonraya deyirəm, çünki poeziyamızın bu hünərvər şairəsinin ədəbi irsi zəngindir.**

# DÜNYANI İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏTLƏR İDARƏ EDƏCƏK

**Bu gün dünyada çox böyük iqtisadi proseslər, qarşıdurmalar və gərgin anlar yaşanır. Bu da ona görə baş verir ki, hər bir ölkə iqtisadiyyatını gücləndirməyə və eyni zamanda dünya iqtisadiyyatına inteqrasiya olunmağa cəhd göstərir. Heç şübhəsiz ki, gələcəkdə dünyanı o ölkələr idarə edəcək ki, onun güclü iqtisadiyyatı olacaq. Ən azından ona görə ki, güclü iqtisadiyyat güclü dövlət deməkdir.**

Elə bu günün özündə də dünya siyasətini müəyyənləşdirən və hegemonluq edən iqtisadi cəhətdən güclü olan dövlətlərdir. O dövlətlər ki, onların iqtisadiyyatı güclü olduğu kimi, hərbi sənaye kompleksi də çox möhtəşəmdir. Təbii ki, dövlətin büdcəsi çox olanda həmin büdcədən istənilən sahəyə istənilən qədər vəsait ayrılır. Bunu heç də asanlıqla əldə etmək mümkün deyildir. Xüsusən də yenicə inkişaf edən ölkələrin iqtisadiyyatının əsaslı surətdə qurulması üçün çox böyük layihələr həyata keçirilməli, islahatlar aparılmalı, ağır və yüngül sənaye sahələri inkişaf etdirilməlidir. Əgər bir ölkənin ağır və yüngül sənayesi inkişaf etməyibsə, yaxud da zəifdirsə, heç şübhəsiz həmin məmləkət dünya iqtisadiyyatına inteqrasiya olunmaqda bir çox çətinliklərlə üzləşəcək. Bunun üçün isə ilk növbədə bayaq dediyimiz kimi, hər bir ölkənin iqtisadi inkişafı dayanaqlı xətlə yüksəlməli və bu sahədə dünya standartlarına cavab verən islahatlar aparılmalıdır.

Birmənalı olaraq deyə bilərik ki, Azərbaycan da bu gün Avropa və dünya iqtisadiyyatında öz yeri görünən bir ölkədir. Buna da heç də asanlıqla nail olunmayıb. Ən azından ona görə ki, ölkəmiz müstəqillik dövrünə qədəm qoyandan sonra özünün azad və suveren iqtisadiyyatını qurmağa başlayıb. Ölkəmizin demək olar ki, yeraltı və yerüstü sərvətlərlə zənginliyi onun inkişafına və iqtisadiyyatının tərəqqisinə çox böyük təkan verir. Belə ki, məmləkətimiz başqa ölkələrdən, eləcə də keçmiş SSRİ-dən asılı olarkən heç vaxt müstəqil iqtisadi siyasət həyata keçirə bilməyib. Yəni onun var-dövləti digər ölkənin nəzarətində olub və onların razılığı əsasında hansısa bir iqtisadi addımlar atmaq , beynəlxalq müqavilələr imzalamaq mümkün idi. Amma Azərbaycan öz müstəqilliyini qazanandan sonra siyasi sahədə olduğu kimi, iqtisadi sahədə də müstəqil mövqe tutdu. Başqa sözlə demiş olsaq, ölkəmizin var-dövləti, sərvəti, bütün qiymətli nəyi vardısa hamısı özünə məxsus oldu. Əlbəttə, keçmiş SSRİ respublikaları içərisində iki ölkənin müstəqil dövlət olduqdan sonra böyük inkişaf yoluna qədəm qoyacağına SSRİ dövründə bir çox tanınmış siyasətçilər və iqtisadçılar proqnozlar vermişdilər. Həmin proqnozlara əsasən Ukrayna və Azərbaycan müstəqil dövlət olandan sonra çox böyük inkişaf yolu keçməli idi.



Zaman gəldi və həmin proqnozlar özünü təsdiq etməyə başladı. İlk növbədə Azərbaycana dünyanın ən iri və böyük dövlətləri böyük maraq göstərdilər. ABŞ, İngiltərə, Fransa, Türkiyə , Macarıstan, Bolqarıstan, Rusiya, İtaliya və eləcə də digər çoxlu saydı inkişaf etmiş ölkələr Azərbaycanla iqtisadi əlaqələr qurmağa çalışdılar. Onlar görürdülər ki, Azərbaycana qoyacaqları sərmayələr çox yox, uzaqbaşı iki-üç ildən sonra gəlir gətirəcək. Buna görə də adını çəkdiyimiz ölkələrin çoxlu sayda şirkətləri Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrinə sərmayələr qoydular. İstər neft, istər qaz və istərsə də digər faydalı qazıntılardan əldə edilən məhsullar böyük dövlətlərin marağında oldu. Və bu məqsədlə Azərbaycanla həmin dövlətlər arasında müqavilələr imzalandı. Təkcə bir faktı deyək ki, "Əsrin müqaviləsi"nin, yəni Bakı-Ceyhan kəmərinin işə düşməsi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu yüksəltdi və onun gəlirlərini artırdı. Dünyaca məşhur olan İngiltərənin BP şirkəti bütün beynəlxalq aləmə sübut etdi ki, Azərbaycanda hər hansı bir sahəyə qoyulmuş sərmayə bir neçə ildən sonra maya dəyərini çıxarmaqla böyük izafi dəyər də qazandırır. Heç şübhəsiz, BP şirkətinin neft və qaz sahəsindəki Azərbaycana yatırdığı sərmayələr istər-istəməz böyük gəlirlərin və sərvətin əldə edilməsinə münbit şərait yaratdı. Bundan sonra dünyanın digər ölkələrinin, xüsusən də İtaliyanın, Bolqarıstanın, Rusiyanın Azərbaycana maraqları birə-beş artdı.



Ulu Öndər Heydər Əliyev dünyaya sübut etdi ki, Azərbaycan balaca ölkə olmasına baxmayaraq, dünya iqtisadiyyatına inteqrasiya olunmağı bacardı və Avropanı neft-qazla təmin etdi. Avropa da gördü ki, Azərbaycan heç də Cənubi Qafqazda zəif dövlət deyil, Ermənistan və Gürcüstandan iqtisadiyyatı qat-qat güclü olan və Avropaya arxa duran, iqtisadi cəhətdən qüdrətli və güclü dövlətdir. Əlbəttə, ölkəmizin gündən-günə iqtisadi göstəricilərin artması və dünya iqtisadiyyatına töhfələr verməsi onu deməyə əsas verirdi ki, bu ölkəyə istənilən qədən sərmayə qoymaq olar və bunun da xeyirini görmək mümkündür.

Ölkəmiz gündən-günə iqtisadi cəhətdən gücləndi. İqtisadiyyatımızın güclənməsində qardaş Türkiyənin cümhurbaşkanı Rəcəb Tayyib Ərdoğanın çox böyük köməyi və xidmətləri oldu. Çünki Türkiyə şirkətləri bir qardaş olaraq bizə iqtisadiyyatın bütün sahələrində yardım və köməklik göstərdi. Onların köməkliyi nəticəsində Azərbaycan dünya iqtisadiyyatına daha sürətlə inteqrasiya olundu. Ölkəmizin qeyri-neft sektoru sahəsinə yeni sərmayələr yatırıldı və o da öz bəhrəsini verdi. Belə ki, Azərbaycan prezidenti cənab İlham Əliyev Azərbaycana marağı olan bütün ölkələrə məmləkətimizdə münbit şərait yaratdı və onların şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsinə böyük köməklik göstərdi. Təbii ki, xarici şirkətlərin Azərbaycana olan marağı digər sahələrə də sirayət etdi. Onlar Azərbaycanda yeni fabrik və zavodların açılmasına və məhsul istehsal etməsinə maraq göstərdilər. Bu gün demək olar ki, Azərbaycan özü dünya iqtisadiyyatına çox böyük töhfə verir və çox sayda məhsul istehsal edərək dünya bazarına çıxarır. Deməli, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası hər gün sürətlə davam edir.

**Faiq QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# BƏXT

**(Nağıl-hekayə)**




*Mustafa Çəmənli*


***İbrətli söhbətlərindən əxz etdiyim bu nağıl-hekayəni xeyir-şər məclislərimizin ağsaqqalı Arif müəllimə ithaf edirəm.***

Biri vardı, biri yoxdu, bu işıqlı, bu narahat dünyada ucaboylu, enlikürəkli, çatmaqaşlı, lopabığlı bir kişi vardı. Amma bu yarlı-yaraşıqlı kişinin heç bəxti yoxdu. Elə bil Allahın qəzəbinə gəlmişdi. Bir yandan da arvadı onu tıncıxdırırdı. Onun səsi gələndə başını götürüb qaçmaq istəyirdi. Əslində arvad qaragünlüdə elə bir günah yoxdu, o da insan balası kimi geyinib-kecinmək, dünyanı gəzib-dolanmaq, adam içinə çıxmaq istəyirdi. Amma hər şeyin bir təhri var də... Zalımın qızı axşam-səhər baş-beynini aparırdı: "Sənə ərə gəldiyim günə qara bir daş düşəydi, - deyirdi. - Yarımadım səndən ey, yarımadım. Odur ey, xalxın kişiləri qaz vurub, qazan doldurur, gətir-götürdü, sən isə əyninə geyinməyə şalvar tapmırsan, ay bədbəxt. Yüz yerdən istəyirdilər, dirsək göstərdim, getmədim, sənin kimi əfələ, fərsizə ərə gəldim, oldum qarabəxt".

Son söz kişini odladı. İstədi, desin yalançının... Demədi, qorxdu mərəkə qopa, qohum-qonşu harayçılıq bəhanəsilə yığışıb gələ tamaşaya. Kişi birtəhər özünü ələ aldı.

Bəxtsiz kişi hər dəfə arvadının belə ucu güləbətinli sözlərini eşidəndə yalquzaq təki ulamaq istəyirdi. Bilmirdi, neynəsin, bu yezid, şümür qızını boşasın, necə boşasın, boşamasın, onunla neçə yaşasın?! Əgər arvadı boşasa, bu bir çətən külfəti bəs neyləsin?

Kişi gözəgörünməz fikir dəryasında balaca qayığını ha dolandırırdı, sahilə çıxa bilmirdi, vahimələnirdi. Belə aciz-avara çağlarında gücü ancaq gözəgörünməz, ölçüyə-çəkiyə gəlməz bəxtinə söyməyə çatırdı: "Görüm səni qara gələsən, ay belə iqbal, ay belə tale! Bu işıqlı dünyada bir ağ gün görmədim. Ay Allah, sənə qurban olum, bu nə bəxtdi, veribsən mənə?! Adam var iki eşşəyin arpasını bölə bilmir, amma ona bir bəxt-tale ver-misən, bir qapı açmısan - behişt onun yanında yalandı. Var-dövlət başından tökülür. Mən yetim, bədbəxt ha çabalayıram, ha çarpışıram bir tərəfə çıxa bilmirəm. Nə deyim, tüpürüm mənim bəxtimə.

Kişi axşamın alatoranında, arvadının növbəti qara-qışqırığından sonra o qədər söyüb-söyləndi ki, bəxti dözməyib bir göz qırpımında ruh bədəni tərk eləyən sayaq onu tərk etdi. Kişi taqətsiz halda darvazanın ağzındakı yastı daşın üstünə oturdu: "Bu nə olacaqdı başıma gəldi, bəxtim küsüb getdi".

Kişi bir gün gözlədi, iki gün gözlədi, üç gün gözlədi... yeddinci gün dözmədi, heybəsini götürüb atdı çiyninə, üzünü arvadına tutub: - Gedirəm bəxtimin dalınca, bəxtim məndən küsüb, - dedi.

Arvadı bu dəfə insafa gəlib ərinin üzünə ədəb-ərkanla gülümsədi:

- A kişi, bəxtini harda axtaracaqsan? Bəxt adam ha deyil küsüb gedə...

- Bəxt adamdan da böyükdü, arvad. Bəxtim məndən küsüb, küsüb getməsəydi, belə yolçu gününə qalmazdım. Di salamat qalın, mən getdim.

Arvad ərinin dalınca bir dolça su atıb qayıdıb girdi evə. Dedi: Kişi bəxtinin dalınca getdi, mən də başımı atım yastığa, bir doyunca yatım.

***

Kişi Allaha pənah deyib, düşmüşdü yolun ağına, amma heç özü də bilmirdi hara getsin, bəxtini harada axtarsın. Buna baxmayaraq ürəyində: - Hardasan, ay mənim bəxtim, hardasan? - səsləyə-səsləyə gedirdi.

Yolda qabağına əlsiz-ayaqsızlar, cındırından cin ürkənlər çıxırdı, öz-özünə şükür eləyirdi ki, nə yaxşı hələ bunların gününə düşməyib. Gözlərindən kədər yağan yoxsul uşaqları, dilənçi qarıları, ovurdu-ovurduna yapışmış, dərdli-dərdli papiros sümürən kişiləri görəndə fikirləşirdi ki, bəxtsiz təkcə mən deyiləm, bir sən gör nə qədər bəxtsiz-talesiz var. Yəqin, bunların da mənim kimi bəxtləri küsüb.

Kişi o qədər kasıb-kusuba, dilənçi-yolçuya rast gəldi ki, bərkdən səslədi: - Ay camaat, ay bəxtiqara gəlmişlər, mən bəxtimi axtarmağa gedirəm, gəlin siz də qoşulun mənə. Amma tez də fikrindən daşındı. Qorxdu arxasına düşənlərin, bəxtini axtarmağa gedənlərin sayı-hesabı olmaya. Məmləkətin xanı da bunu qiyam zənn eləyib narahat ola, üstlərinə qoşun çəkə, tutduğunu tuta, asdığını asa, sonra da carçılara car çəkdirə ki, qiyamı yatırtdım. Bundan sonra bir kimsə cınqırını da çıxartmasın. Yox, yaxşısı budu, bəxtinin dalınca tək-tənha getsin.

***

Qabaqda meşəlikdi. Sərin meh əsirdi. Meşəyə girdi. Ağacların sıxlığından göydə günəş görsənmirdi. İrəlilədikcə üşənirdi, xoflanırdı, amma geri dönmürdü. Ağacdan ağaca qonan quşlar civildəşir, cırcıramalar xorla cırıldaşırdı, göyün üzündəsə bir qartal tək-tənha qanad açıb süzürdü. Meşənin dərinliyindən vəhşi heyvanların ulaşması gəlirdi. Kişini get-gedə qorxudan tər basırdı. Amma o, qorxsa da bəxtini tapmayınca geri qayıtmağı heç ağlına da gətirmirdi.

- Bismillah!!! - kişi cığırın tən ortasında şonqumuş canavarı görəndə dik atıldı. Dabanına tüpürüb qaçmaq istəyəndə, canavar dilə gəlib dedi ki, a kişi, qaçma, dayan. Kişi ayaq saxladı. - De görüm hara gedirsən?

Kişi qorxudan titrəyə-titrəyə: - Bəxtim küsüb, onun dalınca gedirəm, - dedi.

Canavar yazıq-yazıq zarıdı:

- A kişi, mənim də bəxtim məndən küsüb, dünya işığına həsrət qalmışam. Şikarsızam, ətə tamarzıyam, əgər mənim bəxtimə rast gəlsən, de ki, yazığam, gözlərimə bir çarə eləsin.

Kişi salamat qurtardığına şükür edib dedi:

- Baş üstə, canavar qardaş, bəxtini tapıb sifarişini ona çatdıraram.

Canavar yoldan çıxdı, kişi keçdi.

***

Bəxtsiz kişi az getdi, çox getdi, gəlib gün çıxanda bir tarlaya çıxdı. Baxdı ki, ata-oğul bir cüt öküzlə yer şumlayır. Salam verib, işiniz avand olsun, dedi.

Cütçülərin ağsaqqalı:

- Çox sağ ol, - deyib öküzləri hişləyib dayandırdı. - Qardaş, gəl bir yanını yerə qoy, uzaqdan gələnə oxşayırsan.

Kişi elə bil himə bənd imiş, heybəsini yerə qoyub oturdu: - Hə, qardaş, uzaqdan gəlirəm, - dedi. - Bardaqdan bir parça su töküb başına çəkdi: - Oxay, ölənlərinizin ehsanı olsun.

- Halal xoşun olsun, - Ağsaqqal cütçü bəxtsizin yanında bardaş qurdu. - De görüm hardan gəlib, hara gedirsən?

Kişi:

- Qardaş, bəxtimin dalınca gedirəm, küsüb məndən, - dedi.

Cütçünün də dərdi təzələndi:

- Qardaş, - dedi, - sən Allah, əgər mənim bəxtimi görsən, denən cütçü deyir ki, bax, görürsən oranı - tarlanın ortasındakı boz təpəni göstərdi: - Neçə ildi, nə illah eləyirəm, orda heç nə bitmir ki, bitmir. Mənə bir məsləhət versin, görüm neyləyirəm. Tarlanın ortasında göz dağı olub mənə.

Kişi:

- Yaxşı, əgər sənin bəxtinə rast gəlsəm, sifarişini çatdıraram, - deyib getdi.

***

Bəxtsiz kişi bəxtini çağıra-çağıra, əzizləyə-əzizləyə, oxşaya-oxşaya gedirdi. Təki bəxti qabağına çıxsın, tale ona yar olsun, işləri qaydasına düşsün, üzünə gün doğsun, balalarının üzü gülsün...

Birdən iki-üç nəfər silahlı kəlpeysər kəsdi yolunu:

- Kimsən?

- Allah bəndəsi.

- Allah bəndəsinin burda nə işi var?

Kişi az qala inildədi:

- Qardaşlar, icazə verin, varım öz yolumla gedim, mən bəxtsiz-talesiz, yoxsul bir kişiyəm. Mənim bir kimsəylə işim yoxdu.

Qaravulçuların böyüyü gur səslə soruşdu:

- A kişi, de görüm hara gedirsən?

- Bəxtimin dalınca!

- Bəxt kimdi, a kişi?

- Bəxt də, başına dönüm, bəxt. İqbal, tale, nə bilim... adamı heç nədən adam eliyən... qaldıran, yendirən, alçaldan, ucaldan, qaraldan, ağardan...

- Daha bəsdi, a kişi, başa düşdüm. Bəxti axtarmaqla tapmaq olmaz, gərək bəxt özü səni gəlib tapsın. Nə bilirsən, bəlkə də, sənin bəxtin bu saat ayaqlarının lap altındadı, başının üstündədi, amma sən onu görmürsən. Qayıt get evinə, havayı yerə vaxt itirmə, hər kəsin bəxti onun öz əlindədi.

Kişi başını buladı:

- Yox, qardaş, Allah eşqinə məndən əl çəkin, mənim bəxtim məndən küsüb, yol verin gedim bəxtimin dalınca.

Qaravulbaşı gördü kişi inadcılın lap yekəsidir, dedi:

- Yaxşı, gedərsən, amma gərək əvvəlcə bizim şahımızın yanına gedək, o, icazə versin.

- Ay balam, nə şah, nə padşah, mən kasıb bir adamam, icazə verin öz yolumla gedim.

Qaravulbaşı səsini qaldırdı:

- A kişi, bura yad məmləkətdi, buranın öz qayda-qanunu var. Gedək şahın yanına, onun icazəsi olmadan kimsə buradan sağ-salamat keçə bilməz.

Kişi naçar qalıb:

- Yaxşı, gedək şahınızın yanına, - dedi.

Qaravulçular kişini şahın yanına apardılar. Sarayın qapısını açıb onu şahın yanına gətirdilər. Şah cavan bir xanımdı, taxtında ədayla oturmuşdu. Xanım çatma qaşlarını bir az da çatıb amiranə səslə soruşdu:

- Kişi, hardan gəlib, hara gedirsən?

- Küsmüş bəxtimin dalınca gedirəm, ağrın alım.

Xanımın gözləri qıyıldı:

- Bəyəm bəxt adamın öz əlində deyil?

Bəxtsiz kişi alimanə görkəm aldı:

- Xanım, qibleyi-aləm, bəxtim öz əlimdə olsaydı, bu günə kimi bir ağ günə çıxardım. Yəqin, bəxtim küsüb ki, həyat üzümə gülmür də. Bax sizin bəxtiniz öz əlinizdədi. Bu boyda məmləkətin şahısınız, hamı sizə baş əyir, qulluq göstərir, varınız, dövlətiniz...

Xanım fikrə getmişdi, sifətinə güclə sezilən bir kədər hopmuşdu. Xanım bir ah çəkdi, handan-hana üzünü bəxtsizə tutdu:

- Kişi, sənə məmləkətimdə azad gəzib-dolanmağa icazə verirəm. Bir halda ki, küsmüş bəxtinin dalınca gedirsən, onda mənim də bəxtimi tap, ona söylə ki, baxma şaham, amma mən də tam xoşbəxt deyiləm, elə bil həyatımda nə isə çatmır, dərdimə bir çarə tapsın.

Kişi bir anda fikirləşdi ki, sən bir Allahın işinə bax, bu boyda məmləkətin şahının da dərdi var, o da bəxtindən gileylənir. Bu dünyadan onun da umacağı var. O da nədənsə yarımayıb. Onun dərdi, istəyi nədir, görəsən?

Bəxtsiz kişi ürəyindən keçənləri şahdan soruşmağa cəsarət eləmədi:

- İcazənizlə gedim, qibleyi-aləm, mən sizin bəxtinizi tapıb dediklərinizi ona çatdıraram - dedi.

Xanım dedi:

- Buyur, gedə bilərsən. Amma bura qayıtmağı yaddan çıxartma.

- Baş üstə, xanım! - deyə kişi baş əyib saraydan çıxdı.

***

Bəxtsiz kişi günlərlə yol getdi, axır gəlib gözəl mənzərəli bir yerə çıxdı. Ayaq saxladı, qulağına qəribə şən səslər gəldi. Gülüş səslərinə doğru addımladı. Gördü paho... göy çəmənlikdə dirsəklənən kim, zarafatlaşan kim - bütün küsmüş bəxtlər burda kefdədi.

Kişi göz gəzdirib küsmüş bəxtini tapdı, tez ona yaxınlaşdı. Bəxti kişiyə "xoş gəlmisən" deyib dikəldi.

- Sağ ol, ey bəxtim-taleyim, - kişi dizi üstə çökdü. - İnsaf elə, sənsiz yaşaya bilmirəm. Çox gileyləndim, qarana deyindim, söyüb-söyləndim, səni nahaqdan incitdim.

Bəxti dedi:

- A kişi, barışdıq, ağlını başına yığıbsansa, fürsəti əldən vermə daha, inşallah ağ gün görərsən.

- Bəs haçan, a başına dönüm?

- Lap bu günlərdə.

Kişi bəxtinə dedi ki, bəs yolda mənə rast gələnlər olub. Dönə-dönə tapşırıblar ki, bəxtlərini tapıb istəklərini çatdırım.

Bəxti, kişinin isnad verdiyi şahın, cütçünün, canavarın bəxtlərini tapıb göstərdi.

Bəxtsiz kişi şahın bəxtindən sorşdu ki, qayıdanda ona nə deyim, nə məsləhət görürsən? Xanımın bəxti güldü:

- Şahın gözünü hakimiyyət, şöhrət tutub. O, başa düşməyib ki, xoşbəxtlik təkcə var-dövlətdə, şahlıqda deyil. Qapısına gələn elçiləri bir-bir geri qaytarır, heç kəsi bəyənmir. Elə bilir həmişə cavan qalacaq. Bəs bilmir ki, bir gün qocalacaq. Qadın ancaq ana olanda xoşbəxt olur. Ona söylə ki, bəxtin dedi bir Allah bəndəsinə ərə getsin.

Cütçünün bəxti yeridi irəli:

- Cütçüyə deyərsən ki, a kişi, o boyda tarlanı əkib-biçirsən, qazanırsan, ancaq balaca bir təpədə heç nə bitmir deyib, darılırsan, o təpəni yaxşı-yaxşı qazsın, orda xəzinə yatır.

Bəxtsiz kişi üzünü canavarın bəxtinə tutdu:

- Nə buyuracam, meşədə heyvan, sürüdə qoyun qoymayıb, basıb hamısını yeyib, indi də Allahın qəzəbinə gəlib. Olub zəlil...

Canavarın bəxti dedi:

- Yazığım da gəlir ona. Hə, denən, onsuz da öyrəşmişə tövbə yoxdu, bir ağılsız insan beyni yesə, gözləri açılar.

Bəxtsiz kişi sağollaşıb sevinə-sevinə yola düzəldi.

***

Kişi qorxa-qorxa girdi şahın sarayına. Şah soruşdu:

- Bəxtimi gördünmü?

- Gördüm!

- Xanım şahanə görkəm aldı:

- Nə dedi?

Kişinin yanaqları qızardı:

- Xanım, söyləməyə cəsarət etmirəm, - dedi.

- Əmr edirəm, söylə.

Kişi əlacsız qalıb söylədi:

- Bəxtiniz dedi ki, şahlıqla çox da öyünməsin, bir Allah bəndəsinə ərə getsin.

Xanım bir an fikrə getdi, sonra taxtından düşüb bu yarlı-yaraşıqlı kişinin - bəxtsizin yanına gəldi, gözlərinin içinə dik baxıb, dedi:

- Gəl sən heç hara getmə, qal mənim yanımda. Bu saat mollanı çağırtdırım kəbinimizi kəssin, olum sənin halalca arvadın, şahlığı da tapşırım sənə.

Kişi üç addım geri durdu:

- Xanım, nə danışırsan, kənddə arvadım, uşağım, bəs onlar nə olsun?

- Birtəhər yaşayarlar, Allah belə məsləhət bilib, gəl bəxtindən qaçma, elə sənin küs-müş bəxtin mənəm.

- Yox, xanım, mən səni ala bilmərəm, sağ ol, mən getdim.

Kişi otaqdan külək kimi çıxdı çölə.

Az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib cütçülərin yanına çatdı. Cütçü, kişini görüb belini torpağa sancdı:

- Qardaş, bəxtimi gördünmü?

- Gördüm.

- Nə buyurdu?

- Buyurdu ki, o təpəni yaxşı-yaxşı qazsın, orada xəzinə var.

Cütçü belin birini də götürüb kişiyə uzatdı:

- Gəl qazaq, nə çıxsa ata malı kimi bölərik, - dedi.

Gün batanacan qazdılar. Günün son şəfəqləri buludları qızardanda cütçü sevinclə qışqırdı.

- Tapdım. Düz bir küpədi. Nəslimizə, yeddi arxa dönənimizə də bəsdi bu qızıllar. - Üzünü bəxtsizə tutdu: - Qardaş, sözümüz sözdü. Gəl ata malı kimi bölək.

Kişi qalxdı ayağa:

- Əşi, sənin qızılın mənim nəyimə gərəkdi. Məni sən nə hesab eləyirsən...

- A kişi, kasıb adamsan, bir çətən külfət yolunu gözləyir, Allah yetirib də, götür bir ovuc qızıldan tök cibinə, get yaşa özün üçün.

- Yox, mən əyilən kişilərdən deyiləm, gərək deyil. Sağ ol, mən getdim.

- Get, qardaş, özü yıxılan ağlamaz.

Bəxtsiz kişi dan yeri söküləndə canavarın yanındaydı. Canavar hələ onun iyini beş ağaclıqdan almışdı. Kişi ona çatar-çatmaz canavar şirin dilini işə saldı:

- Gözəl kişi, bəxtimi gördün?

Kişi canavarın kor gözünə baxıb dərindən ah çəkdi.

- Hə, gördüm, - dedi.

Canavar yerindən dik qalxıb bir də təzədən şöngüdü:

- Gözlərimin açılmağına bir çarə demədimi?

- Dedi!

- A kişi, bağrım yarıldı, tez söylə görüm, nə dedi?

- Dedi ki, bir ağılsız insanın beynini yesə gözləri açılar.

- Elə beləcənə dedi?

- Hə, vallah, elə beləcənə söylədi:

Canavar bir an fikirləşdi ki, bu kor vaxtında hardan axtarıb tapacaq ağılsızın birini, elə həmin birisi ayağıyla gəlib çıxıb qabağına.

- Qardaş, yaxın gəl.

Bəxtsiz kişi bir addın qabağa durdu. Canavar dal ayaqları üstə şahə qalxıb qabaq pəncələrini onun çiyninə söykədi:

- Qardaş, görürsən də, gözlərim görmür. Sənin kimi ağılsızı mən bir də hardan tapacam. Sən öz ayağınla gəlib çıxmısan qabağıma. Sən elə mənim bəxtimsən, kişi.

Bəxtini görməyib bəxtini axtaran bəxtsiz kişinin "başsız" başı fəndgir qoca canavara qismət oldu.

**26-27 avqust 1999-cu il**

## “Ədəbiyyat səyyahları” (klv.az) saytı şeir müsabiqəsi elan edir



**”Ədəbiyyat səyyahları” (klv.az) saytı ”V Məmməd Araz Poeziya günü” çərçivəsində Xalq şairi Məmməd Arazın 90 illiyinə həsr olunan ”Hər şeir Vətənin bir əsgəridir” adlı şeir müsabiqəsi elan edir.**

Müsabiqənin məqsədi sənət naminə yazılmış poetik nümunələrin yaranmasına dəstək olmaq, Azərbaycana istedadlı şairlər qazandırmaq, onların cəmiyyətdə və şeir dünyasında layiq olduqları pilləyə qalxmasına yardımçı olmaqdır.

**Müsabiqənin şərtləri:**

Müsabiqədə iştirak edənlərin yaşına və göndərilən poetik mətnlərin həcminə məhdudiyyət yoxdur. Müəlliflər yalnız yeni, indiyədək çap olunmamış şeirləri ilə iştirak edə bilərlər. Şeirlər 14-lük Times New Roman şriftlə və 1,5 intervalla word faylında yığılmalıdır. İştirakçılar müsabiqəyə şeir göndərəndə ad, soyadları ilə birgə şərti adlarını (münsiflər heyətinə təqdim olunması üçün) yazmalıdırlar. Bununla yanaşı şəxsiyyət vəsiqələrinin hər iki üzünü, fotolarını, ünvan və əlaqə nömrələrini qeyd etməklə qısa tərcümeyi- hallarını müvafiq fayllarda aşağıdakı elektron poçt ünvanına göndərməlidirlər:

m.arazmusabiqe@gmail.com

Ədəbi nümunələr müsabiqəyə 2024-cü ilin mart ayının 1-dək qəbul ediləcək, martın 15-dək münsiflər heyəti tərəfindən dəyərləndiriləcək. Münsiflər heyətinə şeirlər şərti imza ilə veriləcək. Qaliblərin elan edilməsi ilə əlaqədar vaxt və tədbir ayrıca elan ediləcək.

**İnformasiya və təşkilati dəstək: Xəzər Universiteti, ”Ədəbiyyat səyyahları” (klv.az) saytı, ”Xəzər-xəbər” jurnalı, ”525-ci qəzet”, ”Ədalət” qəzeti, Qaynarinfo.az**

**Müsabiqə ilə bağlı sual yarandıqda iştirakçılar (+994) 050 592 00 44 telefon nömrəsi ilə əlaqə yarada bilərlər.**

**Müsabiqənin 1-ci mükafatı - 200 AZN;**

**2-ci mükafat - 150 AZN;**

**3-cü mükafat - 100 AZN.**

**Mükafatçılara müvafiq diplomlar təqdim olunacaq.**

**Müsabiqədə ilk onluğa düşmüş müəlliflərə iştirakçı diplomları veriləcək.**

**Müsabiqədə yer tutmayan müəlliflərin məktub və göndərişlərinə geri dönüş edilməyəcək.**

**Ən yaxşı poetik nümunələr klv.az saytında və jurnalımızda dərc ediləcək.**

## Əməkdar artist: “Ola bilər ki, kimsə məni insan kimi qəbul etməsin...”

**Xəbər verdiyimiz kimi Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Əməkdar artist Azad Şükürov da ölkə başçısı tərəfindən 3-cü dərəcəli ”Əmək” ordeni ilə təltif edilib. Adalet.az-a açıqlamasında aktyor ona göstərilən diqqətə görə ölkə başçısına minnətdarlıq edib: ”Təbrikiniz üçün çox sağ olun. Adamın əməyi qiymətləndiriləndə təbii ki, sevinir. Mən bu məsələyə bir az başqa prizamadan yanaşıram. Tutaq ki, kimsə məni insan kimi qəbul etməsin, xasiyyətimdə müəyyən mənfi cəhətlər ola ki, onu götürməsin. Amma mənim sənətimi qiymətləndirməmək bir az hər halda yaxşı hərəkət olmazdı. Bu mənada bu çox böyük qiymətdir, çünki ”Əmək” ordenidir, mənim əməyimə verilən qiymətdir.  Bunu belə qəbul edirəm. Ölkə başçısına dərin minnətdarlığımı bildirirəm. Bu işə rəvac verənlərə də təşəkkür edirəm, minnətdaram”-deyə aktyor bildirib.

**Vasif Əlihüseyn**

# Aqil Abbas: "Qurban Qurbanov bir də o səhvi etməz, bu qəti mümkün olan şey deyil"

*Adalet.az xəbər verir ki, Milli Məclisin deputatı Aqil Abbas teleqraf.com-un suallarını cavablandırıb.*

*Onunla müsahibəni təqdim edirik:*

**- Aqil müəllim, ”Qarabağ” futbol klubu tarixində ilk dəfə UEFA Avropa Liqasında pley-offa yüksəlidi. Komandamızın uğurunu necə dəyərləndirirsiniz?**

- Çox sevindirici haldır. Bu, təkcə ”Qarabağ”ın deyil, Azərbaycan futbolunun qələbəsi hesab edilir. Komandanın baş məşqçisi Qurban Qurbanovu xarici işlər nazirimiz Ceyhun Bayramovla müqayisə edirəm. Qurbanov da futbolumuzun ”xarici işlər naziridir”. Amma təəssüf ki, futbolumuzun prezidenti möhtərəm İlham Əliyev deyil, Rövnəq Abdullayevdir. Yeganə fərq buradadır. Hazırda ”Qarabağ”ımız inamla addımlayır. İnanıram ki, pley-offda da gözəl oyun göstərəcək, uğurlar qazanacaq. Axşamkı oyunda da azarkeşlər komandamızı sona kimi dəstəklədilər. Oyunun 55-ci dəqiqəsində Marko Veşoviç rəqib futbolçunun deyil, bütövlükdə tamaşaçıların ayağını əzdi. Əgər ”Qarabağ” oyunda məğlub olsa idi, 30 min azarkeş stadiondan ”axsaya-axsaya” çıxacaqdı. Mən oyuna evdə baxırdım, Veşoviç mənim də ayağımı ”əzmişdi”. Allaha şükür həmin hərəkət sonda nəticəyə təsir etmədi və yekunda komandamız qalib gəldi. Stadiondan sevinclə, başı dik çıxdıq. Bu, sözsüz ki, böyük bir uğurdur. ”Qarabağ”a ”köhlən atlar” deyirlər. Amma mən həmişə yazıram ki, ”ayğır atlar”dır.

**- Sizcə, ”Qarabağ” bu turnirdə pley-off mərhələsini keçərək 1/8 finala adlaya biləcəkmi?**

- Nə səkkizdə bir, uzağa gedəcəyik. Heç bir nahatlıq yoxdur. Sadəcə o Zubirə demək lazımdır ki, futbol şahmat deyil, kollektiv oyundur. Bu amillərə diqqət etsək, bir az da çox irəli gedə bilərik. Çünki futbol fərdi oyunu sevmir. Bu, Braziliya komandası deyil ki?.. Braziliya futbolunda fərdi futbolu sevirlər.



**- Komandada kimin çıxışı daha çox diqqətinizi çəkir?**

- ”Qarabağ”ın axşamkı 11-ni, hətta Veşoviçi də bəyənirəm. O səhvi etsə də... Ümumilikdə isə hamısını bəyənirəm. Yaxşı uşaqlardır. Qurban Qurbanov da onların sərkərdələridir.

**- Yerli oyunçularımızın çıxışı ilə bağlı təsəvvürləriniz necədir?**

- Çox gözəldir. Keçən oyunda Bəhlul Mustafazadə komandamızı bir qolu ilə xilas etmişdi. Onu necə sevməyim? Hamısı mənim üçün əzizdir. Elvin Cəfərquliyevi, Tural Bayramovu və adlarını saymadığım digər oyunçularımızın hamısı gözəl oynayır. Bu uşaqlar komanda üçün can qoyurlar, özlərini öldürürlər.

**- Hazırda futbol üzrə milli komandamızda durğunluq yaşanır, baş məşqçi postu boş qalıb. Bütün bunların fonunda Azərbaycanda futbol inkişaf edir, ”Qarabağ” kimi klublarımız ölkəmizi yüksək səviyyədə beynəlxalq arenada təmsil edir, önə çıxarır...**

- Çünki milli komandanın başında sərkərdəsi yoxdur. Qonum-qonşudan gələn sərkərdə ilə komanda heç bir şey edə bilməz. Amma Azərbaycan futbolu bu dəqiqə inkişaf yolundadır. Ölkə çempionatını izləyirəm. Gərgin, maraqlı oyunlar gedir. ”Araz-Naxçıvan” futbol klubu surpriz komanda kimi yaxşı çıxış edir, ”Sabah” futbol klubu da özünü toparlayır. ”Zirə” də çox gözəl oynayır. ”Qarabağ”la daban-dabana gedir. ”Səbail” əvvəllər ən zəif komanda idi. Amma indi öz oyununu bərpa edir.

**- ”Qarabağ”ın uğurlarında ad və digər faktorların rolunu necə qiymətləndirirsiniz?**

- Burada sözsüz ki, ad məsələsi də var. Komanda meydana Qarabağ adı ilə çıxır. Futbol mütəxəssisi olmasam da, müəyyən şeyləri bilirəm. Komanda da məşqçilər tez-tez dəyişsə, orada futbol və uğur olmaz. Qurban Qurbanov da gələndə üç il heç kim ondan nəticə istəmədi. O, komandasını toparladı və artıq neçə ildir ki, Azərbaycan futbolunu Avropada təmsil edir. Artıq dünyada Azərbaycanı futbol sahəsində yüksək səviyyədə tanıyırlar. Hətta Cənubi Amerika qəzetləri də ”Qarabağ”dan yazır.

**- Kadi Borgesin yenidən ”Qarabağ”da icarə əsasında oynayacağı deyilir. Onun dönüşü ilə bağlı gözləntiləriniz necədir?**

- Onun dönüşü ilə heç nə dəyişməyəcək. Kadi gedib, məsələ bitib. O, niyə icarə əsasında bura gəlir ki? Demək getdiyi yerdə özünü doğrultmayıb ki, onu icarəyə verirlər. Təbii ki, yaxşı oyunçunu komanda icarəyə verməz.

**- Qurban Qurbanovun yenidən Milli Futbol Komandamıza baş məşqçi olması ilə bağlı cəmiyyətdən də çağırış var. Siz bunu necə qarşılayırsınız?**

- Bu qəti mümkün olan şey deyil. Qurban Qurbanov bir də o səhvi etməz. O bir dəfə səhv etdi, 5 illik müqavilə bağladılar, sonra heç bir il çəkmədi komandadan ayırdılar. O da Berti Foqts deyildi ki, oturub 5 illik müqavilənin pulunu istəyəydi. Qurban Azərbaycanı, futbolumuzu, vətənini sevən adamdır. Ayağını Foqts kimi dirəyib, şantaj edib 5 illik pulunu ala bilərdi. Ona dedilər ki, səni istəmirik, o da cavab verdi ki, mən sizi dünəndən istəmirəm.

**- ”Qarabağ”ın pley-offdakı ehtimal olunan rəqibləri haqqında nə deyə bilərsiniz?**

- ”Qarabağ” ”Milan”, ”Qalatasaray”dan zəif komanda deyil. Komandamız onlardan da güclüdür. ”Qarabağa” nə olub ki? Sadəcə olaraq o komandaların adı var.

# Avropa Məhkəməsi Superliqanın yaradılmasına icazə verdi

**Avropa Məhkəməsi FİFA və UEFA-nın 2021-ci ildə  Avropa-Superliqanın yaradılmasını qadağan edən hərəkətlərini qanunsuz elan edib.**

QOL.az xarici KİV-ə istinadən xəbər verir ki, təşkilatların Avropada klub yarışlarında monopoliyası yoxdur:

Superliqa indi Avropa qanunlarına uyğun olaraq rəsmi olaraq yaradıla bilər.Xatırladaq ki, 2021-ci ilin mayında Superliqa UEFA və FİFA-nı rəqabət qanunlarını pozmaqda ittiham etmişdi. Həmin ilin aprelində Avropanın 12 klubu Superliqanın yaradıldığını elan etmişdi.

Buraya İngiltərənin ”Arsenal”, ”Liverpul”, ”Mançester Siti”, ”Mançester Yunayted”, ”Tottenhem”, ”Çelsi”, İspaniyanın ”Atletiko”, ”Barselona”, ”Real”, həmçinin İtaliyanın ”İnter”, ”Milan” və ”Yuventus” klubları daxil idi.




**Sonradan tənqidlər fonunda 9 klub ”Barselona” və ”Real”ın maraqlı olduğu layihədə iştirakdan imtina edib. Beləliklə, yeni qərara əsasən, İspaniya komandaları Çempionlar Liqası, Avropa turnirləri və ya FİFA yarışlarından kənarda qala bilməz.**

## “Nigar Camalın o şouda ekspert kimi iştirakı doğru deyil”

İradə İsak İTV-yə irad tutdu



**”İştirakçıların yeri gəldi-gəlmədi bu şounu keçirdiyi üçün İTV-ni, verilişi tərifləməsi, ”bizdə də belə layihə çəkilir, ay aman” sözlərini hər dəfə xüsusən qeyd etməsi çox sünilik yaradır. Bu, əziklikdən qurtulmaq gərək”.**

Adalet.az xəbər verir ki, telejurnalist İradə İsak ”İTV”-də yayımlanan ”Maska” şousu haqqında iradlarını dilə gətirib.

”TV-dən yox, sosial şəbəkədə paylaşılan hissəcikləri izləmişəm. Hələ ən yaxşı hissələri yəni. Müsbətləri öz yerində. Həqiqətən yaxşı hazırlanır. Maskalardan tutmuş çıxışlara qədər. İki məqam ürəyimcə olmadı. Birincisi, Nigar Camalın ekspert kimi iştirakı doğru deyil. Tamam, xanım ”Eurovision” qalibdir, filan öz yerində. Amma Azərbaycan musiqisindən, dilindən, ənənələrindən uzaq insandır. Demək olar ki, az adam tanıyır. Əgər özləri demiş məşhur xəfiyyələrin işi qəhrəmanın kimliyini tapmaqdırsa, bu iş qətiyyən onluq deyil. Və hər dəfə də digər iştirakçıların ağzından çıxanları təkrarlamaqla məşğul olur. İkincisi, iştirakçıların yeri gəldi-gəlmədi bu şounu keçirdiyi üçün İTV-ni, verilişi tərifləməsi, ”bizdə də belə layihə çəkilir, ay aman” sözlərini hər dəfə xüsusən qeyd etməsi çox sünilik yaradır. Bu, əziklikdən qurtulmaq gərək. Maska nə İTV-nin layihəsidir, nə də burda qeyri-adi nəsə yoxdur. Beynəlxalq layihədir, pulu olan alır, alanla da şərt kəsirlər ki, layihənin mövcud standartlarından çıxmaq, keyfiyyəti aşağı salmaq olmaz. Vəssalam, yoxsa dərhal dayandırılar. Mən bir dəfə də elə bahalı layihəni gətirdiyi üçün Acuna təşəkkür edən bir münsif görmədim. Yəni artıq bu əziklik, yersiz tərif sindromunu bitirmək lazımdır. Qalan hər şey əladır.

Orada da ən doğru münsif olaraq Murad Arifi görürəm. Nigar Camalın yerinə isə kimi görürsünüzsə, təbii Azərbaycan və dünya musiqisini bilən, başı çıxan birini. Mən Teymur Əmrah olaraq düşündüm. Həm də adamın şou tərəfləri də var. Maraqlı fikirləri var”.

## Aktyor atasından qalan miras haqqında danışdı

**Tanınmış aktyor Kamran Ağabalayev futbol sevgisindən danışıb.**



Adalet.az xəbər verir ki, aktyor ”Neftçi” futbol klubu ilə bağlı paylaşımında bu sevginin ona atasından miraz qaldığını bildirib.

”Uşaqlıqdan addım atıb topa toxunanda ilk eşitdiyim ”Neftçi” sözü olub, topu sadəcə olduğu kimi deyə bilərdik, amma yox, onun da xüsusi adı var idi, ”Neftçi topu”. Uşalığımızın ən dəyərli 2 hədiyyəsi, atamın mirası ”Neftçi” və ”Neftçi topu”dur. Şəxsi fikrimdir, bu ölkədə futbol ”Neftçi” ilə başlayıb, ”Neftçi” ilə davam edir və edəcək. Mən azarkeşəm, böyük-böyük deyirəm, ”Neftçi” azarkeşi. Kiminə atasından ev-eşik, bağ, dükan miras qalır, mənə düşən də bu olub və xeyli məmnunam. Təbii eniş də olacaq, yoxuş da olacaq və atam mənə deməmişdi ki, hər il çempion bizik, demişdi ki, yay, yaz, qış, bahar yanında ol.

”Sabah önəmli oyunumuz var”, - deyir azarkeşlər, bir söz deyim, inciməyin, ”Neftçi” və önəmli sözləri mənim üçün yan-yana gələ bilməz. Səbəb? Neftçi elə önəmin özüdür mənim üçün, qələbə də qazansaq, məğlub da olsaq. Atamın mirası qələbə olmayıb, ”Neftçi” olub”.

## Maykl Ceksonun bu mahnısı çayda intihar edən qıza yazılıb



**Maykl Ceksonun əfsanəvi mahnısı ”Smooth Criminil”da düz 42 dəfə ”Annie are you OK?”, yəni ”Annie, yaxşısanmı?” sualı verilir. Kimdir bu Annie?**

1930-cu illərdə Parisdəki məşhur Sena çayının sahilində şəxsiyyəti bilinməyən bir gənc qızın cəsədi tapılır. Aparılan araşdırmada qızın 16-17 yaşlarında olduğu və intihar etdiyi məlum olur. O dövrdə tapılan cəsədlər yaxınlarının tapa bilməsi üçün morqda sərgilənirdi, amma adı sonradan ”Linconnue de La Seine”, yəni ”Sena çayının bilinməyən qadını” adlandırılan bu qıza kimsə sahib çıxmamışdı. Qızın cəsədi üzərində tədqiqat aparanlaronun üzündə bir təbəssüm olduğunun fərqinə varmışdılar və morqun işçilərindən biri qızın üzünün qəlibini çıxarmağa qərar verib bundan bir maska hazırlayır. Bir oyuncaq istehsalçısı bu maskanı görüb bəyənir, bu üzdən bəzi uşaq oyuncaqlarında istifadə etmək istəyir və bu gəlinciklərə də ”Annie kuklası” adını qoyur. Daha sonra 1958-ci ildə amerikalı həkim Peter Safar ağızdan süni tənəffüsü kəşf edir və bunun tədrisində istifadə etmək üçün oyuncaq istehsalçısından 500 dənə gerçək insan ölçülərində ”Annie kuklası” sifariş edir. Bu tarixdən sonra zamanla bütün dünyada süni tənəffüs tədrisləri üçün eyni model cansız mankenlərdən istifadə olunmağa başlayır.

Bir çayda həyatını itirən qızın təbəssümlü dodaqlarından yüz minlərlə insanın həyatını qurtaran öpüş gizlənir. Maykl Ceksonun əfsanəvi mahnısı ”Smooth Criminil”da düz 42 dəfə  verilən ”Annie are you OK?”, yəni ”Annie, yaxşısanmı?” sualı da ilk yardım tədrisində cansız mankenə ”yaxşısanmı?” deyə səslənilməsindən yola çıxaraq yazılıb.

## Ramiz Mirzəzadə: “Amma kaş “Şaxtyor” gələrdi”

**UEFA Avropa Liqasında pley-off mərhələsinin püşkü atılıb. Azərbaycan təmsilçisi ”Qarabağ” bu mərhələdə Portuqaliyanın ”Braqa” klubu ilə qarşılaşacaq.**



Adalet.az xəbər verir ki, CBC sportun idman şərhçisi Ramiz Mirzəzadə püşkatmanın nəticəsi ilə bağlı fikirlərini bölüşüb.

”Xeyirlisi! Amma kaş ”Şaxtyor” gələrdi. Bu qədər gözləmişdi püşk. Portuqaliya klubları ilə oynamaq çətindir. ”Qarabağ” stilində - texnikalı, sürətli oyuna üstünlük vermələri işimizi xeyli çətinləşdirə bilər. İstənilən halda təmsilçimizə yalnız və yalnız uğurlar arzulayıram. Tarix yazmaq üçün çətin rəqibləri arxada qoymaq bu işin yazılmamış qanunlarındandır”.

**Emin**

# Azərbaycanın ilk rəssam qadınının taleyi

**Azərbaycanın ilk qadın rəssamı Azərbaycan SSR əməkdar incəsənət xadimi Reyhan xanım Topçubaşovanın doğum günüdür.**





Yəqin ki, bu adı bir çoxunuz tanımırsınız, bəlkə də heç ömründə bu ada rast gələnlər də olmayıb. Çünki Azərbaycan tarixini , ədəbiyyatını , mədəniyyətini, incəsənətini zənginləşdirən bir çox istedadlı şəxslərin təbliği aparılmır, onlar müasir gəncliyə tanıdılmır.

Əvvəlcə Reyhan Topçubaşovanın kim olması ilə əlaqdar bir neçə nəfərə sorğu ünvanladım. Sorğuda ziyalılar da olmaqla təxminən 11 nəfər iştirak etdi .

Təəssüf hissi ilə deyirəm ki, Azərbaycanın ilk rəssam qadını haqqında 11 nəfər arasında məlumatı olan yox idi.Təhsilimizin və mədəniyyət təbliğatçılarının fəaliyyətsizliyinə əsəbləşib sorğumu yarımçıq dayandırdım.

Əvvəl təbliğ edək, sonra tələb edək.

Reyhan Topçubaşova 15 dekabr 1905-ci ildə Qubada anadan olub. Ziyalı bəy nəslindən olması onu dünyəvi elmləri kiçik yaşlarından həvəsləndirir. Atası İbrahim bəy Axundzadə dövrünün tanınmış və savadlı bəylərindən olub. Bibisi Səkinə xanım(atasının baçısı) ilk qadın dramaturq, Azərbaycanın ilk qadın müəllimlərindəndir. Yazıçılıqla, o cümlədən dramaturgiya ilə də məşğul olub. Babası yazıçı Mirzə Heybət Axundzadə ”Fəda” təxəllüslü ilə şeirlər yazırdı və A.A.Bakıxanovun təşkil etdiyi ”Gülüstan” ədəbi məclisinin üvzü idi.

Filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə rəssam haqqında araşdırma məqaləsində yazır: ”Azərbaycan qadını” jurnalının 1946-cı il 4-cü sayında Reyhan xanımın özü və yaradıcılığı haqqında yazdığı bir məqalədə oxuyuruq:

”Mən 15 dekabr 1905-ci ildə anadan olmuşam. Uşaqlığımdan bütün vaxtımı şəkil çəkməyə və sevdiyim musiqiyə sərf edirdim. Xırda yaşlarımda ancaq karandaşla çəkirdim. Xatırlaya bilmirəm nə üçün rənglə deyil, karandaşla çəkirdim; yəqin ki, bu hal rəng ilə çəkməyi bacarmadığımdan irəli gəlmişdir”.

Reyhan xanım ilk təhsilini tanınmış Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda açdığı Qızlar məktəbində almışdır. Özünün dediyi kimi, uşaqlıqdan həm yaxşı rəsmlər çəkir, həm də musiqiylə məşğul olurdu. Ən böyük və çoxdankı arzularını içində boğa bilməyən Reyhan xanım 1923-cü ilə kimi pedaqoji sahədə çalışmaqla yanaşı, konservatoriyanın fortepiano sinfində təhsil alır. Lakin oğlu İbrahimin dünyaya gəlişi ilə bağlı olaraq təhsilini yarımçıq saxlayır”.

İndi oxucularımıza 18 yaşlı bu xanımın kiminlə ailə qurduğu haqqında məlumat verək: Deməli Azərbaycanda Topçubaşovlar nəslini tanımayan tapılmaz.(Ən azından mən belə düşünürəm-red-Ə.R) Bu tanınmış nəsil Azərbaycan xalqına böyük və təkrarsız xidmətləri ilə tanınır. (Sizə söz verirəm ki, bu nəsil haqqında bir gün sizə maraqlı məlumatlarla dolu bir yazı təqdim edəcəyəm-red-Ə.R)

Bəli Topçubaşovlar nəslindən olan Ağabəyin Mustafa adlı bir oğlu olur. Həmin o Mustafa kiçik olarkən Topçubaşovlar nəslinin fəxri olacağına yəqin ki qəlbən inanıblar.

Mustafa Topçubaşov Azərbaycan sovet cərrahı, ictimai və dövlət xadimi, Azərbaycanda tibb təhsili və səhiyyənin təşkilatçısı, respublikada cərrahlıq elmi məktəbinin banilərindən biri olur. Azərbaycan SSR EA akademiki (1945), Bolqarıstan Xalq Respublikası EA-nın müxbir üzvü (1951), SSRİ Tibb Elmləri Akademiyasının akademiki (1960), ”Stalin” mükafatı laureatı (1943), Sosialist Əməyi Qəhrəmanı (1975), Azərbaycan SSR əməkdar elm xadimi (1940), Azərbaycan SSR EA vitse-prezidenti (1951-1956 və 1969-1981). Azərbaycan SSR Ali Sovetinin sədri (1955-59 və 1967-71), Azərbaycan SSR Ali Sovetinə (1-10-cu çağırış) deputat kimi ömrünü xalqına xidmətdə keçirib.

Mustafa həkimin 28, xanımın 18 yaşı olarkən onlar ailə həyatı qururlar. Bir il sonra ailədə daha bir məşhur Topçubaşov doğulur. 1924-cü il noyabrın 5-də Bakı şəhərində anadan olan körpənin adını İbrahim qoyurlar. Bu həmin İbrahim Topçubaşovdur ki, Azərbaycan görkəmli alimi, tibb elmləri doktoru, professo eyni zamanda həm də bəstəkar kimi tanınıb. O, bir cox lirik mahnının müəllifidir.

Yeri gəlmişkən,  Azərbaycanın məşhur estrada, muğam və opera müğənnisi, aktrisa, Azərbaycan Respublikasının xalq artisti Flora Kərimova mediaya açıqlamasında deyir: ”Həyat yoldaşım İbrahim Topçubaşov xəstələri mənim mahnılarımın sədaları altında əməliyyat edirdi, bunun anesteziya təsiri olduğunu hesab edirdi. Yer üzündə ilk dəfə musiqi ilə müalicəni o etmişdi. Onun yoxluğundan çox illər sonra bu metod dünyaya yayıldı. Əlbəttə ki, yaxşı həkimin yanında gözəl musiqi səslənməlidir”. Bəli, İbrahim bəyin bəstəkarı olduğu məşhur ”Qubalı qız”  mahnısı Flora xanıma həsr edilmişdi.

1927-ci ildə isə əkiz Zemfira və Elmira dünyaya gəlir. Sonralar bu ekiz qızlar böyüyəcək və illər uzun illər Tibb Universitetinin Mama-ginekologiya kafedrasında dosent vəzifəsində çalışmış Zemfira xanım və Azərbaycan Musiqi Akademiyasının dosenti vəzifəsində işləmiş Elmira xanım kimi ziyalılar sırasına qatılacaqdılar. Keçək N. Şəmsizadənin yarımçıq qoyduğumuz araşdırmasının davamına:”İlk ixtisas təhsili yarımçıq qalanda Reyhan xanım həyatda çox bədbinləşmişdi. Xüsusən peşəkarların işlərinə baxanda rəssamlığa başlamağına artıq gec olduğunu düşünürdü. Lakin daxilində günü-gündən alovlanan sənət sevgisi gənc xanımı professorların bu sahə üzrə mühazirələrinə gətirir.

Həmin mühazirələri dinlədikdən sonra Reyhan xanım elə onların mövzusuna uyğun rəng və tuşla tablolar çəkməyə başlayır. Beləliklə, rəssamlığa olan daxili istək və həvəsi 25 yaşlı sənət vurğununu yenidən rənglərin sehrli dünyasına qaytarır.

Reyhan xanım 1933-cü ildə imtahan verərək görkəmli Xalq rəssamı Əzim Əzimzadənin rəhbərlik etdiyi Rəssamlıq Texnikumunun 3-cü kursuna daxil olur, texnikumu 1935-ci ilin iyun ayında əla qiymətlərlə başa vurur. Elə həmin dövrdən də peşəkar sənətdə inamlı işinə başlayır.

1936-cı ildən etibarən Reyhan xanım Azərbaycan rəssamlarının sərgilərinə qatılmağa başlayır. İlk sərgidə gənc qadın rəssamın ”Toy” adlı çoxfiqurlu əsəri nümayiş olunur. Reyhan xanımın diplom işi olan bu əsər hazırda R.Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində mühafizə olunur. Bu əsərdə müəllif Azərbaycan xalqının milli adət-ənənələrini, etnoqrafik əlamətlərini əks etdirən qədim toylardan birini təsvir etmişdir. Mütəmadi olaraq sərgilərdə iştirak edən Reyhan xanım qadın rəssamların əsərlərindən ibarət ənənəvi sərgilərin təşəbbüskarı olmuş və ilk belə sərgini 1938-ci il martın 8-də təşkil etmişdir.

Müharibə illərində Reyhan xanım Topçubaşova sırf yaradıcılıq işləri ilə yanaşı, Rəssamlar İttifaqının rəhbərliyində də çalışırdı. İttifaqın idarə heyəti sədrinin müavini vəzifəsini daşıyırdı.

Müəllimi Ə.Əzimzadənin sənətkarlıq xüsusiyyətlərini davam etdirən Reyhan xanımın ilk böyük əsəri ”Köhnə Bakı küçəsi” tablosudur. Milli İncəsənət Muzeyində mühafizə olunan bu əsəri rəssam tələbəlik illərində yaratmışdı. Bu işində köhnə Bakının bəzi küçələrində gördüyü epizodları rənglərə köçürmüşdü.

Məktəbdən yayınan uşaqların arşın malı, xalça və s. satılan dükanlar qarşısında əyləşərək küçə əyləncələri ilə məşğul olduqlarını təbii və canlı şəkildə təsvir edən Reyhan xanımın bu əsəri dəfələrlə Azərbaycan sərgilərinin bəzəyi olmuşdur.

Hazırda Milli İncəsənət Muzeyinin daimi ekspozisiyasında nümayiş olunan balerina Qəmər Almaszadənin portreti də rəssam Reyhan xanımın novator istedadının məhsuludur”

Beləliklə, sənətkar 1941-1945-ci illərdə Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədr müavini vəzifəsində çalışıb. O, 10 iyul 1943-cü ildə qadın rəssamlarından ilk ”Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülüb.

Görkəmli cərrah İbrahim Topçubaşov məhsuldar yaradıcılığının coşqun vaxtında - 23 fevral 1970-ci ildə vəfat edir. Anası Reyhan xanım isə ondan cəmi 10 gün sonra, uzun sürən xəstəlikdən dünyadan köçür. Bu kədərli hadisədən 11 il sonra  1981-ci il noyabrın 20-də Əməkdar elm xadimi, SSRİ Tibb Elmləri Akademiyasının akademiki, Sosialist Əməyi Qəhrəmanı adını Mustafa bəy Topçubaşov Bakı şəhərində vəfat edir.

Son olaraq, bu gün Reyhan xanımın bu dünyaya gəlməsindən 118 il keçir... Nə yaxşı ki, doğulmuş!

**Bəli, bir Topçubaşovlar ailəsinin Azərbaycana xidmətdən , vətənə məhəbbətdən ibarət olan mənzərəsini sizə aça bildik, zənnimcə!Gələn yazımızda diğər məşhur Topçubaşovlar haqqında da  məlumatlar verəcəyik!**

**Əntiqə**

Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073  Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN”  nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks:  539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 160**
Çapa imzalanmışdır:
21.12.2023